İxtisasın adı: Heyvandarlıq mütəxəssisi
Modulun nömrəsi: 3.0.0.2.1.2.01

Azərbaycan Respublikası
Təhsil Nazirliyi

TRAKTORLAR VƏ DİGƏR MEXANİKİ NƏQLİYYAT VASİTƏLƏRİNİN İDARƏ OLUNMASI

Bakı – 2016

İxtisasın adı: **Heyvandarlıq mütəxəssisi**

Modulun adı: **Traktorlar və digər mexaniki nəqliyyat vasitələrinin idarə olunması**

Modulun nömrəsi: **3.0.0.2.1.2.01**

Bakı – 2016

Modul dərs vəsaiti müvafiq tədris proqramları üzrə bilik, bacarıq və sərişt‌ələrin verilməsi məqsədi ilə hazırlanmışdır və ilk peşə-ixtisas təhsili müəssisələrində müvafiq modulların tədrisi üçün tövsiyə edilir. Modul dərs vəsaitinin istifadəsi ödənişsizdir və kommersiya məqsədi ilə satışı qadağandır.

Müəllif: **Hikmət Camalov**

Abşeron-Ceyranbatan peşə liseyinin müəllimi

Rəyçilər: Səfa İsmayılov- Qəbələ Peşə məktəbinin müəllimi

Camal Rəsulov- Qəbələ Peşə məktəbi direktor müavini

MÜNDƏRİCAT

Giriş **7**

A. Təlim nəticəsi. Yol hərəkəti qaydaları **14**

A.1 Yol hərəkəti qaydalarına dair əsas anlayışlar, hərəkət iştirakçılarının hüquq və vəzifələri 14

A.1.1 Əsas anlayışları və onların mahiyyəti 14

A.1.2 Yol hərəkəti iştirakçılarının əsas vəzifələri və hüquqları 17

Təlim nəticələrinin qiymətləndirilməsi 18

Nəzəri biliklərin qiymətləndirilməsi 18

A.2 Yol nişanları, yolun nişanlanması və onun xarakteristikası, işıqforun və nizamlayıcının siqnallarının mahiyyəti 20

A.2.1 Yol nişanları və onların mahiyyəti 20

A.2.2 Yolun nişanlanması və onun xarakteristikası 29

A.2.3 Nizamlayıcının və işıqforun siqnallarının mahiyyəti 33

Təlim nəticələrinin qiymətləndirilməsi 37

Nəzəri biliklərin qiymətləndirilməsi 37

Praktik tapşırıqlar və fəaliyyətlər 42

Qiymətləndirmə çərçivəsi 53

A.3 Hərəkətə başlama və manevr etmə, traktor və digər mexaniki nəqliyyat vasitələrinin yolun hərəkət hissəsində yerləşməsi, hərəkət sürəti, ötmə və qarşılıqlı keçmə, dayanma və durma, yolayrıcının keçilmə qaydaları 58

A.3.1 Hərəkətə başlama, manevr etmə 58

A.3.2 Traktor və digər mexaniki nəqliyyat vasitələrinin yolun hərəkət hissəsində yerləşməsi 60

A.3.4 Yolayrıcının keçilmə qaydaları 64

Təlim nəticələrinin qiymətləndirilməsi 74

Nəzəri biliklərin qiymətləndirilməsi 74

Qiymətləndirmə çərçivəsi 79

A.4 Dəmir yol keçidlərindən keçmə, yaşayış zonalarında hərəkət, xarici işıq cihazlarından və səs siqnallarından istifadə qaydaları 84

A.4.1 Dəmir yol keçidlərindən keçmə, yaşayış zonalarında hərəkət 84

A.4.2 Xarici işıq cihazlarından və səs siqnallarından istifadə qaydaları 85

Təlim nəticələrinin qiymətləndirilməsi 87

Nəzəri biliklərin qiymətləndirilməsi 87

Praktik tapşırıqlar və fəaliyyətlər 90

Qiymətləndirmə çərçivəsi 97

A.5 Yedəyə alma qaydaları, istismarı qadağan edən nasazlıqlar və şəraitlər 100

A.5.1 Yedəyə alma qaydaları 100

A.5.2 İstismarı qadağan edən nasazlıqlar və şəraitlər 101

Təlim nəticələrinin qiymətləndirilməsi 103

Nəzəri biliklərin qiymətləndirilməsi 103

Praktik tapşırıqlar və fəaliyyətlər 105

Qiymətləndirmə çərçivəsi 114

A.6 Traktor və digər digər mexaniki nəqliyyat vasitələrinin idarə olunmasında təhlükəsizliyi təmin edən amillər 119

Təlim nəticələrinin qiymətləndirilməsi 121

Nəzəri biliklərin qiymətləndirilməsi 121

Praktik tapşırıqlar və fəaliyyətlər 123

Qiymətləndirmə çərçivəsi 124

A.7 Qəza hallarında zərər çəkənlərə ilk tibbi yardım göstərilməsi qaydaları 126

Təlim nəticələrinin qiymətləndirilməsi 130

Nəzəri biliklərin qiymətləndirilməsi 130

Praktik tapşırıqlar və fəaliyyətlər 131

Qiymətləndirmə çərçivəsi 136

B. Təlim nəticəsi. Traktor və digər mexaniki nəqliyyat vasitələrinin fərdi sürüşü 140

B.1 Traktorun mühərrikini işə salmazdan öncə göstərici cihazlara nəzarət edilməsi və mühərrikin düzgün işə salınması qaydaları 140

Təlim nəticələrinin qiymətləndirilməsi 142

Nəzəri biliklərin qiymətləndirilməsi 142

Praktik tapşırıqlar və fəaliyyətlər 144

Qiymətləndirmə çərçivəsi 149

B.2 Təlim meydançasında traktor və digər mexaniki nəqliyyat vasitələrinin sürülməsi . 151

Təlim nəticələrinin qiymətləndirilməsi 152

Nəzəri biliklərin qiymətləndirilməsi 152

Praktik tapşırıqlar və fəaliyyətlər 153

Qiymətləndirmə çərçivəsi 157

B.3 Traktora (təkərli və tırtıllı) aqreqat və qoşquların qoşulması və traktorların qoşqu ilə idarə olunması 159

B.3.1 Traktorlara aqreqat və qoşquların qoşulması 159

B.3.2 Traktorların qoşqu ilə idarə edilməsi 160

B.3.3 Traktorun gücayırma valından hərəkət alan aqreqatların traktora qoşulması və idarə olunması 160

Təlim nəticələrinin qiymətləndirilməsi 161

Nəzəri biliklərin qiymətləndirilməsi 161

Praktik tapşırıqlar və fəaliyyətlər 162

Qiymətləndirmə çərçivəsi 168

B.4 Traktor və digər mexaniki nəqliyyat vasitələrinin hərəkət intensivliyinin az və çox olduğu yollarda idarə olunması 172

Təlim nəticələrinin qiymətləndirilməsi 173

Nəzəri biliklərin qiymətləndirilməsi 173

Praktik tapşırıqlar və fəaliyyətlər 174

Qiymətləndirmə çərçivəsi 177

B.5 Traktorların aqreqatlaşdıqları maşınlarla və digər mexaniki nəqliyyat vasitələrinin tarlada idarə olunması 178

B.5.1 Traktorların aqreqatlaşdıqları maşınlarla tarlada idarə olunması 178

B.5.2 Digər mexaniki nəqliyyat vasitələrinin tarlada idarə olunması 179

Təlim nəticələrinin qiymətləndirməsi 180

Nəzəri biliklərin qiymətləndirilməsi 180

Praktik tapşırıqlar və fəaliyyətlər 181

Qiymətləndirmə çərçivəsi 185

B.6 İşçilərin əmək mühafizəsi və təhlükəsizlik texnikası, yanğın təhlükəsizliyi, istehsalat sanitariyası və gigiyenası və ətraf mühitin mühafizəsi qaydalarına əməl etməklə yerinə yetirilməsi 189

B.6.1 İşçilərin əmək mühafizəsi və təhlükəsizlik texnikası, yanğın təhlükəsizliyi qaydaları 189

B.6.2 İstehsalat sanitariyası və gigiyenası və ətraf mühitin mühafizəsi qaydalarına əməl edilməsinin təşkili 189

Təlim nəticələrinin qiymətləndirilməsi 190

Nəzəri biliklərin qiymətləndirilməsi 190

Praktik tapşırıqlar və fəaliyyətlər 190

Qiymətləndirmə çərçivəsi 191

B.7 Yerinə yetirilmiş işlərin həcminə görə yanacaq-sürtgü materiallarının məsrəfi və maşının işinin uçotuna dair ilkin sənədlərin tərtibatı 192

Təlim nəticələrinin qiymətləndirilməsi 193

Nəzəri biliklərin qiymətləndirilməsi 193

Modul qiymətləndirmə çərçivəsi 194

Düzgün cavablar 196

Ədəbiyyat siyahısı 200

Giriş

Hörmətli oxucu,

Traktorlar və digər özüyeriyən mexaniki nəqliyyat vasitələrinin idarə olunmasında yol hərəkəti qaydalarını bilmək böyük əhəmiyyət kəsb edir. Bu modulda siz oxuculara yol hərəkəti qaydalarının əsas anlayışları, hərəkət iştirakçılarının vəzifələri və hüquqları, yol nişanlarının və yolların yerüstü nişanlamalarının tələbləri və mahiyyəti, işıqforun və nizamlayıcının siqnalları, yolayrıcılarının keçilmə qaydaları tədris ediləcək.

Hörmətli oxucular, siz bu modulu öyrənməklə yol hərəkətinin əsas anlayışlarını, hərəkət iştirakçılarının və sürücülərin vəzifələrini, hərəkətin nizamlanmasının və yol nişanlarının tələblərinin mahiyyətini, traktor və özügedən mexaniki NV-nin idarə olunmasında bu nişanların tələblərinə əməl etməyi bacaracaqsınız. Bundan əlavə, yol nəqliyyat hadisələrinin səbələrini, zərərçəkənə ilk tibbi yardım göstərilməsi qaydalarını mənimsəyəcəksiniz.

Hörmətli oxucu, nəhayət, siz bu modulu öyrənməklə sonda traktor və digər özügedən mexaniki NV-ni müxtəlif şəraitlərdə praktiki olaraq sərbəst idarə etməyi bacaracaqsınız.

İxtisarlar

NV – nəqliyyat vasitəsi
HH – hərəkət hissəsi
YHQ – yol hərəkəti qaydaları
YNH – yol nəqliyyat hadisələri

Kənd təsərrüfatı ixtisasları üzrə ixtisas modulları – İxtisas üzrə baza təhsil ili
Modulun adı: Sürücülük vəsiqəsi (traktor və digər mexaniki nəqliyyat vasitələri üçün)
Modulun nömrəsi: 3.0.0.2.1.2.01
Dərs saatı (nəzərdə tutulan):

İxtisas üzrə nəzəri dərslər: 26 saat
İxtisas üzrə praktiki dərslər: 54 saat

Modul üzrə ümumi təlim nəticələri: Traktorlar və digər mexaniki nəqliyyat vasitələrinin idarə olunmasında yol hərəkəti qaydalarını bilmək böyük əhəmiyyət kəsb edir. Bu modulda şagirdlərə yol hərəkəti qaydalarının əsas anlayışları, hərəkət iştirakçılarının hüquq və vəzifələri, yol nişanlarının tələblərinin mahiyyətinin dərk edilməsi, nizamlayıcı və işıqforun siqnalları, yolayrıcının keçilməsi qaydaları tədris edilir.

Şagird: Yol hərəkəti qaydalarının əsas anlayışlarını, hərəkət iştirakçılarının və sürücünün vəzifələrini bilir. O, hərəkətin nizamlanması və yol nişanlarının tələblərinin mahiyyətini dərk edir, traktor və digər mexaniki nəqliyyat vasitələrinin idarə olunmasında bu nişanların tələblərinə əməl etməyi bacarır. Yol nəqliyyat hadisələrinin səbəb və nəticələrini anlayır, traktor və digər mexaniki nəqliyyat vasitələrinin idarə olunmasının təhlükəsizliyinin əsaslarını dərk edir və zərər çəkənlərə ilk tibbi yardım göstərilməsi qaydalarını bilir. Traktor və digər mexaniki nəqliyyat vasitələrini müxtəlif şəraitlərdə (az intensiv hərəkət olan yollarda, böyük intensivlik olan yollarda, tarla yolları və tarlada) praktiki olaraq sərbəst idarə etməyi bacarır.

Bu modul üzrə təlim nəticələrinə müvəffəqiyyətlə nail olan şagird traktor və digər mexaniki nəqliyyat vasitələrinin idarə edilməsi üçün sürücülük vəsiqəsi əldə etmək üçün imtahanda iştirak etmək hüququ (digər şərtlər də nəzərə alınmaqla, məs., 18 yaş) əldə edir.

Modul üzrə qeydlər:

1.Bu modul üzrə tədrisin aparılması digər modullardan asılı deyil.
2.Traktor və özüyeriyən maşınların sürülməsi üçün hər şagirdə minimum 16 saat vaxt nəzərdə tutulur. Həmin tapşırıqlar şagirdlərlə fərdi aparılmalıdır.
3. Bu modul 3 iyul 1998-ci ildə qəbul edilən “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununa, “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanına, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin 30 may 2012-ci il tarixli 05/2012-1 nömrəli qərarı ilə təsdiq edilmiş “Traktorlar və digər mexaniki nəqliyyat vasitələrini idarə etmək üçün imtahanların qəbulu və sürücülük vəsiqəsinin verilməsi

haqqında Təlimat”a əsasən hazırlanmışdır. Təlimata əsasən traktor və digər mexaniki nəqliyyat vasitələrini idarə etmək üçün sürücülük vəsiqəsi almaq istəyən hər bir şəxs yol hərəkəti, texnikanın quruluşu və istismar qaydalarından nəzəri, nəqliyyat vasitələrini idarəetmə vərdişləri üzrə təcrübi imtahan verməlidir. Texnikanın quruluşu və istismar qaydaları tədris ilinin digər modullarında tədris edildiyindən bu modulda yol hərəkəti qaydaları və nəqliyyat vasitələrini idarəetmə vərdişləri şagirdlərə aşılanmalıdır.

Tədrisin məqsədi	Tədrisin məzmunu (nəzəri)	Saatların miqdarı (nəzəri)	Tədrisin məzmunu (praktik məşğələ)	Saatların miqdarı (praktik məşğələ)	Metodik göstərişlər
1	**2**	**3**	**4**	**5**	
A. Yol hərəkəti qaydaları					
A.1 Yol hərəkəti qaydalarına dair əsas anlayışları, hərəkət iştirakçılarının hüquq və vəzifələrini bilir.	Əsas anlayışlar, hərəkət iştirakçılarının hüquq və vəzifələri.	2		-	Əsas yol nişanları, yol hərəkəti qaydaları.
A.2 Yol nişanlarını, yolun nişanlanmasını və onun xarakteristikasını, işıqforun və nizamlayıcının siqnallarının mahiyyətini bilir.	Yol nişanları, yolun nişanlanması və onun xarakteristikası, işıqforun və nizamlayıcının siqnalları.	3	Yol nişanlarını, yolun nişanlanmasını və onun xarakteristikasını, işıqforun və nizamlayıcının siqnallarını xüsusi ayrılmış təlim meydançalarında praktiki olaraq öyrənmək.	5	Əsas yol nişanları, işıqforun və nizamlayıcının siqnalları üzrə praktiki məşğələ, işıqforun (svetoforların) elektrikləşmiş modelləri.
A.3 Hərəkətə başlama və manevr etmə, traktorlar və digər mexaniki nəqliyyat	Hərəkətə başlama və manevr etmə, hərəkət sürəti, ara məsafəsi, ötmə və	4	Hərəkətə başlama və manevr etmə, hərəkət sürəti, ara məsafəsi, ötmə və qarşılıqlı keçmə,	6	Ötmə və qarşılıqlı keçmə yol nişanları, stendlər, yol nişanlarının maqnitli maketləri.

vasitələrinin yolun hərəkət hissəsində yerləşməsini, hərəkət sürətini, ötməni və qarşılıqlı keçməni, dayanmanı, durmanı və yolayrıcının keçilmə qaydalarını bilir və tətbiq etməyi bacarır.	qarşılıqlı keçmə, dayanma və durma, yol ayrıclarının (nizamlanan və nizamlanmayan) keçilməsi qaydaları.		dayanma və durma, yol ayrıclarının (nizamlanan və nizamlanmayan) keçilməsi qaydalarına dair praktiki bacarıqlara yiyələnməyə dair praktiki məşğələlər.		
A.4 Dəmir yol keçidlərindən keçmə, yaşayış zonalarında hərəkət, xarici işıq cihazlarından və səs siqnallarından istifadə qaydalarını bilir və tətbiq edir.	Dəmir yol keçidlərindən keçmə qaydaları, yaşayış zonalarında hərəkət, xarici işıq cihazlarından və səs siqnallarından istifadə qaydaları.	2	Dəmir yol keçidlərindən keçmə qaydaları, yaşayış zonalarında hərəkət qaydalarına, xarici işıq cihazlarından və səs siqnallarından istifadə qaydalarına əməl etməklə praktiki iş.	5	Əsas yol nişanları, stendlər, kinofilmlər, animasiyalar, sxemlər.
A.5 Yedəyə alma qaydaları, istismarı qadağan edən nasazlıqlar və şəraitləri anlayır və tətbiq edir	Yedəyə alma qaydaları, istismarı qadağan edən nasazlıqlar.	2	Təhlükəsizlik qaydalarına əməl etməklə yedəyə alma üzrə praktiki məşğələlər.	8	Təhlükəsizlik qaydalarına dair təlimat və məşğələlər.
A.6 Traktor və digər mexaniki nəqliyyat vasitələrinin idarə olunması zamanı təhlükəsizliyin əsaslarını	Traktor və digər mexaniki nəqliyyat vasitələrinin idarə olunması üçün	1	Traktor və digər mexaniki nəqliyyat vasitələrinin idarə olunması zamanı təhlükəsizliyə riayət olunması, sürücünün	2	Təhlükəsizlik qaydaları, sürücünün davranış etikası, yanğın əleyhinə vasitələr.

dərk edir, sürücünün davranış etikasına riayət etməyi bacarır.	təhlükəsizlik qaydaları, sürücünün davranış etikası.		davranış etikasına riayət etməklə işlərin yerinə yetirilməsi.		
A.7 Qəza hallarında zərər çəkənlərə ilk tibbi yardım göstərilməsi qaydalarını bilir və tətbiq etməyi bacarır.	İlk tibbi yardımın göstərilməsi qaydaları və məlumatlar.	1	İlk tibbi yardımın göstərilməsi qaydalarına dair praktiki məşğələlər (süni nəfəs vermə və s.).	7	İlk tibbi yardımın göstərilməsi üzrə rollu oyunlar, kinofilmlər,
B. Traktor və digər mexaniki nəqliyyat vasitələrinin fərdi sürüsü					
B.1 Traktoru işə salmazdan öncə göstəricilərə nəzarət etməyi bilir və düzgün işə salmağı bacarır.	Traktoru işə salmazdan öncə göstəricilərə nəzarət qaydaları.	1	Kabinədə düzgün oturmaq, dəstək və pedallardan istifadə qaydalarını yerinə yetirmək, göstərici nəzarət cihazlarının göstəricilərinə nəzarət, traktoru düzgün işəsalma üzrə praktiki işlər.	4	Trenajor, göstəricilərə nəzarət üzrə praktiki məşğələ.
B.2 Təlim meydançasında (poliqonda) traktor və digər mexaniki nəqliyyat vasitələrin sürülməsini həyata keçirir və verilmiş sürüş tapşırıqlarını yerinə yetirməyi bacarır.	Traktor və digər mexaniki nəqliyyat vasitələrinin sadə hərəkətlərinin həyata keçirilməsi və verilmiş sürüş tapşırıqlarını yerinə yetirməyə dair əsas qaydalar.	1	Təkərli və tırtıllı traktorun yerindən götürülmə qaydası, traktoru (təkərli və tırtıllı) və digər mexaniki nəqliyyat vasitələrini düzünə və döngələrdə sürmək, traktoru marker və ya nişanlanmış xətt üzrə sürmək, traktoru geriyə sürmək.	4	Təlim marşrutlarının sxemi, poliqonda traktor və digər mexaniki nəqliyyat vasitələrinin sürüşü.

B.3 Traktora (təkərli və tırtıllı) aqreqat və qoşquları qoşmağı və traktoru qoşqu ilə idarə etməyi bacarır.	Traktora (təkərli və tırtıllı) aqreqat və qoşquları qoşmağa və traktoru qoşqu ilə idarə etməyə dair təhlükəsizlik qaydaları.	3	Traktora (təkərli və tırtıllı) asma və qoşma aqreqatları yaxınlaşdırmaq, aqreqatları traktora qoşmaq, hidravlik sistemləri düzgün birləşdirmək, traktoru qoşqu ilə adi və çətin yol şəraitində (eniş və yoxuşlu, palçıqlı və qumsal yollarda) sürmək, traktoru qoşqu ilə geriyə sürmək. Traktoru qoşqu ilə darvazadan keçirmək, düzgün saxlamaq.	6	Traktora aqreqat və qoşquları qoşmaq üzrə praktiki məşğələ, traktoru qoşqu ilə sürmək.
B.4 Traktor və digər mexaniki nəqliyyat vasitələrini yol nəqliyyatında (az və ya böyük intensiv hərəkət olan yollarda) sərbəst idarə etməyi bacarır.	Traktor və digər mexaniki nəqliyyat vasitələrini yol nəqliyyatında (az və ya böyük intensiv hərəkət olan yollarda) sərbəst idarə etmək və təhlükəsizlik qaydaları.	1	Traktor və digər mexaniki nəqliyyat vasitələrini şəhər və ya şəhərkənarı yollarda idarə etmək, traktor və digər mexaniki nəqliyyat vasitələrini günün qaranlıq vaxtlarında idarə etmək, traktorların, kombaynların, kənd təsərrüfatı maşınlarının düzgün saxlanması üzrə praktiki işlər.	3	Yol nəqliyyatında sürüşlər, dönmə və təkər izi ilə sürmə üzrə praktiki məşqlər.
B.5 Traktor və digər mexaniki nəqliyyat vasitələrini tarlada idarə		2	Traktor və digər mexaniki nəqliyyat vasitələrini tarlada idarə etmək, dönmə və təkər	3	

etməyi və tapşırılan aqrotexniki işləri yerinə yetirməyi bacarır.			izi ilə sürmə, aparılan işə uyğun işçi dərinliyi və sürətin tarazlanması.		
B. 6 İşləri əməyin mühafizəsi və təhlükəsizlik texnikası, yanğın təhlükəsizliyi, istehsalat sanitariyası və gigiyenası və ətraf mühitin mühafizəsi qaydalarına riayət etməklə yerinə yetirməyi bacarır.	Əməyin mühafizəsi və təhlükəsizlik texnikası, yanğın təhlükəsizliyi, istehsalat sanitariyası və gigiyenası və ətraf mühitin mühafizəsi qaydaları.	2	Texnikadan istifadə zamanı təhlükəsizlik tədbirləri, yüklərin yığılması və daşınmasını üçün təhlükəsizlik tədbirlərinin tətbiqi üzrə praktik işlər.	1	Yanğın əleyhinə vasitələr, əməyin mühafizəsi və təhlükəsizlik qaydaları.
B. 7 Yerinə yetirilmiş işlərin həcminə görə yanacaq-sürtgü materiallarının məsrəfini və maşının işinin uçotuna görə ilkin sənədlərin tərtibatını bilir.	Yanacaq-sürtgü materiallarının məsrəfi normaları, maşının işinin uçotuna görə ilkin sənədlərin tərtibatı qaydaları.	1		-	Maşının işinin uçotuna görə ilkin sənədlərin tərtibinə dair məşğələ, yanacaq-sürtgü materiallarının sərfiyyatına dair praktiki məşğələ.

A. Təlim nəticəsi. Yol hərəkəti qaydaları

A.1 Yol hərəkəti qaydalarına dair əsas anlayışlar, hərəkət iştirakçılarının hüquq və vəzifələri

A.1.1 Əsas anlayışları və onların mahiyyəti

- Yol və onun elementləri - yol hərəkəti qaydalarına, dövlət standartlarına və digər normativ-hüquqi aktlara uyğun olan ölçülərə və kütləyə malik mexaniki nəqliyyat vasitələrinin müəyyənləşdirilmiş sürətlə təhlükəsiz və rahat hərəkətini təmin etmək üçün nəzərdə tutulur. Yolun elementləri hərəkət hissəsi, səki (yol çiyini), ayırıcı zolaq və tramvay yolları;
- Yolun hərəkət hissəsi - yolun nəqliyyat vasitələrinin hərəkəti üçün istifadə edilən hissəsidir (yolun ayırıcı zolaq vasitəsilə dürüst müəyyən edilən və ya müxtəlif səviyyələrdə olan bir neçə hərəkət hissəsi ola bilər);



Şək. 1(a,b,c,ç). Y-yolun ümumi eni; H-hərkət hissəsi; Z-hərəkət zolağı; S-səki; A-ayırıcı zolaq; Ç-yol çiyini; T-tramvay yolları

- Yol çiyini - digər yol istifadəçiləri üçün yolun qalan hissəsinin kənarıdır;
- Baş yol - kəsişən (bitişən) yola nisbətən müvafiq nişanlarla işarələnmiş yol və ya torpaq yola nisbətən bərk örtüyü olan (asfalt və ya sement-beton, daş materialları və s.) yol, yaxud bitişik ərazilərdən çıxışlara nisbətən hər hansı yoldur (ikinci dərəcəli yolda yolayrıcı qarşısında örtüklü sahənin olması onu əhəmiyyətcə kəsişdiyi yola bərabər etmir);

Şəkil 2. Baş yol

- Piyada keçidi - yolun hərəkət hissəsində piyadaların yolu keçməsi üçün nəzərdə tutulan sahə, yaxud mühəndis qurğusudur;
- Yolayrıcı - yolların bir səviyyədə hər hansı kəsişməsi, birləşməsi və ya şaxələnməsi, o cümlədən bunların əmələ gətirdiyi ərazidir;
- Nizamlanan yolayrıcı - hərəkət növbəliliyi işıqforun və ya nizamlayıcının siqnalları ilə müəyyənləşdirilən yolayrıcıdır;

-Nizamlanmayan yolayrıcı - nizamlayıcının olmadığı, işıqforun qurulmadığı və ya söndürüldüyü, yaxud yanıb-sönən sarı rəngli işıq siqnalının işlədiyi yolayrıcıdır;
- Ayırıcı zolaq - yolun ayrılmış elementi olub, yanaşı yerləşən hərəkət hissələrini bir-birindən ayıran, lakin nəqliyyat vasitələrinin, hərəkəti və ya dayanması, eləcə də piyadaların hərəkəti üçün nəzərdə tutulmayan hissəsidir;
- Hərəkət zolağı - yolun hərəkət hissəsinin nişanlama xətti vasitəsilə bölünmüş, eni avtomobillərin bir sırada hərəkəti üçün kifayət edən hər hansı uzununa zolağıdır;
- Səki - yolun hərəkət hissəsinə bitişik olan və ya qazon vasitəsilə ondan ayrılmış, piyadaların hərəkəti üçün nəzərdə tutulan hissəsidir;
- Nəqliyyat vasitəsi - yolda hərəkət üçün konstruksiya imkanları olan və insan tərəfindən idarə edilən qurğu, habelə onun qoşqusudur (nəqliyyat vasitələri mexaniki və insanın, yaxud heyvanın əzələ enerjisi ilə hərəkətə gətirilən nəqliyyat vasitələrinə bölünür);



Şəkil 3. Nəqliyyat vasitələri

- Mexaniki nəqliyyat vasitəsi - asma mühərrikli velosipedlər və relsli nəqliyyat vasitələri istisna olmaqla, hər hansı özügedən nəqliyyat vasitəsidir;

Şəkil 4. Mexaniki nəqliyyat vasitələri

Qoşqu - mexaniki nəqliyyat vasitəsi ilə yedəyə alınmaq üçün nəzərdə tutulan hər hansı nəqliyyat vasitəsidir;
- Yarımqoşqu - avtomobillərə birləşdirilmək üçün nəzərdə tutulan, bir hissəsi avtomobilə söykənərək özünün və yükün kütləsinin xeyli hissəsini onun üstünə salan hər hansı qoşqudur;
- Uzun ölçülü nəqliyyat vasitəsi - uzunluğu 24 metrdən çox olan nəqliyyat vasitəsidir;
- Özügedən maşınlar - tırtıllı traktorlar da daxil olmaqla tikintidə, meşə və kənd təsərrüfatında, başqa işlərdə istifadə üçün nəzərdə tutulan nəqliyyat vasitəsidir;

Şəkil 5. Özügedən maşınlar

-Təkərli traktor - yollarda qoşquları yedəyə almaq üçün istifadə edilən və konstruksiyasına görə maksimum sürəti saatda 30 kilometrdən yüksək olmayan nəqliyyat vasitəsidir;
- Nəqliyyat vasitəsinin dayanması - adamların minməsi və ya düşməsi, yaxud yüklərin yığılması və ya boşaldılması üçün zəruri
olan vaxt ərzində nəqliyyat vasitəsinin hərəkətsiz vəziyyətə gətirilməsidir;
- Məcburi dayanma - texniki nasazlıq və ya aparılan yükün, sürücünün (sərnişinin) vəziyyətinin və ya yolda maneə yaranmasının doğurduğu təhlükə üzündən nəqliyyat vasitəsinin hərəkətinin dayandırılmasıdır;
- Nəqliyyat vasitəsinin durması - əgər nəqliyyat vasitəsi digər yol istifadəçisi və ya hər hansı maneə ilə toqquşmanın qarşısını almaq və ya hərəkət qaydalarının göstərişlərini yerinə yetirmək səbəblərindən başqa, digər səbəblərə görə hərəkətsiz vəziyyətə gətirilmişdirsə və onun dayanması adamların minməsi və ya düşməsi, yaxud yüklərin yığılması və ya boşaldılması üçün zəruri olan vaxtla məhdudlaşmırsa, nəqliyyat vasitəsi durmuş hesab edilir;
- Yol hərəkəti iştirakçısı - hərəkət prosesində piyada, nəqliyyat vasitəsinin sürücüsü, sərnişin, velosipedçi, mal-qara ötürən qismində iştirak edən, habelə avtomobil yollarından, küçələrdən, dəmir yol keçidlərindən və ya nəqliyyat vasitələri ilə adamların və yüklərin daşınması üçün nəzərdə tutulmuş digər yerlərdən istifadə edən şəxsdir;
- Sürücü - hər hansı növ nəqliyyat vasitəsini idarə edən şəxsdir (sürücülüyü öyrədən təlimatçısı da sürücüyə bərabər tutulur);
- Piyada - nəqliyyat vasitələrindən kənarda yol hərəkətində iştirak edən və yolda hər hansı iş görməyən şəxsdir (mühərriksiz əlil arabalarında gedən, velosiped, moped və ya motosiklet aparan, kirşə, əl arabası, uşaq və ya əlil arabası aparan şəxslər də piyadaya bərabər tutulur);



Şəkil 6. Ötmə manevri

Ötmə - hərəkət etdiyi zolağı dəyişməklə hərəkətdə olan bir və ya bir neçə nəqliyyat vasitəsini ötüb keçməkdir;
-Üstünlük - nəzərdə tutulan istiqamətdə digər hərəkət iştirakçılarına nisbətən ilk növbədə hərəkət etmək hüququdur;
-Yol vermək - sürücünün hərəkəti davam etdirməsi və ya yenidən hərəkətə başlaması, hər hansı manevr etməsi başqa nəqliyyat vasitələrinin sürücülərini qəflətən hərəkət istiqamətini və ya sürəti dəyişdirməyə məcbur edə biləcəyi halda, onun hərəkəti davam etdirməməsi və ya yenidən hərəkətə başlamaması, manevr etməməsidir;
- Məhdudiyyətli görünmə - duman, yağış, qar və başqa şəraitdə, habelə toranlıqda yolun 300 metrdən az məsafədə görünməsidir;
- Yol-nəqliyyat hadisəsi - yollarda, küçələrdə, meydanlarda, dəmir yol keçidlərində nəqliyyat vasitələrinin hərəkəti prosesində baş verən və adamların həlakına və ya

müxtəlif dərəcəli bədən xəsarəti almasına, heyvanların və ya hərəkətsiz maneənin vurulmasına, nəqliyyat vasitələrinin, yolların, qurğuların zədələnməsinə və ya başqa maddi zərər dəyməsinə səbəb olan hadisədir.
- İcazə verilən maksimum kütlə - istehsalçı müəssisə tərəfindən müəyyən edilmiş, nəqliyyat vasitəsinin sürücü, sərnişin və yüklə birlikdə yol verilən kütləsinin yuxarı həddidir.
- Sutkanın qaranlıq vaxtı - sutkanın günəş batandan günəş çıxanadək olan müddətidir; - Yaşayış məntəqəsi - giriş və çıxışları müvafiq olaraq 5.22-5.25 nişanları ilə işarələnmiş, əhalinin yığcam məskunlaşdığı ərazidir. Ağ fonu olan 5.22 və 5.23 nişanları yaşayış məntəqələrində hərəkət qaydalarını tənzimləyən müvafiq tələblərin tətbiq olunduğunu, göy fonu olan 5.24 və 5.25 nişanları yaşayış məntəqələrində hərəkət qaydalarını tənzimləyən müvafiq tələblərin bu yolda tətbiq olunmadığını göstərir;
- Yaşayış zonası – yaşayış məntəqəsinin giriş və çıxışları müvafiq olaraq 5.51 və 5.52 nişanları ilə işarələnmiş hissəsidir.

A.1.2 Yol hərəkəti iştirakçılarının əsas vəzifələri və hüquqları

I.Yol hərəkətinin iştirakçılarının əsas vəzifələri:

1) Yol hərəkəti Qaydalarına riayət etməli, yol hərəkətinin təhlükəsizliyi məsələlərinə dair tələblərini bilməli və yerinə yetirməlidirlər;
2) Yol hərəkətinin nizama salınmasında istifadə olunan nizamlayıcının və işıqforların siqnallarına, yol nişanlarına, yolun nişanlanmasına, yol işlərində istifadə olunan səs və işıq siqnallarına, bəzi nəqliyyat vasitələrinin fərqləndirici nişanlarına və nəqliyyat vasitəsi sürücülərinin siqnallarına tabe olmalıdırlar;
3) Yol hərəkəti üçün təhlükəsiz şərait yaratmalı, öz hərəkətləri və ya hərəkətsizliyi ilə digər hərəkət iştirakçılarına, onların nəqliyyat vasitələrinə və başqa əmlaka zərər vurmamalıdırlar;
4) Yol örtüyünü zədələməməli və ya çirkləndirməməli, yol nişanlarını çıxarmamalı, qarşısını kəsməməli, zədələməməli, özbaşına yol nişanları, işıqforlar və hərəkətin təşkilinin digər texniki vasitələrini quraşdırmamalıdırlar;
5) Hərəkətə maneçilik törədən əşyaları və ya materialları ataraq, boşaldaraq və ya yolda qoyaraq yol hərəkətini çətinləşdirməməli və ya onun təhlükəsizliyi üçün qorxu törətməməlidirlər;
6) Yol hərəkəti qanunvericiliyinə riayət olunması barədə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının sərəncamlarını yerinə yetirməlidirlər;
7) Nəqliyyat, yol, kommunal və digər müəssisə və təşkilatların vəzifəli şəxsləri, yolda hər hansı bir iş aparan fəhlələr, eləcə də digər şəxslər müəyyən edilmiş yol hərəkəti qaydalarına təsir göstərə biləcək maneələr yaratmaqdan və başqa hərəkətlərdən çəkinməlidirlər;
8) Özüyeriyən mexaniki nəqliyyat vasitəsini idarə edənin yanında uyğun texnikanı idarə etmə hüququ verən sürücülük vəsiqəsi, sahibi yanında olmadan müvəqqəti idarə edirsə, müddəti keçməyən etibarnaməsi, nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi və sığorta sənədləri olmalıdır;
9) “A” kateqoriyalı traktorçu-maşinistə şəhadətnaməsi ilə 14 kH qədər sinifli təkərli traktorları, “B” kateqoriyalı traktorçu-maşinistə şəhadətnaməsi ilə 14 kH-dan yuxarı sinifli

təkərli traktorları, “V” kateqoriyalı traktorçu-maşinistə şəhadətnaməsi ilə tırtıllı traktorları idarə etməyə icazə verilir;
10) NV-si istehsalçı müəssisə tərəfindən təhlükəsizlik kəmərləri ilə təmin edilibsə, bu NV-nin sürücüsü və sərnişinləri hərəkətdə olarkən kəmərləri bağlamalıdırlar.
II. Yol hərəkəti iştirakçılarının hüquqları:
1) Təhlükəsiz və rahat yol hərəkəti şəraitinə malik olmaq, yolların, küçələrin, meydanların və dəmir yol keçidlərinin hərəkətin təhlükəsizliyi tələblərinə uyğunsuzluğu nəticəsində dəymiş zərərin ödənilməsini tələb etmək;
2) Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları və yol sahibləri qüvvədə olan qanunvericiliyi pozduqda, onların hərəkətlərindən məhkəməyə şikayət etmək;
3) Hidrometeorologiya, yol, kommunal və başqa təşkilatlardan yol hərəkət şəraiti haqqında məlumat almaq hüquqları var.

Təlim nəticələrinin qiymətləndirilməsi

Nəzəri biliklərin qiymətləndirilməsi

Qiymətləndirmə üsulu	Suallar
1. Test sualları	Sual1: Yolayrıcı dedikdə nə başa düşülür? a) Yolların bir səviyyədə kəsişməsi b) Yolların bir səviyyədə birləşməsi c) Yolların bir səviyyədə şaxələnməsi d) Hər biri düzgündür Sual 2: Baş yol nəyə deyilir? a) Torpaq yolla asfalt-beton örtüklü yolun kəsişməsində asfalt-beton örtüklü yol baş yol hesab edilir. b) Asfalt-beton örtüklü yolla daş döşəməli yol kəsişdikdə asfalt-beton örtüklü yol baş yol hesab edilir. c) Kəsişən yolda müvafiq nişanlarla nişanlama aparılmayıbsa, torpaq yolla asfalt-beton örtüklü yolun kəsişməsində asfalt-beton örtüklü yol baş yol hesab edilir. d) Heç bir variant düzgün deyil. Sual 3: Ayırıcı zolaq nədir? a) Ayrılmış hərəkət hissələrini birləşdirir. b) Yanaşı yerləşən hərəkət hissələrini bir-birindən ayırır. c) NV-nin dayanması və durması üçün yerdir. d) Hər bir variant düzgündür. Sual 4: Mexaniki nəqliyyat vasitəsi nədir? a) Hər hansı özügedən NV-dir. b) Asma mühərrikli velosipedlər və tramvaylardan başqa hər

	hansı özügedən NV-dir. c) Ancaq avtomobillərdir. d) İstənilən nəqliyyat vasitəsidir. Sual 5: Ötmə nəyə deyilir? a) Hərəkət hissəsinin kənarında dayanmış NV-ni ötüb keçməkdir. b) Hərəkət zolağını dəyişməklə hərəkətdə olan bir və ya bir neçə NV-ni ötüb keçməkdir. c) Sizi ötən nəqliyyat vasitəsini ötməkdir. d) Bütün variantlar düzgündür. Sual 6: Aşağıdakı variantlardan hansı məhdudiyyətli görünməyə uyğundur? a) Dumanlı havada yolun 400 m-dən az hissəsinin görünməsidir. b) Yağışlı havada yolun 350 m-dən az hissəsinin görünməsidir. c) Toranlıqda yolun 500 m-dən az hissəsinin görünməsidir. d) Qarlı havada yolun 300 m-dən az hissəsinin görünməsidir.
2. Düzgün və ya səhv cavabları seçmək	Aşağıdakı cümlələrin əvvəlində göstərilən boşluğa düzgün(+) və ya səhv (–) olduğunu işarə edin: 1. ( ) Sutkanın qaranlıq vaxtı axşam hava qaralandan səhər açılana qədər olan müddətdir. 2. ( ) İcazə verilən maksimum NV-nin faktik kütləsidir. 3. ( ) NV-də hərəkətdə olan sərnişin hərəkət iştirakçısıdır. 4. ( ) NV-nin hər hansı səbəbdən hərəkətsiz vəziyyətə gətirilməsi durma hesab edilir. 5.( )Texniki nasazlıq səbəbindən NV-nin hərəkətini dayandırması məcburi dayanma adlanır. 6. ( ) Təkərli traktor yollarda qoşquları yedəyə almaq üçün istifadə edilən NV-dir. 7. ( ) “B” kateqoriyalı traktorçu-maşinist sürücülük vəsiqəsi ilə 14 kH--a qədər olan sinifli təkərli traktorları idarə etmək olar.
3. Boşluqları doldurmaq	Aşağıdakı cümlələri oxuyun və boşluqlara uyğun gələn sözləri daxil edin: Sual 1: Sürücünün hidrometeorologiya, yol, kommunal və başqa təşkilatlardan yol .....hərəkət haqqında məlumat almaq hüquqları var. Sual 2: “V” kateqoriyalı traktorçu-maşinistə şəhadətnaməsi ilə ..... traktorları idarə etmək hüququ verilir. Sual 3: Traktoru idarə edən yol hərəkəti üçün .....şərait yaratmalıdır. Sual 4: NV-ni idarə edən sürücü yol hərəkətinin nizama

	salınmasında istifadə olunan nizamlayıcının və ..... siqnallarına əməl etməlidir. Sual 5: Sürücü - hər hansı növ nəqliyyat ..... idarə edən şəxsdir. Sual 6: Piyada - nəqliyyat vasitələrindən kənarda yol hərəkətində iştirak edən və yolda hər hansı ..... görməyən şəxsdir.

A.2 Yol nişanları, yolun nişanlanması və onun xarakteristikası, işıqforun və nizamlayıcının siqnallarının mahiyyəti

A.2.1 Yol nişanları və onların mahiyyəti

I. Yollarda yol hərəkətinin qaydaları və şəraiti barədə müəyyən məlumat saxlayan və yol hərəkətini nizamlayan əsas vasitələrdən biri yol nişanlarıdır.
II. Yol nişanları 7 nişan qrupundan ibarətdir: xəbərdarlıq, üstünlük, qadağan, məcburi hərəkət istiqaməti, məlumatverici-göstərici, servis, əlavə məlumat (lövhəciklər).
III. Hər bir yol nişanının öz nömrəsi olur ki, onun birinci rəqəmi qrupun nömrəsinə uyğun olur, sonrakı rəqəmlər qrupda ardıcıl nömrəni və müxtəliflik mövcud olduqda onun ardıcıl nömrəsini əks etdirir.
IV. Müxtəlif qruplardan toplanan üstünlük nişanlarından başqa, hər qrup yol nişanlarının özünəməxsus rəngi və forması var.
V. Yol nişanlarının sutkanın hər bir vaxtı fərqləndirilməsi və oxunması üçün onlar daxili və xarici işıqlandırılma və ya işıqqaytarıcı səth ilə (nəqliyyat vasitələrinin işıq cihazlarının işığını əks etdirən xırda şüşə kürəciklərinin əsasında xüsusi nazik pərdə) təchiz edilir. Daxildən işıqlandırılmış nişanlar yolun süni işıqlandırılmış yerlərində qurulur. Süni işıqlandırılmamış yollarda işıqqaytarıcı səthli nişanlar tətbiq olunur. İşıqqaytarıcı səthli nişanların 100 metrdən az olmayan məsafədən görünməsi təmin edilərsə, onların stasionar işıqlandırılmış yollarda da qurulmasına yol verilir.
VI. Yol nişanlarının yerləşdirilməsi müvəqqəti xarakter daşıyırsa (məsələn, yollarda təmir işləri görülürsə, yolun üstü sürüşkəndirsə və s.) və onların istifadə edilməsinə ehtiyac qalmayıbsa, bu nişanlar təcili çıxarılmalıdır.
VII. Yolun eyni kəsiyində üçdən artıq yol nişanının qurulmasına icazə verilmir (təkrar olunan nişanlar və əlavə lövhəciklər nəzərə alınmamaqla). Xüsusi qeyd olunmuş hallardan başqa, yolun sağ tərəfində bütün yol nişanları qurulur. İki və ya artıq zolaqla bir istiqamətdə hərəkəti olan yollarda yol nişanları vaxtlı-vaxtında sürücü tərəfindən çətinliklə qavranılarsa, onlarda olan məlumat nəzərə alınmaqla nişanlar təkrar qurulmalıdır. Təkrar nişanlar ayırıcı zolaqlarda, əgər ayırıcı zolaq yoxdursa və əks istiqamətli hərəkət üçün iki hərəkət zolağından artıq hərəkət zolağı nəzərdə tutulmamışdırsa, belə yol nişanları yolun sol tərəfində qurulur. Yolun solunda yerləşdirilən yol nişanının görünməsinin təmin olunması mümkün deyilsə və ya əks istiqamətli hərəkət üçün üç və artıq hərəkət zolağı varsa, onda yol nişanları yolun hərəkət hissəsinin üstündə qurulur.

VIII. Yol nişanlarının qavranması üçün münasib şəraitin yaradılmasının təmin olunması məqsədilə, onlar dəqiq müəyyənləşdirilmiş yerdə yolun hərəkət hissəsinə nisbətən yerləşdirilir.

***Xəbərdarlıq nişanları*:**

I. Xəbərdarlıq nişanları hərəkət zamanı şəraitə uyğun tədbirlər görülməsi tələb edilən yolun təhlükəli sahəsinə yaxınlaşma və təhlükənin xarakteri barədə yol hərəkəti iştirakçılarına məlumat verir.
II. Xəbərdarlıq nişanlarının əsas fərqləndirici əlamətləri (1.3, 1.4 və 1.31 qrupları istisna olmaqla) onların ağ fonlu üçbucaqlı və qırmızı haşiyəli formasıdır. Onlar heç bir məhdudiyyət nəzərdə tutmurlar. Lakin belə nişanları görən sürücü diqqətini artırmalı və şəraitə uyğun təhlükəsizlik tədbirləri görməyə hazır olmalıdır



III. Xəbərdarlıq nişanlarını hərəkətin icazə verilmiş sürətindən, görünmə şəraitindən və onların yerləşdirilməsi imkanından asılı olaraq yaşayış məntəqələrindən kənarda, təhlükəli sahələrin başlanğıcından 150-300 metr, yaşayış məntəqələrində isə 50-100 metr aralıda quraşdırırlar. Zərurət olduqda bu nişanlar başqa məsafədə də quraşdırıla bilər. Bu halda təhlükəli sahəyə qədər yolayrıcı varsa, bu yolayrıcından sonra təkrar nişan 7.1.1 lövhəciyi ilə quraşdırılır. Bundan başqa, kəsişən (və ya birləşən) yolda yolayrıcından 50 metr məsafədə 7.1.3 və ya 7.1.4 lövhəciklərindən biri ilə birlikdə belə xəbərdarlıq nişanı quraşdırıla bilər.
IV. Xəbərdarlıq nişanlarını:
1) Yolun hərəkət hissəsində qısamüddətli işlər aparılarkən 1.23 nişanı işlərin aparıldığı yerə 10-15 metr qalmış (7.1.1 lövhəciyi olmadan);
2) Enişlər və yoxuşlar bir-birinin ardınca gəlirsə, 1.13 və 1.14 nişanları 7.1.1 lövhəciyi olmadan, enişin və ya yoxuşun başlanğıcında;
3) Yaşayış məntəqələrindən kənarda 1.1, 1.2, 1.9, 1.10, 1.21 və 1.23 nişanları təkrarlanırsa, ikinci nişan təhlükəli sahənin başlanmasına azı 50 metr qalmış;
4) 1.3.1 və 1.3.2 nişanları bilavasitə dəmir yol keçidinin qabağında quraşdırılır.

Üstünlük nişanları:
I. Üstünlük nişanları yolayrıclarını, yolun hərəkət hissəsinin kəsişmələrini, habelə əks istiqamətlərdə hərəkət edən iki nəqliyyat vasitəsinin eyni zamanda keçməsinə imkan verməyən dar sahələrini keçmək növbəliliyini göstərir.
II. Üstünlük nişanları başqa qruplardan toplandığına görə vahid forma və rəng fonuna malik deyildir.

Qadağan nişanları:
I. Qadağan nişanları yol hərəkəti iştirakçılarının hərəkətlərinə müəyyən məhdudiyyətlər qoyur, yaxud ləğv edir
II. Onların dairəvi forması, ağ fonu, 3.27-3.30 işarələrinin mavi və qırmızı haşiyəsi var. 3.1, 3.21, 3.23, 3.25 və 3.31 nişanlar rəngli tərtibatla fərqlənir
III. Qadağan nişanları müvafiq məhdudiyyətin qoyulduğu küçə və yolların sahələrinin bilavasitə qabağında və ya onun ləğv edildiyi yerlərdə quraşdırılır. Qadağan nişanları əvvəlcədən 7.1.1 lövhəciyi ilə quraşdırıla bilər.

3. QADAĞA NİŞANLARI

3.1. Giriş qadağandır

3.2. Hərəkət qadağandır

3.3. Mexaniki nəqliyyat vasitələrinin hərəkəti qadağandır

3.4. Yük avtomobillərinin hərəkəti qadağandır

3.5. Motosikletlərin hərəkəti qadağandır

3.6. Traktorların hərəkəti qadağandır

3.7. Qoşqu ilə hərəkət qadağandır

3.8. At-araba ilə hərəkət qadağandır

3.9. Velosipedlə hərəkət qadağandır

3.10. Piyadaların hərəkəti qadağandır

3.11. Kütlənin məhdudlaş-dırılması

3.12. Oxa düşən ağırlığın məhdudlaşdırılması

3.13. Hündürlüyün məhdudlaş-dırılması

3.14. Enin məhdud-laşdırılması

3.15. Uzunluğun məhdud-laşdırılması

3.16. Minimum ara məsafənin məhdud-laşdırılması

3.17.1. Gömrükxana

3.17.2. Təhlükə

3.18.1. Sağa dönmək qadağandır

3.18.2. Sola dönmək qadağandır

3.19. Geriyə dönmək qadağandır

3.20. Ötmək qadağandır

3.21. Ötməyin qadağan edildiyi zonanın qurtaracağı

3.22. Yük avtomobil-lərinin ötməsi qadağandır

3.23. Yük avtomobillərinin ötməsi qadağan edilmiş zonanın qurtaracağı

3.24. Maksimum sür-ətin məhdudlaş-dırılması

3.25. Maksimum sürətin məhdudlaşdırıldığı zonanın qurtaracağı

3.26. Səs siqnalı vermək qadağandır

3.27. Dayanmaq qadağandır

3.28. Durmaq qadağandır

3.29. Ayın tək günlərində durmaq qadağandır

3.30. Ayın cüt günlərində durmaq qadağandır

3.31. Bütün məhdudiy-yətlər zonasının qurtaracağı

3.32. Ehtiyat üçün ayrılmış duracaq yeri

3.33. Nəqliyyat vasitələrinin kateqoriyalarına uyğun sürətin məhdudlaşdırılması

3.34. Təhlükəli yükü olan nəqliyyat vasitələrinin hərəkəti qadağandır

3.35. Partlayıcı və tezalışan yükü olan nəqliyyat vasitələrinin hərəkəti qadağandır

IV. 3.2-3.9, 3.34 və 3.35 qadağan nişanları müvafiq nəqliyyat vasitələrinin hər iki istiqamətdə hərəkətini qadağan edir.

V. Qadağan nişanlarının qüvvəsi aşağıdakılara şamil edilmir:

1) 3.2-3.8 - işarələnmiş sahədə yerləşən müəssisələrə xidmət edən, habelə bu sahədə yaşayan və ya işləyən vətəndaşlara xidmət edən və ya məxsus olan nəqliyyat vasitələrinə. Belə hallarda nəqliyyat vasitələri işarələnmiş sahəyə təyinat yerinə ən yaxın olan yolayrıcından girib-çıxmalıdır;
2) 3.2, 3.28-3.30 - I və II qrup əlillərin idarə etdiyi tanınma nişanına malik nəqliyyat vasitələrinə;
3) 3.18.1, 3.18.2 nişanlarının qüvvəsi, qarşısında nişan qoyulmuş yolun hərəkət hissəsinin kəsişmə yerinə aiddir.
VI. 3.16, 3.20, 3.22, 3.24, 3.26-3.30 nişanlarının qüvvəsi nişanın qoyulduğu yerdən ən yaxın yolayrıcına qədər, yaşayış məntəqələrində yolayrıcı olmadıqda isə yaşayış məntəqəsinin qurtaracağına qədərdir. Yola bitişik ərazilərdən yola çıxış yerlərində, çöl, meşə yolları və qarşısında müvafiq nişanlar qoyulmuş digər ikinci dərəcəli yollarda kəsişmə (qovuşma) yerlərində nişanlar qüvvəsini itirmir.
VII. 5.22 nişanı ilə işarələnən yaşayış məntəqəsindən qabaqda qurulmuş 3.24 nişanı həmin nişana qədər qüvvədə olur.
VIII. Nişanların qüvvədə olduğu sahə aşağıdakı üsullarla azaldıla bilər:
1) 3.16 və 3.26 nişanları üçün - 7.2.1 lövhəciyi tətbiq etməklə;
2) 3.20, 3.22, 3.24 nişanları üçün - onların qüvvədə olduğu sahənin qurtaracağında müvafiq olaraq 3.21, 3.23, 3.25 nişanları qoymaqla və ya 7.2.1 lövhəciyi tətbiq etməklə. 3.24 nişanının qüvvədə olduğu sahəni maksimum hərəkət sürətinin başqa kəmiyyəti göstərilən 3.24 nişanı qoymaqla azaltmaq olar;
3) 3.27-3.30 nişanları üçün - onların qüvvədə olduğu sahənin qurtaracağında 3.27-3.30 nişanlarını 7.2.3 lövhəciyi ilə təkrarən qoymaqla və ya 7.2.2 lövhəciyi tətbiq etməklə, 3.27 nişanı 1.4 nişanlama xətti ilə birlikdə; 3.28 nişanı isə 1.10 nişanlama xətti ilə birlikdə tətbiq edilə bilər: bu zaman nişanların qüvvədə olduğu sahə nişanlama xəttinin uzunluğu ilə müəyyənləşdirilir.
IX. 3.10, 3.27-3.30 qadağan nişanlarının qüvvəsi yolun yalnız nişan qurulmuş tərəfinə şamil edilir.

Məcburi hərəkət istiqaməti nişanları:
I. Məcburi hərəkət istiqaməti nişanları sürücülərə nəqliyyat vasitələrinin hərəkətinin icazə verilmiş istiqamətini, sürətini müvafiq nəqliyyat vasitələrinin hərəkətini, eləcə də piyadaların hərəkəti üçün nəzərdə tutulan yolları göstərir.
II. Bu nişanların dairəvi forması və mavi fonu var.
III. 4.1.1, 4.1.2, 4.1.3, 4.1.4, 4.1.5, 4.1.6 nişanları yalnız oxlarla göstərilən istiqamətlərdə hərəkətə icazə verir. Sola dönməyə icazə verən nişanlar geriyə dönməyə də icazə verir.
IV. 4.1.1-4.1.6 nişanlarının qüvvəsi qarşısında nişan qoyulmuş yolun hərəkət hissəsinin kəsişmə yerinə şamil edilir.
V. Yol sahəsinin başlanğıcında qurulmuş 4.1.1 nişanı ən yaxın yolayrıcına qədər qüvvədə olur. Bu nişan həyətlərə və yola bitişik digər ərazilərə girmək üçün sağa dönməyi qadağan etmir. 4.4 nişanı minik avtomobillərinin, avtobusların, motosikletlərin, və icazə verilmiş maksimum kütləsi 3,5 tondan artıq olmayan yük avtomobillərinin hərəkətinə icazə verir. Bu nişan işarələnmiş sahədə yerləşən müəssisələrə xidmət edən, habelə həmin sahədə yaşayan vətəndaşlara xidmət edən və ya məxsus olan digər

nəqliyyat vasitələrinin hərəkətinə də icazə verir. Belə hallarda nəqliyyat vasitələri işarələnmiş sahəyə təyinat yerinə ən yaxın yolayrıcından girib-çıxmalıdırlır.

4. MƏCBURİ HƏRƏKƏT İSTİQAMƏT NİŞANLARI



Məlumatverici-göstərici nişanlar:



5.8.7.
Zolaqlarda hərəkət istiqamətləri

5.8.8.
Zolaqlarda hərəkət istiqamətləri

5.9.
Ümumi istifadədə olan nəqliyyat vasitələri üçün zolaq

5.10.1.
Ümumi istifadədə olan nəqliyyat vasitələri üçün zolağı olan yol




5.10.2. 5.10.3.
Ümumi istifadədə olan nəqliyyat vasitələri üçün zolağı olan yola çıxış

5.10.4.
Ümumi istifadədə olan nəqliyyat vasitələri üçün zolağı olan yolun qutaracağı

5.11.1.
Geriyə dönmə yeri

5.11.2.
Geriyə dönmə yerinin zonası

5.12.
Avtobusun və ya trolleybusun dayanacaq yeri

5.13.
Tramvayın dayanacaq yeri

5.14.
Minik taksilərinin duracaq yeri

5.15
Duracaq yeri

5.16.1. 5.16.2.
Piyada keçidi

5.17.1. 5.17.2.
Yeraltı piyada keçidi

5.17.3. 5.17.4.
Yerüstü piyada keçidi

5.18.
Tövsiyyə edilən sürət

5.19.1.



5.19.2.



5.19.3.
Dalan





5.20.1.
İstiqamətlərin ilkin göstəricisi



5.20.2.
İstiqamətin ilkin göstəricisi



5.20.3.
Hərəkət sxemi



5.21.1.
İstiqamət göstəricisi



5.21.2.
İstiqamət göstəricisi

5.22.
Yaşayış məntəqəsinin başlanğıcı

(Yaşayış məntəqələrində hərəkət qaydalarını tənzimləyən müvafiq tələblərin tətbiq olunduğunu göstərir)

5.23.
5.22. Yol nişanı ilə işarə edilmiş yaşayış məntəqəsinin qurtaracağı

5.24.
Yaşayış məntəqəsinin başlanğıcı

(Yaşayış məntəqələrində hərəkət qaydalarını tənzimləyən müvafiq tələblərin bu yola tətbiq olunmadığını göstərir)

5.25.
5.24. Yol nişanı ilə işarə edilmiş yaşayış məntəqəsinin qurtaracağı



I. Məlumatverici-göstərici nişanlar hərəkətin müəyyən rejimini tətbiq və ya ləğv edir, eləcə də yaşayış məntəqələrinin və başqa obyektlərin yerləşməsi barədə məlumat verir.
II. Bu nişanların düzbucaq forması var, sürücülərin və hərəkətin digər iştirakçılarını yolun vəziyyətinin xüsusiyyətləri, yaşayış məntəqələrinin adları, onların keçmə qaydaları, küçələrin və yolların ayrı-ayrı sahələrində hərəkət rejiminin müəyyənləşdirilməsi üçün

nəzərdə tutulmuşdur. Bu qrup nişanların müxtəlif fonları var. Yaşıl fon avtomagistral, göy fon bütün başqa avtomobil yolları deməkdir. İşarələrin sarı fonu yolun təmir olunan hissələrinin yanından keçmə üçün tətbiq olunur. Ağ fonu olan 5.22 və 5.23 nişanları yaşayış məntəqələrində hərəkət qaydalarını tənzimləyən müvafiq tələblərin tətbiq olunduğunu, göy fonu olan 5.24 və 5.25 nişanları yaşayış məntəqələrində hərəkət qaydalarını tənzimləyən müvafiq tələblərin bu yolda tətbiq olunmadığını göstərir.

III. 5.40, 5.42, 5.44, 5.46 yol nişanları müvafiq zonanın başladığı yerdə, 5.41, 5.43, 5.45, 5.47 yol nişanları həmin zonanın qurtardığı yerdə quraşdırılır. 5.40, 5.42, 5.44, 5.46 yol nişanları müvafiq zonada yerləşən bütün yollarda qüvvədə olur

IV. Qəza dayanacağı yerləri təcili rabitə telefonu və ya yanğınsöndürənlə təchiz edildikdə 5.48.1 və 5.48.2 "Qəza dayanacağı yeri" yol nişanlarının aşağı hissəsində müvafiq olaraq 6.17 və 6.18 yol nişanları quraşdırılır.

V. 5.49.1, 5.49.2 və 5.49.3 yol nişanları tunellərdə maksimum 50 metr bir-birindən aralı olmaqla 1-1,5 metr hündürlükdə yan divarlarda quraşdırılır və qəza çıxışlarının istiqamətini və məsafəsini göstərir.

VI. 5.50.1, 5.50.2 və 5.50.3 yol nişanları avtomagistraldan çıxış yerlərinədək olan məsafəni göstərir.

Servis nişanları:



6.27 Yeməkxana; 6.8 İçməli su; 6.9 Mehmanxana və ya motel; 6.10 Kempinq; 6.11 Dincəlmə yeri; 6.12 Yol polisinin daimi postu; 6.13 Polis hissəsi; 6.14 İnformasiya stendi; 6.15 Tualet; 6.16 Çimərlik; 6.17 Təcili əlaqə telefonu; 6.18 Yanqınsöndürən

I. Servis nişanları yollarda müvafiq obyektlərin yerləşməsi barədə məlumat verir.

II. Servis nişanlarının düzbucaq forması, enli mavi haşiyəsi var. Müvafiq rəmzlər ağ fon üzərində təsvir olunur. Servis nişanları yaşayış məntəqələrində bilavasitə obyektlərin yanında və ya onlara dönəcək yerlərdə quraşdırılır. Yaşayış məntəqələrindən kənar yollarda nişanlar əvvəlcədən göstərilən obyektdən 60-80 kilometr, 15-20 km və 400-800 metr aralıda quraşdırılır. Yaşayış məntəqələrinin yollarında onları əvvəlcədən, göstəriləcək obyektlərdən 100-150 metr aralı məsafədə və onlara yaxın dönəcək yerlərdə quraşdırırlar.

Əlavə məlumat nişanları:



I. Əlavə məlumat nişanları (lövhəciklər) birlikdə tətbiq olunduğu nişanların təsirini dəqiqləşdirir və ya məhdudlaşdırır.

II. Lövhəciklər birlikdə tətbiq olunduqları yol nişanının bilavasitə altında yerləşdirilir. Yolun hərəkət hissəsinin qırağında və ya səkinin üstündə asıldıqda, 7.2.2-7.2.4, 7.13 əlavə məlumat nişanları yol nişanlarının yan tərəfində yerləşdirilir.

A.2.2 Yolun nişanlanması və onun xarakteristikası

I. Yolun nişanlanması (5 saylı əlavə) yol hərəkətinin nizamlanmasının səmərəli vasitələrindən biri olmaqla, nəqliyyat axınının qaydaya salınmasına və yolun buraxılış qabiliyyətinin yüksəldilməsinə xidmət edir.

II. Yol nişanlanmasına hərəkət təhlükəsizliyini artırmaq məqsədi ilə yol hərəkəti qaydalarını müəyyənləşdirən, yol qurğularının ölçülərini və ya yolun istiqamətini bildirən, yolun hərəkət hissəsinə, yolun və yol qurğularının digər elementlərinə çəkilən xətlər, yazılar və digər qeydlər aiddir. Yol nişanlanması müstəqil şəkildə, habelə yol nişanları və işıqforlarla birlikdə tətbiq olunur.

III. Yolun nişanlanmasının aşağıdakı formaları var:

1) Üfüqi;

a) Uzununa (1.1-1.11);

b) Köndələninə (1.12-1.15);
v) Digərləri (1.16.1-1.24);2) Şaquli.
V. Yolun nişanlanması yol hərəkətinin təşkilinə, yol hərəkəti iştirakçılarının xəbərdar edilməsinə və istiqamətləndirilməsinə xidmət edir. Ondan müstəqil şəkildə ayrıca və ya tələblərini dəqiqləşdirdiyi və yaxud tamamladığı yol nişanları ilə birgə istifadə edilir.
V. Yolun üfüqi nişanlanması müəyyən hərəkət rejimini və hərəkət tərzini müəyyən etməklə, yolun hərəkət hissəsinə, sarı rənglə olan 1.4, 1.10 və 1.17 xətləri istisna olunmaqla, ağ rəngdə çəkilir.



VI. Üfüqi nişanlanma xətləri aşağıdakılardır:
1) 1.1 - əks istiqamətli nəqliyyat axınlarını ayırır və yolların təhlükəli yerlərində hərəkət zolaqlarının sərhədini, yolun hərəkət hissəsinin giriş qadağan edilən sərhədlərini, nəqliyyat vasitələrinin duracaq yerlərinin sərhədlərini və avtomagistrallara aid edilməyən yolların hərəkət hissəsinin kənarlarını göstərir;

2) 1.2 - avtomagistrallarda hərəkət hissəsinin kənarını göstərir (enli bütöv xətlər);
3) 1.3 - dörd və daha çox hərəkət zolağı olan yollarda əks istiqamətli nəqliyyat axınlarını ayırır;
4) 1.4 - 3.27 nişanı ilə birlikdə tətbiq edildikdə dayanma qadağan olunan yerləri bildirir və hərəkət hissəsinin kənarına və ya bordürün üst hissəsində çəkilir;
5) 1.5 - iki və ya üç zolağı olan yollarda əks istiqamətli nəqliyyat axınlarını ayırır, bir istiqamətdə hərəkət üçün iki və daha çox zolaq olduqda, hərəkət zolaqlarının sərhədlərini göstərir;
6) 1.6 - əks istiqamətli və ya eyni istiqamətli nəqliyyat axınlarını ayıran 1.1 və ya 1.11 nişanlanma xətlərinə yaxınlaşma barədə xəbərdarlıq edir (yaxınlaşma xətti - cizgilərinin uzunluğu onların aralarındakı məsafədən üç dəfə böyük olan qırıq xətlər);
7) 1.7 - yolayrıcının hüdudlarında hərəkət zolaqlarını göstərir (cizgiləri qısa və onların aralarındakı məsafə cizginin uzunluğuna bərabər olan qırıq xətlər);
8) 1.8 - sürətləndirmə və ya tormozlama zolağı ilə yolun hərəkət hissəsinin əsas zolağı arasında sərhədi göstərir (enli qırıq xətlər müxtəlif səviyyələrdəki yolayrıclarında, kəsişmələrdə, avtobus dayanacaqları zonasında və sair yerlərdə);
9) 1.9 - reversiv hərəkətlə nizamlanma tətbiq edilən hərəkət zolaqlarının sərhədlərini göstərir, qarşılıqlı hərəkətlə nizamlanma tətbiq olunan yollarda əks istiqamətli (qarşılıqlı hərəkət işıqforları söndürülən zaman) nəqliyyat axınlarını ayırır;
10) 1.10 - 3.28, 5.40 nişanları ilə birlikdə tətbiq edildikdə duracağın qadağan olunduğu yerləri bildirir və hərəkət hissəsinin kənarına və ya bordürün üst hissəsində çəkilir;
11) 1.11 - yalnız bir zolaqdan çıxaraq yerdəyişməyə icazə verilən yol sahələrində əks və ya eyni istiqamətli nəqliyyat axınlarını ayırır və yalnız bir tərəfə hərəkət etməyə icazə verilən yollarda duracaqlara girmək və çıxmaq, geriyə dönmək və sair üçün nəzərdə tutulmuş yerləri göstərir;
12) 1.12 (stop-xətt) - 2.5 nişanı olduqda və ya işıqforun (nizamlayıcının) qadağan siqnalı verildikdə, sürücünün dayanmalı olduğu yeri göstərir;
13) 1.13 - kəsişən yolla hərəkət edən nəqliyyat vasitələrinə yol vermək üçün sürücünün lazım gəldikdə, dayanmalı olduğu yeri göstərir;
14) 1.14.1 - nizamlanmayan piyada keçidini, 1.14.2 - piyadaların hərəkət istiqamətini, 1.14.3 - hərəkətin svetoforla nizamlandığı piyada keçidini göstərir;
15) 1.15 - velosiped yolunun yolun hərəkət hissəsi ilə kəsişdiyi yeri göstərir;
16) 1.16.1-1.16.3 - nəqliyyat axınlarının ayrıldığı və ya birləşdiyi yerlərdə istiqamətləndirici adacıqları göstərir;
17) 1.17 - ümumi istifadədə olan nəqliyyat vasitələrinin dayanacaqlarını və taksi duracaqlarını göstərir;
18) 1.18 - yolayrıcında hərəkətin zolaqlar üzrə icazə verilmiş istiqamətlərini göstərir, müstəqil, yaxud 5.8.1, 5.8.2 nişanları ilə birlikdə tətbiq edilir, dalan təsviri çəkilmiş nişanlama xətti göstərir ki, yaxınlıqdakı hərəkət hissəsinə dönmək qadağandır, sol kənar zolaqdan sola dönməyə icazə verən işarə həmin zolaqdan geriyə dönməyə də icazə verir;
19) 1.19 - yolun hərəkət hissəsinin daralan sahəsinə (həmin istiqamətdə zolaqların sayının azaldığı sahəyə), yaxud əks istiqamətlərdə nəqliyyat axınlarını ayıran 1.1 və 1.11

nişanlama xətlərinə yaxınlaşmanı göstərir. Birinci halda 1.19 nişanlama xətti 1.18.1-1.18.3 nişanları ilə birlikdə tətbiq oluna bilər;
20) 1.20 - 1.13 nişanlanma xəttinə yaxınlaşmanı bildirir
21) 1.21 ("stop" yazısı) - 2.5 nişanı ilə birlikdə tətbiq olunduğu hallarda 1.12 nişanlanma xəttinə yaxınlaşmanı bildirir;
22) 1.22 - yolun (marşrutun) nömrəsini göstərir;
23) 1.23 - ümumi istifadədə olan nəqliyyat vasitələri üçün xüsusi zolağı göstərir.
VII. Üfüqi nişanlanma xəttinin xüsusiyyəti:
1) 1.1-1.3 xətlərini kəsib keçmək qadağandır;
2) Nəqliyyat vasitəsini yolun çiynində dayandırmaq üçün hərəkət hissəsinin kənarını göstərən və sürücüdən sağda yerləşən 1.1 və 1.2 xətlərini kəsib keçməyə yol verilir;
3) 1.5-1.8 xətlərini istənilən tərəfdən kəsib keçməyə icazə verilir
4) Qarşılıqlı hərəkət svetoforlar olmadıqda və ya söndürülmüş olduqda, 1.9 xətti sürücüdən sağdadırsa, onu kəsib keçməyə icazə verilir, qarşılıqlı hərəkət işıqforları yanarkən bir istiqamətdə hərəkətə icazə verilən zolaqları bir-birindən ayıran 1.9 nişanlama xəttini istənilən tərəfdən kəsib keçmək olar. Qarşılıqlı hərəkət işıqforları söndürüldükdə sürücü dərhal 1.9 nişanlanma xəttindən sağ tərəfə yerdəyişmə etməlidir. Qarşılıqlı hərəkət işıqforları söndürülmüş olduqda əks istiqamətli nəqliyyat axınlarını ayıran 1.9 xəttini kəsib keçmək qadağandır;
5) 1.11 xəttini qırıq xətt tərəfdən, habelə yalnız ötməni və ya yandan keçməni başa çatdırdıqdan sonra bütöv xətt tərəfdən kəsib keçməyə icazə verilir. Yeri dəyişdirilə bilən dayaqlarda qurulmuş müvəqqəti yol nişanlarının və nişanlanma xətlərinin mənaları bir-birinə zidd gəldikdə, sürücülər yol nişanlarını əsas tutmalıdırlar.
VIII. Yol qurğularının elementlərinə (körpülərə, dəmir yol keçidlərinə, dayaq qurğularına və s.) hasarlara, sütunlara, eləcə də yollarda olan və hərəkət üçün təhlükə yaradan digər obyektlərin üzərinə, onların ölçülərini göstərmək və həmçinin sürücülərin gözlə istiqaməti müəyyənləşdirməsinə kömək etmək məqsədilə ağ və qara rəngli zolaq şəklində şaquli nişanlama çəkilir.
IX. Şaquli nişanlanma xətləri aşağıdakılardır:
1) 2.1 - yol qurğularının hərəkətdə olan nəqliyyat vasitələri üçün təhlükə doğuran ünsürlərini (körpülərin dayaqlarını və s.) göstərir;
2) 2.2 - tunellərin, körpülərin aşırımlarının aşağı kənarını göstərir;
3) 2.3 - ayırma zolaqlarında və ya təhlükəsizlik adacıqlarında düzəldilmiş dairəvi adacıqları göstərir;
4) 2.4 - istiqamətləndirici direkcikləri, yolkənarı kötükcükləri, çəpərlərin dayaqlarını və s. göstərir;
5) 2.5 - kiçik radiuslu döngələrdə, sərt enişlərdə, digər təhlükəli sahələrdə yol sədlərinin yan səthini göstərir;
6) 2.6 - başqa sahələrdə yol sədlərinin yan səthini göstərir;
7) 2.7 - təhlükəli sahələrdə yol səthindən hündürə çıxan təhlükəsizlik adacıqlarını göstərir.

A.2.3 Nizamlayıcının və işıqforun siqnallarının mahiyyəti

Nizamlayıcının siqnalları:

I. Yollarda, yolayrıcılarında və digər yerlərdə yol hərəkəti qaydalarına nəzarəti həyata keçirmək, yol hərəkətinin gərginliyinə yol verməmək və ya onu aradan qaldırmaq üçün nizamlayıcı siqnallarından istifadə olunur.

II. Nizamlayıcının siqnallarının aşağıdakı mənaları var:

1) Bütün nəqliyyat vasitəsi sürücülərinə və piyadalara aid olan siqnallar:



a b c

Şəkil 8. Nizamlayıcının bütün NV-ri sürücülərinə və piyadalara aid olan siqnalları

a) "Diqqət. Hərəkət dayandırılsın" siqnalı hərəkəti qadağan edir, lakin siqnal verilərkən yolayrıcında olan sürücülərə və piyadalara hərəkətlərini davam etməyə icazə verir;



Şəkil 9. Müəyyən istiqamət üzrə hərəkət

b) "Müəyyən istiqamət üzrə hərəkət" siqnalı nizamlayıcının sinə və arxa tərəfindən gələn nəqliyyat vasitələrinin və piyadaların hərəkətini qadağan edir, sol və sağ tərəfindən gələn tramvayların düzünə, relssiz nəqliyyat vasitələrinin düzünə və sağa hərəkət etməsinə, sinə və arxa tərəfindən isə piyadalara yolun hərəkət hissəsini keçməyə icazə verir;

v) "Sola dönmə" siqnalı nizamlayıcının sol tərəfindən gələn tramvayların sola dönməsinə, relssiz nəqliyyat vasitələrinə bütün istiqamətlərdə hərəkət etməyə, sinə tərəfindən gələn nəqliyyat vasitələrinə sağa dönməyə, arxa tərəfindən piyadalara hərəkət hissəsini keçməyə icazə verir, sağ və arxa tərəfindən gələn nəqliyyat vasitələrinin hərəkətini isə qadağan edir;



Şəkil 10. Sola dönmə siqnalı

2) Konkret nəqliyyat vasitəsi sürücüsünə və piyadaya aid olan siqnallar:

a) "Sürəti azaldın" siqnalı nizamlayıcı əl ilə yuxarı-aşağı hərəkətlər edərsə, hərəkətə icazə verilən istiqamətlərdə sürücüdən öz nəqliyyat vasitəsinin sürətini azaltmasını tələb edir;

b) "Sürəti artırın" siqnalı nizamlayıcı əli ilə üfüqi vəziyyətdə (saat əqrəbi istiqamətində) dairəvi hərəkətlər edərsə, hərəkətə icazə verilən istiqamətlərdə sürücüdən öz nəqliyyat vasitələrinin sürətini artırmaq, piyadalardan isə yolu keçməsini tezləşdirməyi tələb edir;

v) "Dayanın" siqnalı nizamlayacı tərəfindən hər hansı nəqliyyat vasitəsinə tərəf yönəldilmişdirsə, onun sürücüsündən öz nəqliyyat vasitəsini yolun hərəkət hissəsinin kənarında dayandırmasını tələb edir.

III. Müstəsna hallarda (yol hərəkətinin təhlükəsizliyini təmin etmək məqsədilə təxirə salınmayan tədbirlərin görülməsi üçün zərurət yaranarsa) nizamlayıcı bu maddənin ikinci hissəsində göstərilən siqnalların mənalarından fərqli olaraq yol hərəkəti iştirakçılarına aydın olan digər siqnalları verə bilər.

IV. Bu maddədə nəzərdə tutulmuş siqnalları verərkən nizamlayıcı fitdən də istifadə edə bilər.

V. Nizamlayıcı elə yerdə dayanmalı və elə təchiz edilməlidir ki, yol hərəkəti iştirakçıları onun tərəfindən verilən siqnalları sutkanın işıqlı və qaranlıq vaxtı seçə bilsinlər. Bu məqsədlə sutkanın qaranlıq vaxtında nizamlayıcı işıq düşən yerdə dayanmalıdır və ya istifadə edilən jezl işıq saçan və yaxud işıq verən olmalıdır.

İşıqforun siqnalları:

I. Yollarda, yolayrıclarında və digər yerlərdə yol hərəkətini nizama salmaq üçün işıqforlardan istifadə olunur. İşıqforların vasitəsi ilə verilən siqnallarda yaşıl, sarı, qırmızı və ağ-sarımtıl rənglər tətbiq edilir.

II. Təyinatından asılı olaraq işıqfor siqnalları dairəvi formalı, ox (oxlar), piyadanın və ya velosipedin silueti şəklində və X formalı ola bilər. Dairəvi siqnallı işıqforların yaşıl ox (oxlar) şəklində bir və ya iki əlavə bölməsi ola bilər: həmin bölmələr dairəvi yaşıl siqnalın səviyyəsində yerləşdirilir.



Şəkil 11. Svetoforların növləri

III. İşıqforun dairəvi siqnallarının aşağıdakı mənaları var:

1) Yaşıl rəngli işığın yanması - bu siqnal hərəkətə icazə verir;

2) Yaşıl rəngli işığın yanıb- sönməsi - bu siqnal hərəkətə icazə verir və bildirir ki, onun vaxtı qurtarır, tezliklə qadağan siqnalı yanacaq (yaşıl siqnalın sönməsinə qədər qalan müddəti sürücülərə bildirmək üçün rəqəmli tablo tətbiq edilə bilər);

3) Sarı rəngli işığın yanması - bu siqnal hərəkəti qadağan və tezliklə siqnalların dəyişəcəyi barədə xəbərdarlıq edir;

4) Sarı rəngli işığın yanıb-sönməsi - hərəkətə icazə verir və nizamlanmayan yolayrıcının və ya piyada keçidinin olduğunu bildirir, təhlükə barədə xəbərdarlıq edir;

5) Qırmızı rəngli işığın yanması və ya yanıb-sönməsi - bu siqnal hərəkəti qadağan edir;

6) Qırmızı və sarı rəngli işıqların eyni vaxtda yanması - bu siqnal hərəkəti qadağan edir və tezliklə yaşıl siqnalın yanacağını bildirir.

IV. İşıqforun oxlar şəklində qırmızı, sarı və yaşıl rəngli işıqlarının mənası müvafiq rəngli dairəvi işıqların mənası ilə eynidir, lakin onların qüvvəsi yalnız oxlarla göstərilən istiqamətə (istiqamətlərə) şamil edilir. Həm də sola dönməyə icazə verən ox, müvafiq yol nişanının geriyə dönməyi qadağan etmədiyi hallarda geriyə dönməyə də icazə verir. Əlavə bölmədəki yaşıl oxun da mənası belədir. Əlavə bölmənin işığının sönməsi bu bölmənin nizamladığı istiqamətdə hərəkətin qadağan edilməsi deməkdir.

V. İşıqforun əsas yaşıl işığının üstünə qara konturlu ox (oxlar) çəkilmişsə, bu, sürücülərə işıqforun əlavə bölməsinin olduğunu bildirir və əlavə bölmənin işığında göstərilən dən fərqlənən digər istiqamətlərdə hərəkətə icazə verir.

VI. İşıqforun işığı piyada (velosiped) silueti şəklindədirsə, onun qüvvəsi yalnız piyadalara (velosipedçilərə) şamil edilir. Bu zaman yaşıl işıq piyadaların (velosipedçilərin) hərəkətinə icazə verir, qırmızı işıq isə onların hərəkətini qadağan edir. Velosipedçilərin hərəkətini nizamlamaq üçün həmçinin dairəvi işıqları olan kiçik ölçülü svetoforlardan da istifadə edilə bilər; həmin svetoforlara üzərində qara rəngli velosiped təsviri olan 200x200 mm ölçüdə ağ rəngli düzbucaqlı lövhə əlavə olunur.

VII. Kor piyadalara yolun hərəkət hissəsini keçməyin mümkünlüyünü bildirmək üçün svetoforun işıq siqnallarına səs siqnalı da əlavə edilə bilər.
VIII. Yolun hərəkət hissəsinin zolaqları ilə, xüsusən hərəkət istiqaməti əks tərəfə dəyişə bilən zolaqları ilə nəqliyyat vasitələrinin hərəkətini nizamlamaq üçün belə yollarda qırmızı rəngli X formalı siqnalı və aşağı yönəldilmiş oxşəkilli yaşıl siqnalı olan qarşılıqlı işıqforlar tətbiq edilir. Bu siqnallar onların altında yerləşən zolaqda hərəkəti müvafiq sürətdə qadağan edir və ya ona icazə verir. Qarşılıqlı svetoforun əsas siqnallarına diaqonal üzrə aşağı sağa və ya sola istiqamətləndirilmiş oxşəkilli sarı siqnal əlavə edilə bilər; onun yanması siqnalın dəyişəcəyini və oxun göstərdiyi zolağa keçməyin zəruriliyini bildirir. Hər iki tərəfdən 1.9 nişanlama xətti olan zolağın üzərində asılmış qarşılıqlı svetofor siqnalları yanmadıqda, bu zolağa girmək qadağandır.
IX. Tramvaylar, habelə digər ümumi istifadədə olan nəqliyyat vasitələri üçün ayrılmış zolaqda hərəkət edən həmin nəqliyyat vasitələrinin hərəkətini nizamlamaq üçün "T" hərfi şəklində yerləşmiş ağ-sarımtıl dörd dairəvi siqnalı olan birrəngli siqnal işıqforları tətbiq edilə bilər. İşıqforun aşağısında yanan siqnalla eyni anda yuxarıda yanan bir və ya bir neçə siqnal - hərəkətə icazə verir. Aşağı siqnalla birlikdə: yuxarıdakı sol siqnal yananda - sola, ortadakı yananda - düzünə, sağdakı yananda - sağa hərəkət etməyə icazə verir. Əgər yalnız yuxarıdakı üç siqnal yanırsa, hərəkət qadağandır.
X. Dəmir yol keçidində yerləşən dairəvi ağ-sarımtıl siqnal nəqliyyat vasitələrinin keçiddən keçib getməsinə icazə verir. Yanıb-sönən ağ-sarımtıl və sönmüş qırmızı siqnal olduqda görmə sahəsi həddində keçidə yaxınlaşan qatarın (lokomotivin, drezinanın) olmadığı halda hərəkətə icazə verir.

İşıqforun və nizamlayıcının siqnallarının yerinə yetirilməsi:
I. İşıqforun və nizamlayıcının siqnallarının yerinə yetirilməsi yol iştirakçıları üçün məcburidir.II. İşıqforun və ya nizamlayıcının qadağanedici siqnalı verildikdə sürücülər nəqliyyat vasitələrini stop-xətt (1.12 yol xətti) qarşısında (əgər bu xətt yoxdursa, piyadaların hərəkətinə maneə törətmədən kəsişən yolun hərəkət hissəsi qarşısında), piyada keçidi qarşısında, digər yolayrıclarında isə svetofor qarşısında dayanmalıdırlar:
1) Yolayrıcında - kəsişən yolun hərəkət hissəsi qarşısında;
2) Dəmir yol keçidi qarşısında;
3) Başqa yerlərdə - hərəkətinə icazə verilən nəqliyyat vasitələrinə və piyadalara maneə yaratmadan işıqfor və ya nizamlayıcı qarşısında.
III. Sürücü nəqliyyat vasitəsini nizamlayıcının göstərdiyi yerdə dayandırmalıdır.
IV. İşıqforun sarı işığı yandıqda və ya nizamlayıcı qolunu yuxarı qaldırdıqda nəqliyyat vasitəsini kəskin tormozlamadan bu maddənin ikinci və üçüncü hissələrində müəyyən edilən yerlərdə saxlaya bilməyəcək sürücülərə hərəkəti davam etdirməyə icazə verilir. Siqnal verilərkən yolun hərəkət hissəsində olan piyadalar keçidi boşaltmalı, bu, mümkün olmadıqda isə, nəqliyyat vasitələrinin əks istiqamətli hərəkətlərini ayıran xəttin üzərində dayanmalıdırlar.
V. Nizamlayıcının siqnalları və göstərişləri işıqforun siqnallarına, yol nişanlarının və nişanlama xətlərinin tələblərinə zidd olduqda belə, sürücülər və piyadalar bu siqnallara və göstərişlərə əməl etməlidirlər.

VI. Dəmir yol keçidlərində svetoforun yanıb-sönən qırmızı siqnalı ilə bərabər, keçiddən keçməyin qadağan olunması barədə hərəkət iştirakçılarına əlavə məlumat vermək üçün səs siqnalı da tətbiq oluna bilər.

Təlim nəticələrinin qiymətləndirilməsi

Nəzəri biliklərin qiymətləndirilməsi

Qiymətləndirmə üsulu	Suallar
1	**2**
1. Test sualları	Sual 1: Hansı nişan şlaqbaumlu dəmir yol keçidinə 150-300 metr qalmış yolun sol tərəfində qoyulur?  a) 1 b) 2 c) 3 d) 4 1 2 3 4 Sual 2: Sürücü ox ilə göstərilən istiqamətdə hərəkəti davam etdirə bilərmi? a) Bəli b) Xeyr c) Ancaq düzünə və sağa hərəkət edə bilər. d) Sola, sağa və geriyə hərəkət edə bilər. Sual 3: Qarşıdan gələn nəqliyyat vasitəsinə nisbətən keçmək üstünlüyü verən yol nişanı hansıdır?  a) Yalnız A,C və D b) Hamısı c) Heç biri d) Yalnız D

Sual 4: Göstərilən şəraitdə yolu hansı istiqamətdə davam etdirmək olar?



a) Yalnız düzünə
b) Düzünə və sağa
c) Hər bir istiqamətdə
d) Geriyə istiqamətdə

Sual 5: Yol nişanları nəyi bildirir?

a) Nişandan 150-300 m sonra 100 m məsafədə yol sağ tərəfdən daralacaq.
b) Nişandan 100 m məsafədə yol sağ tərəfdən daralacaq.
c) Nişandan 50-100 m sonra yol sağ tərəfdən daralacaq.
d) Nişandan 50-100 m sonra yol 100 m məsafədən sonra sağ tərəfdən daralacaq.

Sual 6: Göstərilən yol nişanlarından hansı traktorların sağa dönməsini qadağan edir?



a) Hamısı
b) Heç biri
c) Yalnız A
d) Yalnız A və C

Sual 7: Hansı yol nişanı geriyə dönməni qadağan etmir?

1 2 3

a)Hamısı
b) 1-ci və 3-cü
c) Yalnız 1-ci
d) Yalnız 3-cü

Sual 8: İşıqforun əsas yaşıl işığının üstünə qara konturlu oxun çəkilməsi nəyi bildirir?
a) İşıqforun nasaz olmasını
b) İşıqforun əlavə bölməsinin olduğunu
c) Bu yolayrıcında ancaq əsas siqnalın üzərinə çəkilmiş qara konturlu oxun göstərdiyi istiqamətdə hərəkətə icazə verildiyini
d) Heç bir variant düzgün deyil.

Sual 9: Bu avtomobil verilmiş şəraitdə hansı istiqamətlərdə hərəkəti davam etdirə bilər?

a) Ancaq düzünə
b) Bütün istiqamətlərdə
c) Düzünə, sola və geriyə
d) Ancaq sola

Sual 10: Kim yol verməlidir?

a) Yük avtomobili yol verməlidir.
b) Minik avtomobili yol verməlidir.
c) Hər ikisi eyni vaxtda keçə bilər.
d) Yük avtomobili, ümumiyyətlə, keçə bilməz.

Sual 11: Hansı nəqliyyat vasitəsinin sürücüsü yol hərəkəti qaydalarının tələblərini pozur?



a) Heç biri pozmur.
b) Hər ikisi pozur.
c) Yük avtomobilinin sürücüsü pozur.
d) Variantların hər biri səhvdir.

Sual 12: Hansı nəqliyyat vasitəsi yolayrıcını keçə bilər?

a) Sarı avtomobil
b) Yaşıl avtomobil
c) Heç biri
d) Qırmızı və sarı avtomobil

Sual 13: Göstərilən yol nişanı yolun daralan yerindən hansı məsafədə qoyulur?

a) Daralan yerə 100 m qalmış
b) Daralan yerə 150 m qalmış
c)Yolun daralan yerinin qabağında
d) Daralan yerə 50 m qalmış

Sual14: Hansı yol nişanı sola dönməyi qadağan etmir?



a) Hamısı qadağan edir.
b) Heç biri qadağan etmir
c) Yalnız C qadağan etmir.
d) C və D qadağan etmir.

	Sual 15: Bu nişan yaşayış məntəqəsində qoyulduqda: a) İki dəfə, biri dəmir yol keçidinə 150-300 m qalmış, ikincisi isə 50 m qalmış qoyulur. b) Bir dəfə, dəmir yol keçidinə 50-100 m qalmış qoyulur. c) Əgər dəmir yol keçidi aydın görünürsə qoyulmur. d) Nişanın hansı məsafədə qoyulmasının əhəmiyyəti yoxdur.
2. Düzgün və ya səhv cavabları seçmək	Aşağıdakı cümlələrin əvvəlində boşluğa düzgün (+) və ya səhv (–) olduğunu işarə edin. 1. ( ) Süni işıqlandırılmış yollarda işıq qaytarıcı səthli nişanlar tətbiq edilir. 2. ( ) Təkrar nişanlar yolun ortasında qoşa nişanlama (1.3) xəttinin üzərində qurulur. 3. ( ) Xəbərdarlıq nişanları yaşayış məntəqələrindən kənarda təhlükəli zonadan 150-300 m aralı qoyulur 4. ( ) Xəbərdarlıq nişanları yaşayış məntəqələrində təhlükəli zonadan 150 m aralı qoyulur. 5. ( ) Yol işləri (1.23) nişanı yolun hərəkət hissəsində qısamüddətli işlər aparılarkən işlərin aparıldığı yerə 10-15 m qalmış qoyulur. 6. ( ) Üstünlük nişanları yolayrıcılarını keçmək növbəliliyini bildirir. 7. ( ) Qadağan nişanları yol hərəkəti iştirakçılarının hərəkətinə mədudiyyətlər qoymur. 8. ( ) Sola dönmək qadağandır və sağa dönmək qadağandır nişanlarının qüvvəsi qarşısında nişan qoyulmuş hərəkət hissəsinin kəsişmə yerinə aiddir. 9. ( ) Maksimum sürətin məhdudlaşdırılması nişanının qüvvədə olduğu sahəni maksimum hərəkət sürətinin başqa kəmiyyətini göstərən nişan qoymaqla azaltmaq olar. 10. ( ) Məcburi hərəkət istiqaməti nişanları sürücülərə NV-nin hərəkətinin icazə verilmiş istiqamətini, sürətini, eləcə də piyadaların hərəkəti üçün nəzərdə tutulmuş yollar tətbiq olunur. 11. ( ) Ağ fonu olan yaşayış məntəqəsinin başlanğıcı və və yaşayış məntəqəsinin

	qurtaracağı nişanları yaşayış məntəqələrində hərəkət qaydalarını tənzimləyən tələblərin tətbiq olunduğunu bildirir. 12. ( ) Servis nişanları yollarda müvafiq obyektlərin yerləşməsi barədə məlumat verir. 13. ( ) Əlavə məlumat nişanları birlikdə tətbiq olunduğu nişanların təsirini məhdudlaşdırmır. 14. ( ) Yolun nişanlanması yol hərəkətinin təşkilinə, yol hərəkət iştirakçılarının xəbərdar edilməsinə və istiqamətləndirilməsinə xidmət edir. 15. ( ) Nizamlayıcının bütün NV sürücülərinə və piyadalara aid olan təkcə bir siqnalı var. 16. ( ) İşıqforun və nizamlayıcının siqnallarının yerinə yetirilməsi yol hərəkəti iştirakçıları (YHİ) üçün məcburidir
3. Boşluqları doldurmaq	Aşağıdakı cümlələri oxuyun və boşluqlara uyğun gələn sözləri daxil edin: 1.Müxtəlif qruplardan toplanmış üstünlük nişanlarından başqa, hər qrup yol nişanının özünə məxsus ..... və forması var. 2. Sürücü NV-ni nizamlayıcının göstərdiyi yerdə ..... 3. Dəmir yol keçidinin qarşısında qoyulmuş dairəvi ağ-sarımtıl siqnal NV-nin ..... keçib getməsinə icazə verir. 4. İşıqforun əlavə bölməsinin işığının sönməsi bu bölmənin nizamladığı istiqamətdə hərəkətin ..... olmasını bildirir. 5. Nizamlayıcının konkret NV-si və piyadalara aid olan siqnalları “Sürəti artırın”, “Sürəti azaldır” və “.....” siqnalları var. 6. 1.11 nişanlamasını ancaq ..... xətt tərəfdən kəsib keçməyə icazə verir.

Praktik tapşırıqlar və fəaliyyətlər

Praktik tapşırıq A.2.1 – *Üstünlük nişanlarının tələblərinin yerinə yetirilməsi*

İstifadə edilməli resurslar:

- İş paltarı;
- Təlim meydançası;
- İstifadə etmək üçün təlimat;
- Yol nişanlarının maqnitli maketləri;
- Təlim stendi.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Üstünlük yol nişanlarının tələblərinin yerinə yetirilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Üstünlük yol nişanlarının tələblərinin yerinə yetirilməsini təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, nişanların tələblərini maksimum yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar 	➢ Üstünlük nişanlarının mahiyyətini açıqlayırsınız. ➢ Üstünlük nişanlarının nəyə görə vahid formada və rəngdə olmadığına aydınlıq gətirirsiniz. ➢ Hərəkət etdiyiniz yolun sonundakı yolayrıcında “Yol verin” nişanı quraşdırılıbsa, siz müvafiq yerdə dayanaraq kəsişən yolda hərəkətdə olan nəqliyyat vasitələrinə yol verirsiniz. ➢ Hərəkət etdiyiniz yolun sonundakı yolayrıcında “Yol verin” nişanı quraşdırılıbsa, siz müvafiq yerdə dayanaraq kəsişən yolda hərəkətdə olan nəqliyyat vasitələrinin olmadığı qənaətindəsinizsə, yolayrıcında dayanmadan hərəkətinizi getmək istədiyiniz istiqamətdə davam etdirirsiniz. ➢ Hərəkət etdiyiniz yolun sonundakı yolayrıcında “Dayanmadan keçmək qadağandır” nişanı quraşdırılıbsa, siz kəsişən yolda hərəkətdə olan NV-nin olub-olmamasından asılı olmayaraq müvafiq yerdə mütləq qaydada dayanırsınız və heç bir təhlükə olmadığına əmin olduqdan sonra nəzərdə tutduğunuz istiqamətdə hərəkətinizi davam etdirirsiniz.







- Dəmir yol keçidi qarşısında “Dayanmadan keçmək qadağandır” nişanı quraşdırılıbsa və dəmir yol keçidi şlaqbaumsuzdursa, onda siz nişanın yanında, hərəkət hissəsinə STOP nişanlama xətti çəkilibsə, xəttin qarşısında dayanırsınız.
- “Baş yol” nişanı quraşdırılmış yolda hərəkət edirsinizsə, yolayrıcında düz istiqamətdə hərəkət nəzərdə tutmusunuzsa, onda kəsişən yolda dayanmadan hərəkətinizi davam etdirəcəksiniz.
- Hərəkət hissələrinin daraldığı yerlərdə keçmə üstünlüyünə dair tapşırıqları 2.6 “Qarşıdan hərəkətin üstünlüyü” və 2.7 “Qarşıdan hərəkətə nisbətən üstünlük” nişanlarının tələblərinə uyğun yerinə yetirin.

- Əgər hərəkət hissəsinin daraldığı yerdə qarşınızda “Qarşıdan hərəkətə nisbətən üstünlük” nişanı quraşdırılıbsa, onda siz yolun daraldığı yerdən keçmə üstünlüyünə maliksiniz və birinci keçirsiniz.

- Əgər hərəkət hissəsinin daraldığı yerdə qarşınızda “Qarşıdan hərəkətin üstünlüyü” nişanı quraşdırılmışdırsa, onda keçmə üstünlüyü qarşıdan gələn NV-yə verilir və siz ona yol verirsiniz
- Əgər hərəkət hissəsində sizin hərəkət istiqamətində hər hansı maneə görürsünüzsə və üstünlük nişanları da quraşdırılmayıbsa, onda daralma və ya maneə siz tərəfdə olduğundan qarşıdan gələn NV-yə yol verirsiniz.

Praktik tapşırıq A.2.2 – *Yolayrıcında hərəkət istiqamətini məhdudlaşdıran nişanların tələblərinin yerinə yetirilməsi*

İstifadə edilməli resurslar:

- İş paltarı;
- Təlim meydançası;
- İstifadə etmək üçün təlimat;
- Yol nişanlarının maqnitli maketləri;
- Təlim stendi;
- Xüsusi təlim meydançası.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Yolayrıcında hərəkət istiqamətini məhdudlaşdıran nişanların tələblərinin yerinə yetirilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Yolayrıcında hərəkət istiqamətini məhdudlaşdıran nişanların tələblərinin yerinə yetirilməsini təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, nişanların tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar  	➢ Yolayrıcında hərəkət istiqamətini məhdudlaşdıran nişanların mahiyyətini söyləyirsiniz. ➢ Əgər yolayrıcında qarşınızda “Sola dönmək qadağandır” nişanı quraşdırılmışdırsa, siz bu yolayrıcında qadağan olunan istiqamətdən başqa istiqamətlərə hərəkət edirsiniz. ➢ Əgər yolayrıcında qarşınızda “Geriyə dönmək qadağandır” nişanı quraşdırılmışdırsa, siz bu yolayrıcında qadağan olunan istiqamətdən başqa istiqamətlərə hərəkət edirsiniz

 	➢ Əgər yolayrıcında kəsişən yolayrıcı zolaq vasitəsilə hərəkət hissələrinə ayrılmışdırsa və sizin qarşınızda "Sola dönmək qadağandır" nişanı quraşdırılmışdırsa, bu nişanın təsiri hərəkət hissəsinin birinci kəsişməsinə aiddir. Odur ki, siz hərəkət hissəsinin birinci kəsişməsindən ancaq geriyə, ikinci kəsişməsində isə düz, sola və geriyə hərəkət edirsiniz. ➢ Əgər yolayrıcında kəsişən yol ayırıcı zolaq vasitəsilə hərəkət hissələrinə ayrılmışdırsa və ayırıcı zolağın üzərində "Sağa dönmək qadağandır" nişanı quraşdırılmış- -dırsa, bu nişanın təsiri hərəkət hissəsinin ikinci kəsişməsinə aiddir. Odur ki, siz hərəkət hissəsinin birinci kəşisməsindən sağa və geriyə, ikinci kəsişmədən düz və geriyə hərəkət edirsiniz.
Diqqət etməli məqamlar!!!	➢ Sola dönmək qadağandır və sağa dönmək qadağandır nişanlarının qüvvəsi hərəkət hissəsinin kəsişmə yerinə aiddir.

<u>Praktik tapşırıq A.2.3 – Məcburi hərəkət istiqaməti nişanlarının tələblərinin yerinə yetirilməsi</u>

<u>İstifadə edilməli resurslar:</u>

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Yol nişanlarının maqnitli maketləri;
- Təlim stendi;
- Xüsusi təlim meydançası.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Məcburi hərəkət istiqaməti nişanlarının tələblərinin yerinə yetirilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Məcburi hərəkət istiqaməti nişanların

	tələblərinin yerinə yetirilməsini təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, nişanların tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar  	➢ Məcburi hərəkət istiqaməti nişanlarının mahiyyətini söyləyirsiniz. ➢ Siz yolayrıcına yaxınlaşarkən qarşınızda 4.1.1 “Düzünə hərəkət” nişanı quraşdırılıb. ➢ Bu halda yolayrıcında başqa nişanların olub-olmadığına diqqət edirsiniz. ➢ Daxil olacağınız yolayrıcında bir hərəkət hissəsi kəsişirsə, siz bu yolayrıcını ancaq düzünə keçirsiniz. ➢ Bu nişan qoyulduğu yolayrıcında qüvvədədir, yolayrıcını keçdikdən sonra nişanın sizin üçün heç bir qüvvəsi qalmır (şəkildə nişanın təsir zonası sarı rənglənib). ➢ Yolayrıcını keçdikdən sonra siz həm düzünə və həm də geriyə dönə bilərsiniz. Geriyə siz o halda dönürsünüz ki, hərəkət hissəsinə çəkilmiş və nəqliyyat axınlarını ayıran 1.1 nişanlaması (bütöv xətt) olmasın. ➢ Əgər sizin yaxınlaşdığınız yolayrıcında iki hərəkət hissəsi kəsişirsə və yolayrıcının girişində 4.1.1 “Düzünə hərəkət” nişanı quraşdırılıbsa, siz birinci hərəkət hissəsini ancaq düzünə, ikinci hərəkət hissəsinə daxil olduqdan sonra düzünə, sola və geriyə hərəkət edə bilirsiniz, çünki bu nişanın təsiri birinci hərəkət hissəsinə aiddir. ➢ Əgər 4.1.1 nişanı yolayrıcını keçdikdən sonra qoyulubsa onda bu nişanın təsir zonası növbəti

 	yolayrıcına qədərdir. Bu halda siz acaq düzünə və sağda yerləşən həyətə (əgər varsa) girə bilərsiniz. Yolayrıcına çatdıqdan sonra isə yolayrıcında heç bir məcburi hərəkət nişanı qoyulmayıbsa, bütün istiqamətlərə hərəkət edə bilərsiniz. ➢ Əgər yolayrıcında 4.1.2 "Ancaq sağa" nişanı quraşdırılıbsa, onda həmin kəsişmədən nişanın göstərdiyi istiqamətə dönürsünüz.
Diqqət etməli məqamlar !!!	➢ Geriyə dönmək istədikdə hərəkət hissəsinə 1.1 bütöv nişanlama xətinin çəkilib-çəkilmədiyinə diqqət edin.

<u>Praktik tapşırıq A.2.4 –</u><u>*Yolayrıcında hərəkətin zolaqlar üzrə icazə verilmiş istiqamətlərini göstərən 1.18 nişanlamasının və yaxud 5.8.1, 5.8.2 nişanlarının tələblərinin yerinə yetirilməsi*</u>

<u>İstifadə edilməli resurslar:</u>

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Yol nişanlarının maqnitli maketləri;
- Təlim stendi;
- Xüsusi təlim meydançası.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Yolayrıcında hərəkətin zolaqlar üzrə icazə verilmiş istiqamətlərini göstərən 1.18 nişanlamasının və yaxud 5.8.1, 5.8.2 nişanlarının tələblərinin yerinə yetirilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. Yolayrıcında hərəkətin zolaqlar üzrə icazə verilmiş istiqamətlərini göstərən 1.18 nişanlamasının və yaxud 5.8.1, 5.8.2 nişanlarının tələblərinin yerinə yetirilməsini təlimatın tələblərinə uyğun **yerinə** yetirin. ➢ Çalışmalısınız ki, nişanların tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.

Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar  	➢ Yolayrıcında hərəkətin zolaqlar üzrə icazə verilmiş istiqamətlərini göstərən 1.18 nişanlamasının və yaxud 5.8.1, 5.8.2 nişanlarının mahiyyətini danışırsınız. ➢ Hərəkət zolaqlarının üstündən asılmış 5.8.1, 5.8.2 nişanlarını yolayrıcına çatmamış müəyyən məsafədən görürsünüz. ➢ Bu imkandan yararlanaraq gedəcəyiniz istiqamət üzrə NV-nizi uyğun zolaqda yerlşədirirsiniz. ➢ Eyni zamanda hərəkət hissəsinə çəkilmiş 1.18 nişanlamasını da görürsünüz. 1.18 nişanlaması və 5.8.1, 5.8.2 nişanları eyni mənanı ifadə edirlər. ➢ Şəkildə göstərilən yolayrıcında nişanın tələbinə əsasən sol zolaqdan sola və ya geriyə, orta zolaqdan düzünə və ya sola, sağ kənar zolaqdan isə düzünə və sağa hərəkət edə bilərsiniz.
Diqqət etməli məqamlar!!!	

<u>Praktik tapşırıq A.2.5 – Məlumatverici-göstərici nişanlara aid olan "Ümumi istifadədə olan nəqliyyat vasitələri üçün zolağı olan yola çıxış", "Geriyə dönmə yeri", "Geriyə dönmə yerinin zonası", "Yük avtomobilləri üçün hərəkət istiqaməti" və "Zolaqlarda hərəkət istiqaməti" nişanlarının tələblərinin yerinə yetirilməsi</u>

<u>İstifadə edilməli resurslar:</u>

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Yol nişanlarının maqnitli maketləri;
- Təlim stendi;
- Xüsusi təlim meydançası.

Fəaliyyət və tapşırıqlar	Təlimat və tövsiyələr
Məlumatverici-göstərici nişanlara aid olan “Ümumi istifadədə olan nəqliyyat vasitələri üçün zolağı olan yola çıxış”, “Geriyə dönmə yeri”, “Geriyə dönmə yerinin zonası”, “Yük avtomobilləri üçün hərəkət istiqaməti” və “Zolaqlarda hərəkət istiqaməti” nişanlarının tələblərinin yerinə yetirilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Məlumatverici-göstərici nişanlara aid olan “Ümumi istifadədə olan nəqliyyat vasitələri üçün zolağı olan yola çıxış”, “Geriyə dönmə yeri”, “Geriyə dönmə yerinin zonası”, “Yük avtomobilləri üçün hərəkət istiqaməti” və “Zolaqlarda hərəkət istiqaməti” nişanlarının tələblərinin yerinə yetirilməsini təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, nişanların tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar   	➢ Məlumatverici-göstərici nişanların mahiyyətini söyləyirsiniz ➢ “Ümumi istifadədə olan nəqliyyat vasitələri üçün zolağı olan yola çıxış” nişanından məlum olur ki, siz yolayrıcındasınız, yolayrıcında birtərəfli hərəkət təşkil edilib və birtərəfli yolda nəqliyyat axınının istiqaməti soldan sağadır. ➢ Belə olduqda siz yolayrıcında ancaq sağa, düzünə və geriyə hərəkət edirsiniz. ➢ “Geriyə dönmə yeri” bu yerin geriyə dönmə yeri olmasını bildirir. Bu yerdə siz ancaq düzünə və geriyə dönə bilirsiniz. ➢ “Geriyə dönmə yerinin zonası” nişanı sizə bu yerin geriyə dönmə zonası olması haqda məlumatlandırır. Geriyə dönmə yerindən fərqli olaraq geriyə dönmə yerinin zonası müəyyən məsafədə olur və əsasən, yolayrıcı zolaqla hərəkət

 	hissələrinə ayrılan yollarda tətbiq edilir. NV geriyə dönmək istədikdə bu zonada müvafiq mövqe tutmalıdır. Bu yerdə siz ancaq düzünə və geriyə dönə bilirsiniz. ➢ "Yük avtomobilləri üçün hərəkət istiqaməti" nişanı maksimum kütləsi nişanda göstəriləndən artıq olan yük avtomobillərinin və eyni zamanda traktorların hərəkəti qadağan olunan ərazilərdə onlara məsləhət görülən hərəkət istiqamətini bildirir və bu tələb məcburi deyil. Bu yerdə sizin gedə bilmədiyiniz yer hərəkətinizin qadağan olunduğu ərazidir, qalan istiqamətlər sizin hərəkətiniz üçün açıqdır. ➢ "Yük avtomobilləri üçün hərəkət istiqaməti" nişanı maksimum kütləsi nişanda göstəriləndən artıq olan yük avtomobillərinin və eyni zamanda traktorların hərəkətini bu zolaqda qadağan edir. Bu yerdə siz ancaq sağ zolaqda hərəkət edə bilərsiniz.
Diqqət etməli məqamlar!!!	➢ "Yük avtomobillərinin hərəkəti qadağandır nişanının üstündə rəqəm göstərilməyibsə, onda maksimum kütləsi 3,5 tondan artıq olan yük avtomobillərinin hərəkətini qadağan edir.

<u>Praktik tapşırıq A.2.6 – Xəbərdarlıq nişanlarının tələblərinin yerinə yetirilməsi</u>

<u>İstifadə edilməli resurslar:</u>

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Yol nişanlarının maqnitli maketləri;
- Təlim stendi;
- Xüsusi təlim meydançası;

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Xəbərdarlıq nişanlarının tələblərinin yerinə yetirilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Xəbərdarlıq nişanlarının tələblərinin yerinə yetirilməsini təlimatın tələblərinə

	uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, nişanların tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar  	➢ Xəbərdarlıq nişanlarının tələblərinin yerinə yetirilməsinə dair qaydaları şifahi söyləyirsiniz. ➢ Nişanların bu cür düzülüşündəki təkrar olunan birinci nişan və ona əlavə edilmiş dəmir yol keçidinə yaxınlaşma nişanları sizi xəbərdar edir ki, 150-300 metrdən sonra şlaqbaumsuz dəmir yol keçidi olacaq. Təkrar olunan ikinci nişan və onun altındakı üzərinə bir maili xətt çəkilmiş nişanlar dəmir yol keçidinə ən azı 50 metr məsafənin qalması haqda sizi xəbərdar edir. İki nişan arasında qoyulan üzərində iki maili xətt çəkilmiş dəmir yol keçidinə yaxınlaşma nişanı sizi xəbərdar edir ki, təkrar olunan birinci və ikinci nişanlar arasındakı məsafəni yarı etmisiniz.
	➢ Bu nişanlama sizi xəbərdar edir ki, siz sərt yoxuşda hərəkət edirsiniz. Yoxuşun sonunda qarşı hərəkət zolağına çıxmadan ötmək qadağan deyil
	➢ Bu nişanlama sizi xəbərdar edir ki, siz sərt yoxuşda hərəkət edirsiniz. Yoxuşun sonunda qarşı hərəkət zolağına çıxmaqla ötmək qadağandır.
 	➢ Sərt yoxuşu qalxan NV-nin qarşısında maneə olarsa və onun qalxdığı istiqamətdə bir hərəkət zolağı olduğu halda, enişi düşən NV yoxuşu qalxan NV-yə yol verməlidir.

 	➢ Döngənin istiqaməti nişanı digər xəbərdarlıq nişanlarından fərqli olaraq, təhlükəli hesab edilən yerin düz yanında qoyulur və döngənin istiqaməti haqda sürücülərə xəbərdarlıq edir. ➢ Velosiped zolaqları ilə kəsişmə haqda xəbərdar edən nişanlar siz xəbərdar edir ki, 50-100 və ya 150-300 metrdən sonra velosiped zolağı ilə kəsişmə olacaq və bu yerdə keçmə üstünlüyü sizə verilir, lakin əmin olmalısınız ki, velosiped zolağında hərəkətdə olan və kəsişmə yerinə yaxınlaşan velosipedçi sizə yol verir.
Diqqət etməli məqamlar!!!	➢ Təkrar olunan 6 ədəd xəbərdarlıq nişanı ilə rastlaşdıqda ikinci nişanı gördükdən sonra təhlükəli yerə artıq ən azı 50 metr məsafənin qalmasını diqqətdə saxlayın.

Qiymətləndirmə çərçivəsi

Praktik tapşırıq A.2.1 – *Yol nişanlarının tələblərinin yerinə yetirilməsi*

Qiymətləndirmə ölçüsü	**Bəli**	**Xeyr**
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4. Üstünlük nişanlarının mahiyyətini açıqladınızmı?		
5. Üstünlük nişanlarının nəyə görə vahid formada və rəngdə olmadığına aydınlıq gətirdinizmi?		
6. Sizin hərəkət etdiyiniz yolun sonundakı yolayrıcında “Yol verin” nişanı quraşdırılıbsa, müvafiq yerdə dayanaraq kəsişən yolda hərəkətdə olan nəqliyyat vasitələrinə yol verirdinizmi?		
7. Sizin hərəkət etdiyiniz yolun sonundakı yolayrıcında “Yol verin” nişanı quraşdırılıbsa müvafiq yerdə dayanaraq kəsişən yolda hərəkətdə olan nəqliyyat vasitələrinin olmadığı qənaətindəsinizsə, yolayrıcında dayanmadan hərəkətinizi getmək istədiyiniz istiqamətdə davam etdirdinizmi?		
8. Sizin hərəkət etdiyiniz yolun sonundakı yolayrıcında “Dayanmadan keçmək qadağandır” nişanı quraşdırılıbsa, kəsişən yolda hərəkətdə olan NV-nin olub-olmamasından asılı olmayaraq müvafiq yerdə mütləq qaydada dayandınızmı və heç bir təhlükə olmadığına əmin olduqdan sonra nəzərdə tutduğunuz istiqamətdə		

hərəkətinizi davam etdirdinizmi?		
9. Dəmir yol keçidi qarşısında “Dayanmadan keçmək qadağandır” nişanı quraşdırılıbsa və dəmir yol keçidi şlaqbaumsuzdursa, onda nişanın yanında, hərəkət hissəsinə STOP nişanlama xətti çəkilibsə, xəttin qarşısında dayandınızmı?		
10. Siz “Baş yol” nişanı quraşdırılmış yolda hərəkət edirsinizsə, yolayrıcında düz istiqamətdə hərəkət nəzərdə tutmusunuzsa, onda kəsişən yolda dayanmadan hərəkətinizi davam etdirdinizmi?		
11. Hərəkət hissələrinin daraldığı yerlərdə keçmə üstünlüyünə dair tapşırıqları 2.6 “Qarşıdan hərəkətin üstünlüyü” və 2.7 “Qarşıdan hərəkətə nisbətən üstünlük” nişanlarının tələblərinə uyğun yerinə yetirməyinizi öyrəndinizmi?		
12. Hərəkət hissəsinin daraldığı yerdə sizin qarşınızda “Qarşıdan hərəkətə nisbətən üstünlük” nişanı quraşdırılıbsa, onda siz yolun daraldığı yerdən keçmə üstünlüyünə malik olmağınızı nəzərə alaraq və birinci keçdinizmi?		
13. Hərəkət hissəsinin daraldığı yerdə sizin qarşınızda “Qarşıdan hərəkətin üstünlüyü” nişanı quraşdırılmışdırsa, onda keçmə üstünlüyünün qarşıdan gələn NV-yə verilməsini nəzərə alaraq ona yol verdinizmi?		
14. Hərəkət hissəsində sizin hərəkət istiqamətində hər hansı maneə görürsünüzsə və üstünlük nişanları da quraşdırılmayıbsa, onda daralma və ya maneənin siz tərəfdə olduğunu nəzər alaraq qarşıdan gələn NV-yə yol verdinizmi?		

Praktik tapşırıq A.2.2 – *Yolayrıcında hərəkət istiqamətini məhdudlaşdıran nişanların tələblərinin yerinə yetirilməsi*

Qiymətləndirmə ölçüsü	**Bəli**	**Xeyr**
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4.Yolayrıcında hərəkət istiqamətini məhdudlaşdıran nişanların mahiyyətini söylədinizmi?		
5. Yolayrıcında sizin qarşınızda “Sola dönmək qadağandır” nişanı quraşdırılıb, siz bu yolayrıcında qadağan olunan istiqamətdən başqa digər istiqamətlərə hərəkət etdinizmi?		
6. Yolayrıcında sizin qarşınızda “Geriyə dönmək qadağandır” nişanı quraşdırılıb, siz bu yolayrıcında qadağan olunan istiqamətdən başqa digər istiqamətlərə hərəkət etdinizmi?		
7. Yolayrıcında kəsişən yol ayırıcı zolaq vasitəsilə hərəkət hissələrindən ayrılmışdır, sizin qarşınızda “Sola dönmək qadağandır” nişanı quraşdırılıb, bu nişanın təsirinin hərəkət hissəsinin birinci kəsişməsinə aid olduğuna istinad edərək siz		

hərəkət hissəsinin birinci kəsişməsindən ancaq geriyə, ikinci kəsişməsindən isə düz, sola və geriyə hərəkət etdinizmi?		

Praktik tapşırıq A.2.3 – *Məcburi hərəkət istiqaməti nişanların tələblərinin yerinə yetirilməsi*

Qiymətləndirmə ölçüsü	**Bəli**	**Xeyr**
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4.Məcburi hərəkət istiqaməti nişanlarının mahiyyətini söylədinizmi?		
5. Siz yolayrıcına yaxınlaşarkən qarşınızda 4.1.1 “Düzünə hərəkət” nişanı quraşdırılıb. Bu halda yolayrıcında başqa nişanların olub-olmadığına diqqət etdinizmi?		
6. Daxil olacağınız yolayrıcında bir hərəkət hissəsi kəsişir, siz bu yolayrıcını ancaq düzünə keçdinizmi?		
7. Yolayrıcını keçdikdən sonra siz həm düzünə, həm də geriyə dönə bildinizmi? Geriyə dönərkən hərəkət hissəsinə çəkilmiş və nəqliyyat axınlarını ayıran 1.1 nişanlaması (bütöv xətt) olmadığını əsas götürdünüzmü?		
8.Sizin yaxınlaşdığınız yolayrıcında iki hərəkət hissəsi kəsişir və yolayrıcının girişində 4.1.1 “Düzünə hərəkət” nişanı quraşdırılıb. Bu halda siz birinci hərəkət hissəsini ancaq düzünə, ikinci hərəkət hissəsinə daxil olduqdan sonra düzünə, sola və geriyə hərəkət etdinizmi?		
9. 4.1.1 “Düzünə hərəkət” nişanı yolayrıcını keçdikdən sonra qoyulub, bu nişanın təsir zonasının növbəti yolayrıcına qədər olmasını və bu nişanın hərəkət hissəsinin sağında yerləşən həyətlərə girməni məhdudlaşdırmadığını nəzərə alaraq siz ancaq düzünə gedə və sağda yerləşən həyətə girə bildinizmi? Yolayrıcına çatdıqda yolayrıcında heç bir məcburi hərəkət nişanı qoyulmayıb və siz bu yolayrıcında bütün istiqamətlərə hərəkət edə bildinizmi?		
10. Yolayrıcında 4.1.2 “Ancaq sağa” nişanı quraşdırılıb, onda həmin kəsişmədən nişanın göstərdiyi istiqamətə döndünüzmü?		

Praktik tapşırıq A.2.4 –*Yolayrıcında hərəkətin zolaqlar üzrə icazə verilmiş istiqamətlərini göstərən 1.18 nişanlamasının və yaxud 5.8.1, 5.8.2 nişanlarının tələblərinin yerinə yetirilməsi*

Qiymətləndirmə ölçüsü	**Bəli**	**Xeyr**
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		

3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4.Yolayrıcında hərəkətin zolaqlar üzrə icazə verilmiş istiqamətlərini göstərən 1.18 nişanlamasının və yaxud 5.8.1, 5.8.2 nişanlarının mahiyyətini söylədinizmi?		
5. Hərəkət zolaqlarının üstündən asılmış 5.8.1, 5.8.2 nişanlarını yolayrıcına çatmamış müəyyən məsafədən gördünüz. Bu imkandan yararlanaraq gedəcəyiniz istiqamət üzrə NV-nizi uyğun zolaqda yerləşdirdinizmi?		
6. Göstərilən yolayrıcında nişanın tələbinə əsasən sol zolaqdan sola və ya geriyə, orta zolaqdan düzünə və ya sola, sağ kənar zolaqdan isə düzünə və sağa hərəkət edə bilmə qərarını verdinizmi?		
7. Bu zaman yerüstü 1.18 nişanlamasının göstərdiyi istiqamətlərin 5.8.1 nişanının göstərdiyi hərəkət istiqamətləri ilə eyniliyinə diqqət yetirdinizmi?		

Praktik tapşırıq A.2.5 – *Məlumatverici-göstərici nişanlara aid olan "Ümumi istifadədə olan nəqliyyat vasitələri üçün zolağı olan yola çıxış", "Geriyə dönmə yeri", "Geriyə dönmə yerinin zonası", "Yük avtomobilləri üçün hərəkət istiqaməti" və "Zolaqlarda hərəkət istiqaməti" nişanlarının tələblərinin yerinə yetirilməsi*

Qiymətləndirmə ölçüsü	**Bəli**	**Xeyr**
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4.Məlumatverici-göstərici nişanların mahiyyətini şifahi olaraq söylədinizmi?		
5. "Ümumi istifadədə olan nəqliyyat vasitələri üçün zolağı olan yola çıxış" nişanı yolayrıcında birtərəfli hərəkətin təşkil edildiyi və birtərəfli yolda nəqliyyat axınının istiqamətinin soldan sağa olması haqda məlumatlandınızmı? Bu halda siz yolayrıcında ancaq sağa, düzünə və geriyə hərəkət etdinizmi?		
6. "Geriyə dönmə yeri" sizə bu yerin geriyə dönmə yeri olmasını bildirdimi? Bu yerdə siz ancaq düzünə və geriyə dönə bilmə hərəkətlərini seçdinizmi?		
7. "Geriyə dönmə yerinin zonası" nişanı sizi bu yerin geriyə dönmə zonası olması haqda məlumatlandırdımı? Geriyə dönmək istədikdə bu zonada müvafiq mövqe tutmalı olduğunuzu nəzərə aldınızmı? Göstərilən yerdən sizin ancaq düzünə və geriyə dönə bilmə hərəkətləri olduğunu bildinizmi?		
8. "Yük avtomobilləri üçün hərəkət istiqaməti" nişanı maksimum kütləsi nişanda göstəriləndən artıq olan yük avtomobillərinin və eyni zamanda traktorların hərəkəti qadağan olunan ərazilərdə		

onlara məsləhət görülən hərəkət istiqamətini bildirdiyini və bu tələbin məcburi olmadığını nəzərə alaraq, bu yerdə sizin gedə bilmədiyiniz yerin hərəkətinizin qadağan olunduğu ərazi olmasını, qalan istiqamətlərin sizin hərəkətiniz üçün açıq olmasını rəhbər tutdunuzmu?		
9. "Yük avtomobilləri üçün hərəkət istiqaməti" nişanı maksimum kütləsi nişanda göstəriləndən artıq olan yük avtomobillərinin və eyni zamanda traktorların hərəkətini bu zolaqda qadağan etdiyindən bu yerdə siz ancaq sağ zolaqda hərəkət etdinizmi?		

Praktik tapşırıq A.2.6 – *Xəbərdarlıq nişanlarının tələblərinin yerinə yetirilməsi*

Qiymətləndirmə ölçüsü	**Bəli**	**Xeyr**
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4. Xəbərdarlıq nişanlarının tələblərinin yerinə yetirilməsinə dair qaydaları şifahi söylədinizmi?		
5. Nişanların bu cür düzülüşündəki təkrar olunan birinci nişan və ona əlavə edilmiş dəmir yol keçidinə yaxınlaşma nişanları sizi xəbərdar etdi ki, 150-300 metrdən sonra şlaqbaumsuz dəmir yol keçidi olacaqdır? Təkrar olunan ikinci nişan və onun altındakı üzərinə bir maili xətt çəkilmiş nişanlar dəmir yol keçidinə ən azı 50 metr məsafənin qalması haqda sizi xəbərdar etdimi? İki nişan arasında qoyulan, üzərində iki maili xətt çəkilmiş dəmir yol keçidinə yaxınlaşma nişanı sizi xəbərdar etdi ki, təkrar olunan birinci və ikinci nişanlar arasındakı məsafəni yarı etmisiniz?		

Bu nişanlama sizi xəbərdar edir ki, siz sərt yoxuşda hərəkət edirsiniz. Yoxuşun sonunda qarşı hərəkət zolağına çıxmadan ötmək qadağan deyil Bu nişanlama sizi xəbərdar edir ki, siz sərt yoxuşda hərəkət edirsiniz. Yoxuşun sonunda qarşı hərəkət zolağına çıxmaqla ötmək qadağandır Sərt yoxuşu qalxan NV-nin qarşısında maneə olarsa və onun qalxdığı istiqamətdə bir hərəkət zolağı olduğu halda, enişi düşən NV yoxuşu qalxan NV-yə yol verməlidir Döngənin istiqaməti nişanı digər xəbərdarlıq nişanlarından fərqli olaraq təhlükəli hesab edilən yerin düz yanında qoyulur və sürücülərə döngənin istiqaməti haqda xəbərdarlıq edir. Velosiped zolaqları ilə kəsişmə haqda xəbərdar edən nişanlar xəbərdar edir ki, 50-100 və ya 150-300 metrdən sonra velosiped zolağı ilə kəsişmə olacaq və bu yerdə keçmə üstünlüyü sizə verilir, lakin əmin olmalısınız ki, velosiped zolağında hərəkətdə olan və kəsişmə yerinə yaxınlaşan velosipedçi sizə yol verir		

A.3 Hərəkətə başlama və manevr etmə, traktor və digər mexaniki nəqliyyat vasitələrinin yolun hərəkət hissəsində yerləşməsi, hərəkət sürəti, ötmə və qarşılıqlı keçmə, dayanma və durma, yolayrıcının keçilmə qaydaları

A.3.1 Hərəkətə başlama, manevr etmə

I. Sürücü hərəkətə başlamazdan, yerdəyişməzdən, dönməzdən, ötməzdən və dayanmazdan qabaq müvafiq istiqamətə dönmək üçün xarici işıq siqnallarının köməyi ilə, bunlar olmadıqda və ya nasazlıq yarandıqda isə, əl işarələri ilə siqnal verməlidir. Bu zaman manevr təhlükəsiz olmalı və hərəkətin digər iştirakçıları üçün maneə yaratmamalıdır.

II. Yana uzadılmış sol qol, yaxud yana uzadılaraq düzbucaq şəkildə dirsəkdən yuxarı bükülmüş sağ qol sola (geriyə) dönmə siqnalına uyğundur. Yana uzadılmış sağ qol, yaxud yana uzadılaraq düzbucaq şəklində dirsəkdən yuxarı bükülmüş sol qol sağa dönmə siqnalına uyğundur. Yuxarı qaldırılmış sol və ya sağ qol tormozlama siqnalına uyğundur.

III. Dönmə göstəriciləri və ya əl ilə siqnal manevrə başlamazdan əvvəl verilir, manevr qurtardıqdan sonra isə dərhal kəsilir (əl ilə verilən siqnal bilavasitə manevrə başlamazdan əvvəl qurtara bilər). Bu zaman verilən siqnal hərəkətin digər iştirakçılarını çaşdırmamalıdır. Siqnal verməsi sürücüyə üstünlük vermir və onu təhlükəsizlik tədbirləri görməkdən azad etmir.

IV. Sürücü yola bitişik ərazidən (yolun hər iki tərəfinə bitişik olan və nəqliyyat vasitələrinin birbaşa hərəkəti üçün nəzərdə tutulmayan torpaq sahələri və orada yerləşən həyətlər, yaşayış massivləri, avtomobil duracaqları, yanacaqdoldurma məntəqələri, müəssisələr və başqa obyektlər) yola çıxarkən, yolda gedən nəqliyyat vasitələrinə və piyadalara, yoldan kənara çıxdıqda isə, hərəkət yolunu kəsən piyadalara və velosipedçilərə yol verməlidir.
V. Sürücü yerdəyişmə zamanı hərəkət istiqamətini dəyişmədən eyni səmtə gedən nəqliyyat vasitələrinə yol verməlidir. Eyni səmtə gedən nəqliyyat vasitələri yerdəyişməni eyni vaxtda edirlərsə, onda sürücü özündən sağdakı nəqliyyat vasitəsinə yol verməlidir.
VI. Dairəvi hərəkət təşkil edilmiş yolayrıcında dönmək istisna olmaqla, sağa, sola və ya geriyə dönməzdən əvvəl sürücü həmin istiqamətdə hərəkət hissəsində müvafiq kənar vəziyyət tutmalıdır. Solda hərəkət hissəsi ilə bir səviyyədə yerləşən eyni istiqamətli tramvay yolları olduqda, 5.8.1 və ya 5.8.2 nişanları ilə başqa hərəkət qaydası müəyyən edilməmişdirsə, həmin yollardan keçərək sola və geriyə dönmək lazımdır. Bu zaman tramvay üçün maneə yaradılmamalıdır.
VII. Elə dönmək lazımdır ki, nəqliyyat vasitəsi hərəkət hissələrinin kəsişdiyi yerdən çıxarkən qarşıdan gələn nəqliyyatın yoluna keçməsin. Nəqliyyat vasitəsi sağa dönərkən hərəkət hissəsinin mümkün qədər sağ kənarına yaxın hərəkət etməlidir
.VIII. Nəqliyyat vasitəsi öz qabaritinə və ya başqa səbəblərə görə bu maddənin altıncı hissəsinin tələblərinə əməl etməklə dönə bilmirsə, həmin tələblərdən kənara çıxmağa o şərtlə yol verilir ki, hərəkət təhlükəsizliyi təmin olunsun və bu, digər nəqliyyat vasitələri üçün maneə yaratmasın.
IX. Yolayrıcından kənarda sola və ya geriyə dönərkən, relssiz nəqliyyat vasitəsinin sürücüsü qarşıdan gələn nəqliyyat vasitələrinə və eyni istiqamətdə gedən travmaya yol verməlidir. Yolayrıcından kənarda geri dönərkən yolun sol kənarı tərəfdən manevr etmək üçün hərəkət hissəsinin eni kifayət qədər olmadıqda, hərəkət hissəsinin sağ kənarından (yolun sağ qırağından) manevr etməyə yol verilir. Bu zaman sürücü arxadan və qarşıdan gələn nəqliyyat vasitələrinə yol verməlidir.
X. Nəqliyyat vasitələrinin hərəkət trayektoriyaları kəsişdikdə, keçmənin növbəliliyi isə qaydalarda göstərilmədikdə, sağ tərəfdən hərəkət edən nəqliyyat vasitəsinə üstünlük verilir.
XI. Tormozlama zolağı olduqda, hərəkət istiqamətini dəyişmək istəyən sürücü vaxtında həmin zolağa keçməli və yalnız burada sürəti azaltmalıdır. Yola giriş yerində sürətləndirmə zolağı olduqda, sürücü həmin zolaqla getməli və bu yolla gedən nəqliyyat vasitələrinə yol verərək qonşu zolağa keçməlidir.
XII. Aşağıdakı hallarda geriyə dönmək qadağandır:
1) Piyada keçidlərində;
2) Tunellərdə;
3) Körpülərdə, estakadalarda və onların altında;
4) Dəmir yol keçidlərində;
5) Ən azı bir istiqamətdə yolun 100 metrdən az hissəsi görünən yerlərdə;
6) Ümumi istifadədə olan nəqliyyatın dayanacaq məntəqələrinin yerləşdiyi yerlərdə.

XIII. Nəqliyyat vasitəsinin geriyə hərəkətinə o şərtlə icazə verilir ki, bu manevr təhlükəsiz olsun və hərəkətin digər iştirakçılarına maneə yaratmasın. Lazım gəldikdə, sürücü başqa şəxslərin köməyindən istifadə etməlidir.
XIV. Yolayrıclarında və bu maddənin on ikinci hissəsinə əsasən, geriyə dönmənin qadağan edildiyi yerlərdə geriyə hərəkət qadağandırXV. Yol nişanları ilə hərəkət üstünlüyü müəyyən edilməmişdirsə, dairəvi hərəkət təşkil olunmuş yolayrıcına daxil olan sürücü dairədə hərəkət edən nəqliyyat vasitələrinə yol verməlidir

A.3.2 Traktor və digər mexaniki nəqliyyat vasitələrinin yolun hərəkət hissəsində yerləşməsi

I. Normal hərəkət zamanı nəqliyyat vasitələrinin sürücüləri vəziyyətdən asılı olaraq, yolun hərəkət hissəsinin sağ kənarı ilə hərəkət etməlidirlər. Yaşayış məntəqələrindən kənarda, habelə yaşayış məntəqələrində 5.1 və ya 5.3 nişanları ilə işarələnmiş yolun hərəkət hissəsində hərəkət istiqamətində sağ zolaq boş olduğu halda sol zolaqlarla hərəkət etmək qadağandır.
II. Hər istiqamətdə azı iki hərəkət zolağı olan ikitərəfli hərəkət yollarında qarşıdan hərəkət üçün nəzərdə tutulmuş tərəfə keçmək qadağandır
III. Üç hərəkət zolağı olan ikitərəfli hərəkət yollarında nəqliyyat vasitələri yolun hərəkət hissəsinin mərkəzində yerləşən və hər iki istiqamət üçün sol kənar hesab olunan orta zolağa keçməməlidirlər. Orta zolağa keçməyə yalnız ötmə, yandan keçmə və sola, yaxud geriyə dönmə üçün icazə verilir.
IV. Eyni istiqamətdə azı iki hərəkət zolağı olan yolda tramvay yolları olduqda tramvay yollarına çıxmaq qadağandır. Başqa yollarda nəqliyyat vasitələrinin sürücüləri tramvay yaxınlaşarkən, imkan olan kimi tramvay xəttini boşaltmalıdırlar.
V. Eyni istiqamətdə üç və daha çox hərəkət zolağı olan yolda nəqliyyat vasitələrinin bütün hərəkət zolaqlarını tutduqları intensiv hərəkət vaxtı asta gedən nəqliyyat vasitələri yalnız sağ kənar zolaqla hərəkət etməli, tam kütləsi 3,5 tondan çox olan nəqliyyat vasitələri isə həmin istiqamətdə sol kənar hərəkət zolağını tutmamalıdır; hərəkət istiqamətini sola dəyişmək və ya dönmə halları istisna təşkil edir.
VI. Nəqliyyat vasitələrinin sürücüləri intensiv hərəkət vaxtı yalnız sola və ya sağa dönmək, ötməyə hazırlaşmaq, hərəkəti düzünə istiqamətdə davam etdirmək, dayanacağa və ya duracağa çıxmaq üçün olduqları hərəkət zolağını qaydalara əməl etməklə dəyişə bilərlər.

A.3.3 Hərəkət sürəti, ötmə və qarşılıqlı keçmə, dayanma və durma

I. Sürücü hərəkətin intensivliyini, nəqliyyat vasitəsinin, yükün xüsusiyyətlərini və vəziyyətini, yol və meteoroloji şəraiti, xüsusən hərəkət istiqamətində görmə şəraitini nəzərə almaqla, nəqliyyat vasitəsini müəyyən olunmuş sürət məhdudiyyətindən çox olmayan sürətlə sürməlidir. Sürücü hərəkət üçün təhlükə yarandığını gördükdə, nəqliyyat vasitəsinin sürətini tam dayanma həddinə qədər azaltmaq üçün mümkün olan tədbirləri görməlidir.
II. Nəqliyyat vasitələri:
1) Yaşayış məntəqələri daxilində - saatda 60 kilometrdən çox olmayan sürətlə (səlahiyyətli orqanlar yolun müəyyən sahələrində daha yuxarı hədd müəyyən edə

bilərlər, lakin bu hədd saatda 90 kilometrdən çox ola bilməz, yaşayış zonalarında və həyət ərazilərində isə saatda 20 kilometrdən çox olmayan sürətlə);
2) Minik avtomobilləri və icazə verilmiş maksimum kütləsi 3,5 tondan artıq olmayan yük avtomobilləri yaşayış məntəqələrindən kənarda: avtomagistrallarda - saatda 110 kilometrdən çox olmayan sürətlə; başqa yollarda - saatda 90 kilometrdən çox olmayan sürətlə;
3) Şəhərlərarası və xüsusilə kiçik avtobuslar və motosikletlər yaşayış məntəqələrindən kənarda bütün yollarda saatda 90 kilometrdən çox olmayan sürətlə;
4) Digər avtobuslar, yedəyində qoşqu aparan minik avtomobilləri, icazə verilən maksimum kütləsi 3,5 tondan artıq olan yük avtomobilləri yaşayış məntəqələrindən kənarda:avtomagistrallarda - saatda 90 kilometrdən çox olmayan sürətlə; başqa yollarda - saatda 70 kilometrdən çox olmayan sürətlə;
5) Banında adamlar daşıyan yük avtomobilləri - saatda 50 kilometrdən çox olmayan sürətlə;
6) Yedəyində mexaniki nəqliyyat vasitələri aparan nəqliyyat vasitələri - saatda 50 kilometrdən çox olmayan sürətlə;
7) Təhlükəli, ağır çəkili və iri qabaritli yüklər daşıyan nəqliyyat vasitələri - daşıma şərtləri razılaşdırılarkən müəyyən edilmiş həddən çox olmayan sürətlə hərəkət etməlidirlər.
III. Sürücü sürətdən və hərəkət şəraitindən asılı olaraq elə ara məsafəsi seçməlidir ki, qabaqda gedən nəqliyyat vasitəsi sürəti kəskin azaltdıqda və ya gözlənilmədən dayandıqda, onunla toqquşmanın qarşısını almaq mümkün olsun.
IV. Yaşayış məntəqələrindən kənarda ötməni asanlaşdırmaq məqsədilə, asta gedən, ağır yüklü və ya uzun nəqliyyat vasitələrinin sürücüləri özlərindən qabaqda gedən nəqliyyat vasitəsi ilə kifayət qədər ara məsafəsi saxlamalıdırlar ki, onları ötən nəqliyyat vasitələri ötməni tam təhlükəsiz şəraitdə başa çatdırsınlar. Əgər sürücü ötmə əməliyyatına başlamışdırsa və ötürsə, bu tələbə əməl olunmur.
V. Üstün hərəkət rejimli nəqliyyat vasitələri zərurətdən irəli gələn sürətlə hərəkət edə bilərlər. Göstərilən nəqliyyat vasitələrinin sürücüləri yol-nəqliyyat hadisələrinin qarşısını almaq üçün hər cür tədbir görməlidirlər.
VI. Sürücülərə:
1) Nəqliyyat vasitəsini onun texniki xarakteristikası üzrə müəyyən edilmiş maksimum sürətdən artıq sürmək;
2) Lüzumsuz olaraq həddindən az sürətlə hərəkət etməklə başqa nəqliyyat vasitələri üçün maneə yaratmaq;
3) Yol-nəqliyyat hadisəsinin qarşısını almaq üçün lazım olan hallar istisna edilməklə, nəqliyyat vasitəsini sərt tormozlamaq qadağandır.
VII. Yollarda nəqliyyat vasitələrinin hərəkət sürətinin ölçülməsi üçün nəzərdə tutulan mobil və ya stasionar xüsusi texniki vasitələrdən (radarlardan) qabaqda radarın mövcudluğu barədə məlumat vermək məqsədilə 6.14 “İnformasiya stendi” servis nişanı və əlavə məlumat nişanı, yaxud həmin yolda icazə verilən sürət həddini göstərən 3.24 “Maksimum sürətin məhdudlaşdırılması” nişanı quraşdırılmalıdır. Belə servis nişanı və ya 3.24 nişanı yaşayış məntəqələrindən kənarda müvafiq radardan 150-1000 metr qabaqda, yaşayış məntəqələrində isə 50-200 metr qabaqda quraşdırılır.

Ötmə və qarşılıqlı keçmə:

I. Ötməyə başlamazdan əvvəl sürücü əmin olmalıdır ki:

1) Girmək istədiyi hərəkət zolağı ötmə üçün kifayət edəcək məsafədə boşdur və bu manevr ilə o, qarşıdan gələn və bu zolaqda gedən nəqliyyat vasitələri üçün maneə yaratmayacaq;

2) Eyni zolaqda arxasınca gələn nəqliyyat vasitəsi onu ötməyə başlamayıb, özündən qabaqda gedən nəqliyyat vasitəsi isə ötmə, sola dönmə, yerdəyişmə barədə siqnal vermir;

3) Qarşıdan gələn və bu zolaqda gedən nəqliyyat vasitələri üçün təhlükə və ya maneə yaratmadan çıxmaq istədiyi hərəkət zolağı kifayət edən məsafədə boşdur və iki nəqliyyat vasitəsinin nisbi sürəti ötməni kifayət qədər qısa müddətdə başa çatdırmağa imkan verəcəkdir.

II. Relssiz nəqliyyat vasitəsini yalnız sol tərəfdən ötməyə icazə verilir. Lakin sürücüsü sola dönmə siqnalı verən və manevrə başlayan nəqliyyat vasitəsini sağ tərəfdən ötmək lazımdır.

III. Ötmənin sonunda (sağ tərəfdən ötməyə icazə verilən hallardan başqa) sürücü əvvəl tutduğu hərəkət zolağına qayıtmalıdır. Lakin eyni istiqamətdə hərəkət üçün iki və daha artıq zolaq olduqda, ötən sürücü əgər əvvəl tutduğu zolağa qayıdıb dərhal yenidən ötməyə başlamalı olacaqsa və onun arxasınca daha yüksək sürətlə gələn nəqliyyat vasitələri üçün maneə yaratmayacaqsa, sol zolaqda qala bilər.

IV. Hərəkət sürətini artırmaqla və ya başqa hərəkətlərlə ötən nəqliyyat vasitəsinin sürücüsünə maneçilik törətmək qadağandır.

V. *Ötmə aşağıdakı yerlərdə və hallarda qadağandır:*

1) Nizamlanan yolayrıclarında - əks istiqamətli hərəkət zolağına keçməklə və nizamlanmayan yolayrıclarında - baş yol olmayan yolla hərəkət etdikdə (hərəkətin dairəvi olduğu yolayrıclarında ötmə, yanqoşqusu olmayan ikitəkərli nəqliyyat vasitələrini ötmə və icazə verilmiş sağdan ötmə istisna edilməklə);

2) Piyada keçidlərində - piyadalar olduqda;

3) Dəmir yol keçidlərində və onlara 100 metrdən az qaldıqda;

4) Ötən və ya yanından keçən nəqliyyat vasitəsini;

5) Yoxuşun axırında və yolun məhdudiyyətli görünüşlü digər sahələrində - əks istiqamətli hərəkət zolağına çıxmaqla;

6) Tunellərdə qadağandır.

VI. Yaşayış məntəqələrindən kənarda asta gedən və ya iriqabaritli nəqliyyat vasitəsini ötmək çətinləşdikdə, sürücü nəqliyyat vasitəsini mümkün qədər sağa çəkməli, lazım gəldikdə isə arxasında yığılmış nəqliyyat vasitələrini buraxmalıdır.

VII. Qarşılıqlı keçmə çətinləşən hallarda - hansı sürücü tərəfdə maneə varsa, həmin sürücü yol verməlidir. 1.13 və 1.14 nişanları ilə işarələnmiş yerlərdə maneə olduqda, enişlə aşağı hərəkət edən nəqliyyat vasitəsinin sürücüsü yoxuşla yuxarı gedən nəqliyyat vasitəsinə yol verməlidir.

Dayanma və durma:

I. Nizamlama vasitələrində başqa göstəriş nəzərdə tutulmamışdırsa, nəqliyyat vasitələrinin yolun sağ tərəfində - yol çiyinində, yol çiyini olmadıqda isə yolun hərəkət hissəsinin kənarında bir cərgədə dayanmasına və durmasına icazə verilir. Yanqoşqusu

olmayan motosikletlər, mopedlər və velosipedlər yolun hərəkət hissəsinin kənarında iki cərgədə dayana və dura bilərlər.
II. Yolun sol tərəfində dayanmağa və durmağa yaşayış məntəqələrində tramvay yolunun olması səbəbindən sağ tərəfdə dayanmaq mümkün olmadıqda və ya birtərəfli hərəkət yollarında (icazə verilən maksimum kütləsi 3,5 tondan çox olan yük avtomobillərinə birtərəfli hərəkət yollarının sol tərəfində dayanmağa yalnız yük götürmək və ya boşaltmaq üçün) icazə verilir. Yolun hərəkət hissəsinə bitişik səkinin kənarında durmağa yalnız minik avtomobillərinə, motosikletlərə, mopedlərə və velosipedlərə bu şərtlə icazə verilir ki, onlar piyadaların hərəkətinə mane olmasın.
III. Yaşayış məntəqəsindən kənarda uzunmüddətli dincəlmə, gecələmə və istirahət üçün durmağa yalnız bu məqsədlə düzəldilmiş meydançalarda və ya yoldan kənarda icazə verilir.
IV. *Aşağıdakı yerlərdə dayanma qadağandır*:
1) Tramvay yollarında, habelə tramvay yollarının bilavasitə yaxınlığında, əgər bu, tramvayın hərəkətinə maneə yaradarsa;
2) Dəmir yol keçidlərində, tunellərdə, habelə estakadalarda, körpülərdə (əgər həmin istiqamətdə üçdən az hərəkət zolağı varsa) və onların altında;
3) 1.1, 1.3 və 1.11 üfüqi nişanlanma xətləri ilə dayanmış nəqliyyat vasitəsi arasında məsafə 3 metrdən az olan yerlərdə
4) Piyada keçidlərində və onlara 5 metrdən az yaxınlıqda;
5) Hərəkət hissəsində təhlükəli döngələrin və yolun uzununa profilinin qabarıq əyintili hissəsinin yaxınlığında - hər hansı bir istiqamətdə yolun görünmə sahəsi 100 metrdən az olduqda;
6) 1.1-1.4 nişanlama xətti, yaxud ayırıcı zolağı olan üçtərəfli yolayrıclarındakı yan keçidin qarşı tərəfində dayanma halları istisna olmaqla, hərəkət hissələrinin kəsişməsində və kəsişən hərəkət hissəsinin kənarından 5 metrdən az yaxınlıqda;
7) Dayanacaq meydançasına, meydança olmadıqda isə ümumi istifadədə olan nəqliyyat vasitələrinin dayanacaq yerini işarə edən 5.12 və ya 5.13 yol nişanlarına 15 metrdən az yaxınlıqda;
8) Nəqliyyat vasitəsi svetofor siqnallarının, yol nişanlarının qarşısını tutmaqla başqa sürücülərin bunları görməsinə mane olduğu və ya başqa nəqliyyat vasitələrinin hərəkətini (girmə və ya çıxma) qeyri- mümkün etdiyi, yaxud piyadaların hərəkəti üçün maneə yaratdığı yerlərdə;
9) Nizamlama vasitələrində başqa göstəriş nəzərdə tutulmamışdırsa - səkilərdə;
10) 3.27 yol nişanının və bu nişanla birlikdə tətbiq edildikdə 1.4 nişanlanma xəttinin təsir zonalarında;
11) Avtomagistrallarda və ya 5.3 nişanı ilə işarələnmiş yollarda 5.15 və ya 6.11 nişanları ilə işarələnmiş xüsusi dayanacaq meydançalarından kənarda dayanma qadağandır.
IV-I. Ümumi istifadədə olan nəqliyyat vasitəsi sürücüsünün sərnişinləri mindirmək və düşürtmək üçün nəqliyyat vasitəsini bu məqsədlə xüsusi olaraq müəyyən edilmiş dayanacaq meydançalarından və ya 5.12, 5.13 nişanları ilə işarələnmiş dayanacaq yerlərindən kənar dayandırması qadağandır. Taksilərin bu məqsədlə xüsusi olaraq müəyyən edilmiş və 5.14 nişanı ilə işarələnmiş duracaq yerlərindən kənar yerlərdə sifariş qəbul etmək məqsədilə durması qadağandır.

V. Nəqliyyat vasitəsini duracağa qoyduqda sürücü mühərriki söndürməli, duracaq tormoz sistemini qoşmalı, təkərləri səkiyə və ya yolun qırağındakı başqa maneəyə tərəf çevirməli və qapıları kilidləməlidir. İcazə verilən maksimum kütləsi 3,5 tondan çox olan nəqliyyat vasitəsini yoxuşda və ya enişdə duracağa qoyduqda, nəqliyyat vasitəsinin öz-özünə hərəkət etməsinə yol verməmək üçün sürücü təkərlərdən heç olmasa birinin altına tıxac qoymalıdır.

VI. *Nəqliyyat vasitələrinin aşağıdakı yerlərdə durması qadağandır:*

1) Dayanmanın qadağan edildiyi yerlərdə;
2) Yaşayış məntəqələrindən kənarda - yolların hərəkət hissəsində;
3) 5.1 nişanı ilə işarələnmiş yerlərdə;
4) Dəmir yol keçidlərinə 50 metrdən az yaxınlıqda;
5) Girişin, habelə darvaza qarşısında;
6) 3.28 yol nişanının və bu nişanla birlikdə tətbiq edildikdə 1.10 nişanlanma xəttinin təsir zonalarında.

VII. Dayanmanın qadağan edildiyi yerlərdə məcburi dayandıqda sürücü nəqliyyat vasitəsinin həmin yerlərdən aparılması üçün mümkün olan bütün tədbirləri görməlidir.

VIII. Nəqliyyat vasitəsi qapılarının açılması yol hərəkətinin digər iştirakçıları üçün maneə yaradarsa, onları açmaq qadağandır.

IX. Nəqliyyat vasitəsinin öz-özünə hərəkətini və ya sürücü olmadıqda ondan istifadəni istisna edən zəruri tədbirləri gördükdən sonra sürücü öz yerini tərk edə və ya nəqliyyat vasitəsini qoyub gedə bilər.

A.3.4 Yolayrıcının keçilmə qaydaları

I. Sağa və ya sola dönən sürücü dönəcəyi yolun hərəkət hissəsini keçməkdə olan piyadalara, habelə belə hərəkət hissəsini velosiped yolu ilə keçməkdə olan velosipedçilərə yol verməlidir.

II. Əgər yolayrıcında və ya hərəkət hissələrinin kəsişməsində tıxac yaranıbsa və bu sürücünü dayanmağa məcbur edərək digər nəqliyyat vasitələrinin hərəkəti üçün maneə yaradacaqsa, sürücünün belə yolayrıcına və ya kəsişmə yerlərinə girməsi qadağandır.

III. Hərəkət növbəliliyi svetoforun və ya nizamlayıcının siqnalları ilə müəyyən edilən yolayrıcı nizamlanan hesab edilir.

IV. Yanıb-sönən sarı siqnal olduqda, svetoforlar işləmədikdə və ya nizamlayıcı olmadıqda, yolayrıcı nizamlanmayan hesab edilir və sürücülər nizamlanmayan yolayrıcılarını keçmə qaydalarını və yolayrıcında quraşdırılmış üstünlük nişanlarını əsas tutaraq hərəkət etməlidirlər.

Praktik tapşırıq A.3.1 – NV-nin hərəkətə başlamasına dair tapşırıqların yerinə yetirilməsi

İstifadə edilməli resurslar:

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Yol nişanlarının maqnitli maketləri;
- Təlim stendi;
- Xüsusi təlim meydançası.

Fəaliyyət və tapşırıqlar	Təlimat və tövsiyələr
NV-nin hərəkətə başlamasına dair tapşırıqların yerinə yetirilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ NV-nin hərəkətə başlamasına dair tapşırıqların yerinə yetirilməsini təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, tapşırığın tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar 	➢ NV-nin hərəkətə başlaması qaydaları haqda şifahi məlumat verirsiniz. ➢ Hərəkət hissəsindən və ya hər hansı dayandığınız və ya durduğunuz yerdən hərəkətə başlamazdan əvvəl bu haqda digər NV-ni xəbərdar etməlisiniz. ➢ Bu məqsədlə sola dönmə göstəricisini işə qoşursunuz. ➢ NV-nin dönmə göstəricisi işləmirsə, onda sol əlinizi yana çıxararaq üfüqi vəziyyətdə tutursunuz (bu siqnal sola və ya geriyə dönmə siqnallarını ifadə edir). ➢ Əmin olursunuz ki, sizin bu manevriniz hərəkətdə olan digər NV-yə maneçilik törətməyəcək, o zaman hərəkətə başlaya bilərsiniz. ➢ Hərəkətə başladıqdan sonra dönmə göstəricisini söndürürsünüz. ➢ Dönmə göstərici siqnalını əllə vermisinizsə, onda hərəkətə başlamazdan əvvəl əlinizi geri çəkirsiniz. ➢ Hərəkət hissəsinin kənarında dayanmaq istədikdə sağ zolağa keçirsiniz və sağa dönmə göstəricisini işə qoşursunuz. ➢ Yolun sağ kənarında səki daşına yaxın dayanırsınız və dərhal dönmə göstəricisini söndürürsünüz. ➢ Bu halda da dönmə göstəricisi işləmirsə, sol dolu yana uzatmaqla dirsəkdən bükürsünüz, bu siqnaldan sağa dönmə və ya dayanma zamanı istifadə edilir. ➢ Əvvəlki manevrdə olduğu kimi, işıq göstəricisi ilə verilən siqnalı manevr bitdikdən sonra, əllə verilən siqnalı isə manevrə başlamazdan əvvəl dərhal

 	kəsirsiniz. ➢ Yolayrıclarında sağa, sola və ya geriyə manevr edərkən manevr istiqamətinə uyğun dönmə göstəricisini işə qoşursunuz. ➢ Yolun hərəkət hissəsindən geriyə dönmə manevri yerinə yetirirsinizsə və hərəkət hissəsinin eni bu manevri yerinə yetirməyə imkan vermirsə, əvvəlcə sağa dönmə göstəricisini yandıraraq hərəkət hissəsinin kənarına sıxılırsınız və dərhal dönmə göstəricisini söndürüsünüz. ➢ Bundan sonra sizin arxanızdan və eyni zamanda qarşı tərəfdən NV gəlmirsə, sola dönmə göstəricisini qoşursunuz və geriyə manevri başa çatdırırsınız və manevr bitdikdən sonra dönmə göstəricisini dərhal söndürürsünüz. ➢ Yolayrıclarında sağa, sola və ya geriyə manevrlər zamanı hərəkət istiqamətində uyğun zolaqda mövqe tutursunuz, manevr edəcəyiniz istiqamətə uyğun dönmə göstəricisini qoşursunuz və təhlükə yaratmadan manevri sona çatdırırsınız. ➢ Zolaqdan-zolağa da yer dəyişdikdə müvafiq istiqamətə uyğun dönmə göstəricisini işə qoşursunuz və əvvəlki manevrlərdə olduğu kimi, siqnalı manevr bitən kimi dərhal söndürürsünüz. ➢ Yolayrıcı hesab olunmayan yerlərdə də manevrlər edərkən dönmə göstəricilərini işə qoşursunuz. ➢ Dairəvi hərəkət təşkil edilmiş yolayrıcılarına daxil olarkən ilk öncə sağa dönmə göstəricisini işə

    	qoşursunuz.
Diqqət edilməli məqamlar!!!	➢ Təhlükəsizliyi təmin etmədən verilən hər hansı siqnal qəbulolunmazdır. ➢ Dönmələr bitdikdən sonra dönmə göstəricilərinin söndürülməsini diqqətdə saxlayın.

Praktik tapşırıq A.3.2 – *NV-nin manevr etməsinə dair tapşırıqların yerinə yetirilməsi*

İstifadə edilməli resurslar:

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Yol nişanlarının maqnitli maketləri;
- Təlim stendi;
- Xüsusi təlim meydançası.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
NV-nin manevr etməsinə dair tapşırıqların yerinə yetirilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin.

	➢ NV-nin manevr etməsinə dair tapşırıqların yerinə yetirilməsini təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, tapşırığın tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar  	➢ NV-nin manevr etmə qaydalarını şifahi halda söyləyirsiniz. ➢ Hərəkət hissəsinin kənarından hərəkətə başlamaq istəyirsiniz və sizin arxanızda sol zolaqda hərəkətdə olan NV sağ zolağa keçərək dayanmaq istəyir. ➢ Bu halda o NV hərəkətdə olduğuna görə, siz isə hərəkətə başlamaq istədiyinizə görə hərəkət üstünlüyü əldə edirsiniz. ➢ Siz imkan verirsiniz ki, o NV manevri başa çatdırsın. ➢ Yalnız bundan sonra siz sola dönmə göstəricisini işə qoşaraq hərəkətə başlaya bilərsiniz.
   	➢ Siz hərəkət hissəsinin sağ kənarından hərəkətə başlamaq istəyirsiniz. Qarşı hərəkət zolağı ilə hərəkətdə olan NV isə geriyə dönmək istəyir. Qaydaların tələbinə görə bu halda qarşıdan geriyə manevr etmək istəyən NV hərəkət üstünlüyünə malik olduğundan siz ona yol verirsiniz və yalnız ondan sonra qaydaların tələbinə uyğun hərəkətə başlayırsınız. ➢ Siz hərəkət hissəsinin sağ kənarından hərəkətə başlamaq istəyirsiniz, bu halda qonşu sol zolaqda bir NV hərəkət edir və heç bir dönmə göstəricisi də qoşmayıb. Siz tamam əmin olduqdan sonra ki, sizin manevriniz o NV-yə maneə yaratmayacaq, hərəkətə başlayırsınız. ➢ Şəkildə göstərildiyi kimi, siz hərəkət hissəsinin (HH) sağ zolağı ilə düzünə hərəkətdəsiniz. Sağ tərəfdə yerləşən yanacaqdoldurma məntəqəsindən bir NV hərəkətə başlayaraq əsas yola çıxmaq

	istəyir. Bu halda siz ona yol vermədən hərəkətinizi davam etdirirsiniz, çünki o, yolayrıcı hesab edilməyən ərazidən çıxır, belə çıxışlar da yolayrıcı hesab edilmir.
Diqqət edilməli məqamlar!!!	➢ Manevrlər bitdikdən sonra dönmə göstəricilərinin söndürülməsini diqqətdə saxlayın.

Praktik tapşırıq A.3.3 – Hərəkət sürətinin seçilməsinə dair tapşırıqların yerinə yetirilməsi

İstifadə edilməli resurslar:

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Yol nişanlarının maqnitli maketləri;
- Təlim stendi;
- Xüsusi təlim meydançası.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Hərəkət sürətinin seçilməsinə dair tapşırıqların yerinə yetirilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Hərəkət sürətinin seçilməsinə dair tapşırıqların yerinə yetirilməsini təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, tapşırığın tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar 	➢ Hərəkət sürəti və onun seçilməsi haqda şifahi olaraq ifadə edirsiniz. ➢ Siz yaşayış zonalarında 20 km/saat-dan artıq sürətlə hərəkət edə bilməyəcəksiniz. Maksimum 20 km/saat sürətlə hərəkət edirsiniz. ➢ Ağ fonlu nişanla nişanlanmış yaşayış məntəqələrində təkərli traktorla maksimum 30 km/saat sürətlə hərəkət edə bilərsiniz. ➢ Göy fonlu nişanla nişanlanmış yaşayış məntəqələrində də təkərli traktorla saatda maksimum 30 km sürətlə hərəkət edəcəksiniz. ➢ Avtomagistralda traktorların və özügedən mexaniki NV-nin hərəkəti qadağandır. Bu səbəbdən siz

	avtomagistralda hərəkət edə bilməyəcəksiniz. ➢ Sizin idarə etdiyiniz traktoktor və ya özügedən mexaniki NV avtomagistralda xidmət işləri aparırsa, sizin hərəkətiniz qadağan hesab edilmir. ➢ Texniki xarakteristikasına görə, iri qabaritli traktorların və özügedən NV-nin ağ və ya göy fonlu yaşayış məntəqələrində birbaşa istismarı qadağandır, lazım olduqda onları xüsusi daşıma vasitələrində iş görüləcək sahəyə daşıyırlar.
Diqqət edilməli məqamlar!!!	➢ Hərəkətdə olarkən sağ hərəkət zolağını tutmağı diqqətdə saxlayın.

Praktik tapşırıq A.3.4 – *Ötmə və qarşılıqlı keçməyə dair tapşırıqların yerinə yetirilməsi*

İstifadə edilməli resurslar:

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Yol nişanlarının maqnitli maketləri;
- Təlim stendi;
- Xüsusi təlim meydançası.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Ötmə və qarşılıqlı keçməyə dair tapşırıqların yerinə yetirilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Ötmə və qarşılıqlı keçməyə dair tapşırıqların yerinə yetirilməsini təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, tapşırığın tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar 	➢ Ötmə və qarşılıqlı keçməyə dair qaydaları şifahi olaraq ifadə edirsiniz. ➢ Bir istiqamətdə üç zolaqlı yolda sizin qarşınızda orta zolaqda hərəkətdə olan NV-ni ancaq sol tərəfdən ötməlisiniz. Yolayrıcında isə qarşıda gedən NV sol dönmə göstəricisini qoşub və dönməyə başlayıbsa, onu sağ tərəfdən ötürsünüz.

  	➢ Nizamlanan yolayrıcında qarşı hərəkət zolağına çıxmaqla ötmə manevri yerinə yetirə bilməzsiniz, bu, qaydalarla qadağan olunub. Şəkildən görünür ki, traktor nizamlanan yolayrıcına artıq daxil olmuşdur və hərəkətini düzünə davam etdirir. Arxadan yaxınlaşan NV qaydalara zidd olaraq, ötmə əməliyyatı yerinə yetirir ki, bu da real qəza şəraitinin yaranmasına gətirib çıxaracaq. ➢ Nizamlanan yolayrıcında qarşıda hərəkətdə olan NV-ni qarşı hərəkət zolağına çıxmadan ötməklə qayda pozmursunuz.
Diqqət edilməli məqamlar!!!	➢ Ötməni yerinə yetirərkən maksimum diqqətli olmalısınız.

Praktik tapşırıq A.3.5 – *Dayanma və durmaya dair tapşırıqların yerinə yetirilməsi*

İstifadə edilməli resurslar:

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Yol nişanlarının maqnitli maketləri;
- Təlim stendi;
- Xüsusi təlim meydançası.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Dayanma və durmaya dair tapşırıqların yerinə yetirilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Dayanma və durmaya dair tapşırıqların yerinə yetirilməsini təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, tapşırığın tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.

Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar   	➢ Dayanma və durmaya dair qaydaları şifahi söyləyirsiniz. ➢ Traktoru idarə edirsiniz və yaşayış məntəqəsində dayanmaq istəyirsiniz. Bu məqsədlə birinci növbədə diqqət etməlisiniz ki, bu yerdə dayanma müvafiq nişanla qadağan edilib, yoxsa edilməyib. Bundan sonra sağa dönmə göstəricisini qoşaraq səki daşının yanında və səkiyə paralel olmaqla dayanırsınız. ➢ Siz yaşayış məntəqəsindən kənarda dayanmaq və ya durmaq istəyirsiniz. Bu halda siz sağa dönmə göstəricisini işə qoşursunuz və yolun hərəkət hissəsini tamamilə boşaldaraq yolun çiyninə çıxırsınız. ➢ Yaşayış məntəqəsində hərəkət hissəsinin ortasından tramvay xətti keçən bir ərazidə durmaq istəyirsiniz. ➢ Sizə bu yerdə durmaq o zaman qadağan ola bilər ki, burada durmağınız tramvayın hərəkətinə maneçilik törətsin. Şəkildən aydın görünür ki, siz bu yerdə dura bilməzsiniz.
Diqqət edilməli məqamlar!!!	➢ Dayanmaq və ya durmaq istəyərkən bu hərəkətin müvafiq nişanlarla qadağan olunub-olmamasına diqqət etməyi yaddan çıxarmayın.

Praktik tapşırıq A.3.6 – *Yolayrıcının keçilməsinə dair tapşırıqların yerinə yetirilməsi*

İstifadə edilməli resurslar:

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Yol nişanlarının maqnitli maketləri;
- Təlim stendi;
- Xüsusi təlim meydançası.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Yolayrıcının keçilməsinə dair tapşırıqların yerinə yetirilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Yolayrıcının keçilməsinə dair tapşırıqların yerinə yetirilməsini təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, tapşırığın tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.

Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar    	➢ Yolayrıcının keçilməsinə dair qaydaları şifahi söyləyirsiniz ➢ Traktoru idarə edirsiniz, nizamlanmayan və eyni əhəmiyyətli yolların kəsişməsindəsiniz və düzünə hərəkət etmək istəyirsiniz. Siz bilirsiniz ki, qaydalara görə belə yolların kəsişməsində NV özündən sağda olan NV-yə yol verməlidir. Bu halda siz yolayrıcına daxil ola bilmirsiniz, çünki sizin sağınızda 1 avtomobili maneə yaradır. Göstərilən situasiyada sağı boş olan NV təkcə 1 avtomobilidir. 1 avtomobili yolayrıcını birinci keçir. Bu zaman sizin sağınız boşalır və siz yolayrıcını düzünə keçirsiniz. Sizin ardınızca 3 avtomobili yolayrıcını keçir. ➢ Traktoru idarə edirsiniz, nizamlanmayan və eyni əhəmiyyətli yolların kəsişməsindəsiniz və düzünə hərəkət etmək istəyirsiniz. Belə vəziyyətlə rastlaşdıqda göründüyü kimi yolayrıcına heç bir NV daxil ola bilmir, çünki hər birinin sağında maneə var. Qaydalar bu halda məsləhət görür ki, onlardan birinə digərlərinin hərəkət hissəsini boşaltmasına icazə verir. Bir NV-nin sağı boşalandan sonra yolayrıcının keçilməsi sağdakı maneəni buraxmaqla növbəliliklə başa çatır. ➢ Şəkildə baş yolla ikinci dərəcəli yolun kəsişməsi göstərilmişdir. Siz özügedən NV-ni (1) idarə edirsiniz və düzünə hərəkət etmək istəyirsiniz. Siz bilirsiniz ki, qaydalara görə belə kəsişmədə yolayrıcını birinci keçmək baş yolda hərəkətdə olan NV-yə şamil edilir. İkinci dərəcəli yolda olan NV baş yoldakı NV-yə yol verməlidir. Manevrlər zamanı baş yolda olan və ikinci dərəcəli yolda olan NV-nin hərəkət trayektoriyaları kəsişirsə, onların hər biri özündən sağda olan NV-yə yol verməlidir. Beləliklə, bu yolayrıcını baş yolda olduğunuza görə siz keçirsiniz. 2 avtomobilin baş yolda olmasına baxmayaraq, o, sola manevr edərkən siz onun sağına düşdüyünüzə görə o, sizə yol verməyə borcludur. Siz və sizdən sonra 2 avtomobili yolu boşaldandan sonra əvvəlcə 3 və sonda 4 avtomobili yolayrıcını

  	keçir. ➢ Bəzən olur ki, baş yol yolayrıcında istiqamətini dəyişir. Belə olduqda yolayrıcının keçilməsi qaydası bir qədər fərqlənir. Siz 1 traktorunu idarə edirsiniz, yolayrıcındasınız və düzünə getmək istəyirsiniz. Baş yolun istiqamətini dəyişməsi nişanından bəlli olur ki, baş yolda siz və 2 avtomobilidir. Sizə məlumdur ki, baş yoldakılar hərəkət üstünlüyünə malikdir, lakin siz 2 avtomobilinin sağında olduğunuza görə yolayrıcını birinci keçmək hüququ sizə verilir. Siz keçdikdən sonra 2 avtomobili, sonra 3 avtomobili və nəhayət sonda 4 avtomobili keçir. ➢ Siz baş yolla ikinci dərəcəli yolun kəsişməsindəsiniz və özügedən NV 2-ni idarə edirsiniz və yolayrıcından düzünə getmək istəyirsiniz. Şəkildən aydın görünür ki, baş yolda siz və 1 tramvayıdır. Yolayrıcını keçmək üstünlüyü tramvaya verilir, çünki belə hallarda relsli NV üstünlüyə malikdir. Beləliklə, yolayrıcını əvvəlcə 1 tramvayı, sonra siz, daha sonra 3 tramvayı və sonda 4 avtomobili keçir.
Diqqət edilməli məqamlar	➢ Eyni əhəmiyyətli yolların kəsişməsində sizdən solda tramvay olarsa, qaydalara görə keçmə üstünlüyü tramvaya verilir.

Təlim nəticələrinin qiymətləndirilməsi

Nəzəri biliklərin qiymətləndirilməsi

Qiymətləndirmə üsulu	**Suallar**
1. Test sualları	Sual 1: Aşağıdakı yerlərin hansında geriyə dönmək qadağandır? a) Piyada keçidlərində b) Tunellərdə c) Körpülərdə d) Hər bir variant doğrudur

Sual 2: Nişandan hansı maksimum sürətlə hərəkətə icazə verilir?

a) 60 km/s-dan artıq olmaz.
b) 50 km/s-dan artıq olmaz.
c) 20 km/s-dan artıq olmaz.
d) 30 km/s-dan artıq olmaz.

Sual 3: Qarşıdakı minik avtomobilinin sürücüsü sol əlini yana uzadaraq nə haqda məlumat vermək istəyir?

a) Sola dönmək istədiyini bildirir.
b) Sola və ya geriyə dönmək istədiyini bildirir.
c) Onun sol qolunu yana uzatması heç nə bildirmir.
d) Yük maşınına yol verməsini bildirir.

Sual 4: Yolayrıcında sağa dönərkən soldan yaxınlaşan avtomobilə yol verməlisinizmi?

a) Soldan yaxınlaşan avtomobilə yol verdikdən sonra dönə bilər.
b) Yolayrıcından birinci keçmək hüququna malikdir.
c) Heç bir halda yolayrıcına daxil ola bilməz.
d) Variantların hər biri səhvdir.

Sual 5: Əgər nəqliyyat vasitələrinin hərəkət trayektoriyaları kəsişirsə və keçmənin ardıcıllığı müəyyən olunmayıbsa, sürücü borcludur:
a) Belə manevr qaydalara ziddir.
b) Özündən sağdakı nəqliyyat vasitəsinə yol verməlisən.
c) Özündən soldakı nəqliyyat vasitəsinə yol verməlisən.
d) Variantların hər biri səhvdir.

Sual 6: Sadalananlardan hansı məcburi dayanma və ya durma adlanır?
a) Piyada keçidinin qarşısında saxlayıb, piyadalara yol vermək.
b) Avtomobilin texniki nasazlığı səbəbindən yolun hərəkət hissəsində qadağan olunan yerdə durmaq.
c) A və B variantları düzgündür.
d) Heç bir cavab düz deyil.

Sual 7: Hansı nəqliyyat vasitəsi yolu birinci keçəcək?
a) At arabası
b) Özügedən NV
c) Yük avtomobili

Sual 8: Siz yolayrıcında sola dönmək istəyirsiniz, kimə yol verməlisiniz

a) Yalnız minik avtomobilinə
b) Heç bir avtomobilə
c) Minik avtomobilinə və avtobusa
d) Motosikletə

Sual 9: Nəqliyyat vasitələri yolayrıcını hansı ardıcıllıqla keçməlidir?

a) Sarı avtomobil, qırmızı avtomobil, velosipedçi
b) Qırmızı avtomobil, velosipedçi, sarı avtomobil
c) Velosipedçi, sarı avtomobil, qırmızı avtomobil

d) Qırmızı avtomobil yolayrıcına daxil olur, velosiped keçir, sonra sarı avtomobil keçir

Sual 10: Sürücü şəkildə görünən yol ötürücüsünün üstündə avtomobili dayandıra bilərmi?

a) Bəli
b) Xeyr
c) Dayana bilər, ancaq sərnişin düşürmək məqsədilə
d) Körpünün üstündə dayanmaq birmənalı qadağandır

Sual 11: Sadlananlardan hansı halda sürücü ikitərəfli hərəkət üçün olan üçzolaqlı yolun orta zolağına hansı məqsədlə keçə bilər?

a) Sola və ya geriyə dönmək məqsədilə
b) Sola və geriyə dönmək, ötmək məqsədilə
c) Heç bir halda bu zolağa girə bilməz
d) Heç bir variant düzgün deyil

Sual 12: Göstərilən situasiyada yolayrıcı hansı ardıcıllıqla keçilməlidir?



a) Tramvay 1 və 2, minik avtomobili, özügedən NV
b) Tramvay 1, özügedən NV, tramvay 2, minik avtomobili

	c) Özügedən NV, tramvay 1 və 2, minik avtomobili d) Düzgün variant göstərilməyib <u>Sual 13</u>: Göstərilən situasiyada yolayrıcı hansı ardıcıllıqla keçilməlidir?  a) 1 avtomobili, 2 avtomobili, 3 avtomobili, traktor b) 2 avtomobili, 1 avtomobili, traktor, 3 avtomobili c) 1 və 3 avtomobilləri, 2 avtomobili, traktor d) Düzgün variant göstərilməyib
2. Düzgün və ya səhv cavabları seçmək	Aşağıdakı cümlələrin əvvəlində boşluğa düzgün (+) və ya səhv (-) olduğunu işarə edin. 1. ( ) Sürücü yerdəyişmə zamanı hərəkət istiqamətini dəyişmədən eyni səmtə gedən nəqliyyat vasitələrinə yol verməlidir. 2. ( ) Sürücü yoldan kənara çıxdıqda hərəkət yolunu kəsən piyadalara və velosipedçilərə yol verməməlidir. 3. ( ) Sürücü yerdəyişmə zamanı hərəkət istiqamətini dəyişmədən eyni səmtə gedən nəqliyyat vasitələrinə yol verməlidir. 4. ( ) Hərəkət növbəliliyi svetoforun və ya nizamlayıcının siqnalları ilə müəyyən edilən yolayrıcı nizamlanmayan hesab edilir. 5. ( ) Piyada keçidlərində və onlara 5 metrdən az yaxınlıqda durmaq qadağandır. 6. ( ) Yaşayış məntəqələrindən kənarda yolların hərəkət hissəsində dayanmaq qadağandır. 7. ( ) Qarşılıqlı keçmə çətinləşən hallarda hansı sürücü tərəfdə maneə yoxdursa, həmin sürücü yol verməlidir. 8. ( ) Hər istiqamətdə azı iki hərəkət zolağı olan ikitərəfli hərəkət yollarında qarşıdan hərəkət üçün nəzərdə tutulmuş tərəfə keçmək qadağandır. 9. ( ) Ən azı bir istiqamətdə yolun 100 metrdən az hissəsi görünən yerlərdə geriyə dönmə qadağan deyil. 10. ( ) Yol nişanları ilə hərəkət üstünlüyü müəyyən edilməmişdirsə, dairəvi hərəkət təşkil olunmuş yolayrıcına

	daxil olan sürücü dairədə hərəkət edən nəqliyyat vasitələrinə yol verməlidir. 11. ( ) Nizamlanan yolayrıcında ötmək qadağandır 12. ( ) Yoxuşun axırında və yolun məhdudiyyətli görünüşlü digər sahələrində - əks istiqamətli hərəkət zolağına çıxmaqla ötmək qadağandır.
3. Boşluqları doldurmaq	Aşağıdakı cümlələri oxuyun və boşluqlara uyğun gələn sözləri daxil edin. 1. Manevrlər zamanı siqnal verməsi sürücüyə üstünlük vermir və onu ..... tədbirləri görməkdən azad etmir. 2. Elə dönmək lazımdır ki, NV hərəkət hissələrinin kəsişdiyi yerdən çıxarkən qarşıdan gələn nəqliyyatın ..... keçməsin. 3. Eyni istiqamətdə azı iki hərəkət zolağı olan yolda tramvay yolları olduqda tramvay yoluna ..... qadağandır. 4. Traktorlara yaşayış məntəqələrində maksimum ..... km/saat-dan artıq sürətlə hərəkətə icazə verilmir. 5. Relsiz NV-ni yalnız ..... tərəfdən ötməyə icazə verilir. 6. Yolun sol tərəfində dayanmağa və durmağa yaşayış məntəqələrində ..... yolunun olması səbəbindən sağ tərəfdə dayanmaq mümkün olmadıqda icazə verilir. 7. Ümumi istifadəli nəqliyyat vasitələrinin ..... məntəqəsinin yerləşdiyi yerlərdə geriyə dönmək qadağandır.

Qiymətləndirmə çərçivəsi

<u>Praktik tapşırıq A.3.1 – NV-nin hərəkətə başlamasına dair tapşırıqların yerinə yetirilməsi</u>

Qiymətləndirmə ölçüsü	**Bəli**	**Xeyr**
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4. NV-nin hərəkətə başlaması qaydaları haqda şifahi məlumat verdinizmi?		
5. Hərəkət hissəsinin kənarında dayandığınız və ya duduğunuz yerdən hərəkətə başlamazdan əvvəl bu haqda digər NV-ni sola dönmə göstəricisini işə qoşaraq xəbərdar etdinizmi?		
6. Əmin oldunuz ki, sizin bu manevriniz hərəkətdə olan digər NV-yə maneçilik törətməyəcək?		

7. Hərəkətə başladıqdan sonra dönmə göstəricisini söndürdünüzmü?		
8. Hərəkət hissəsinin kənarında dayanmaq istədikdə əvvəlcə sağ zolağa keçib və sağa dönmə göstəricisini işə qoşdunuzmu?		
9. Yolun sağ kənarında səki daşına yaxın dayandıqdan sonra dərhal dönmə göstəricisini söndürdünüzmü?		
10. Yolun hərəkət hissəsindən geriyə dönmə manevri yerinə yetirdikdə və hərəkət hissəsinin eni bu manevri yerinə yetirməyə imkan vermədikdə, əvvəlcə sağa dönmə göstəricisini yandıraraq hərəkət hissəsinin kənarına sıxıldınızmı və dərhal dönmə göstəricisini söndürdünüzmü?		
11. Geriyə dönməni sona çatdırmaq üçün sizin arxanızdan və eyni zamanda qarşı tərəfdən NV gəlmədiyinə əmin olandan sonra sola dönmə göstəricisini qoşaraq geriyə dönməni başa çatdırırdınızmı və dönmə bitdikdən sonra dönmə göstəricisini dərhal söndürdünüzmü?		
12. Yolayrıclarında sağa, sola və ya geriyə dönmələr zamanı hərəkət istiqamətində uyğun zolaqda mövqe tutdunuzmu, manevr edəcəyiniz istiqamətə uyğun dönmə göstəricisini qoşdunuzmu və təhlükə yaratmadan dönməni sona çatdırdınızmı?		
13. Zolaqdan-zolağa yer dəyişdikdə müvafiq istiqamətə uyğun dönmə göstəricisini işə qoşdunuzmu və əvvəlki manevrlərdə olduğu kimi siqnalı manevr bitən kimi dərhal söndürdünüzmü?		
14. Yolayrıcı hesab olunmayan yerlərdə manevr edərkən dönmə göstəricilərini işə qoşdunuzmu?		
15. Dairəvi hərəkət təşkil edilmiş yolayrıcılarına daxil olarkən ilk öncə sağa dönmə göstəricisini işə qoşdunuzmu?		

Praktik tapşırıq A.3.2 – *NV-nin manevr etməsinə dair tapşırıqların yarinə yetirilməsi*

Qiymətləndirmə ölçüsü	**Bəli**	**Xeyr**
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4. NV-nin manevr etmə qaydalarını şifahi halda söylədinizmi?		
5. Siz hərəkət hissəsinin kənarından hərəkətə başlamaq istədikdə sizin arxanızda sol zolaqda hərəkətdə olan NV-si sağ zolağa keçərək dayanmaq istədikdə, onun hərəkətdə olduğunu nəzərə alaraq ona hərəkət üstünlüyü verdinizmi?		
6. Siz hərəkət hissəsinin sağ kənarından hərəkətə başlamaq istəyirdiniz. Qarşı hərəkət zolağı ilə hərəkətdə olan NV-si isə geriyə dönmək istəyirdi. Qaydaların tələbinə görə bu halda qarşıdan geriyə manevr etmək istəyən NV hərəkət üstünlüyünə		

malik olduğundan siz ona yol verdinizmi və yalnız ondan sonra qaydaların tələbinə uyğun hərəkətə başladınızmı?		
7. Siz hərəkət hissəsinin sağ kənarından hərəkətə başlamaq istəyirdiniz, bu halda qonşu sol zolaqda bir NV hərəkət edirdi və heç bir dönmə göstəricisi də qoşmamışdır. Siz tamam əmin olduqdan sonra ki, sizin manevriniz o NV-yə maneə yaratmayacaq, yalnız o halda hərəkətə başladınızmı?		
8. Şəkildə göstərildiyi kimi siz hərəkət hissəsinin (HH) sağ zolağı ilə düzünə hərəkətdəsiniz. Sağ tərəfdə yerləşən yanacaqdoldurma məntəqəsindən bir NV hərəkətə başlayaraq əsas yola çıxmaq istəyir. Bu halda siz ona yol vermədən hərəkətinizi davam etdirdinizmi?		

Praktik tapşırıq A.3.3 – *Hərəkət sürətinin seçilməsinə dair tapşırıqların yerinə yetirilməsi*

Qiymətləndirmə ölçüsü	**Bəli**	**Xeyr**
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4. Hərəkət sürəti və onun seçilməsi haqda şifahi olaraq ifadə edirsinizmi?		
5. Siz yaşayış zonalarında 20 km/saat-dan artıq sürətlə hərəkət etdinizmi?		
6. Ağ fonlu nişanla nişanlanmış yaşayış məntəqələrində təkərli traktorla maksimum 30 km/saat sürətdən az sürətlə hərəkət edə bilərsinizmi?		
7. Göy fonlu nişanla nişanlanmış yaşayış məntəqələrində də təkərli traktorla saatda maksimum 30 km-dən artıq sürətlə hərəkət edə bilərsinizmi?		
8. Sizə traktorla avtomagistralda hərəkət etməyə icazə varmı?		

Praktik tapşırıq A.3.4 – *Ötmə və qarşılıqlı keçməyə dair tapşırıqların yerinə yetirilməsi*

Qiymətləndirmə ölçüsü	**Bəli**	**Xeyr**
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4. Ötmə və qarşılıqlı keçməyə dair qaydaları şifahi olaraq ifadə etdinizmi?		
5. Bir istiqamətdə üç zolaqlı yolda sizin qarşınızda orta zolaqda hərəkətdə olan NV-ni ancaq sol tərəfdən ötdünüz?		

6. Yolayrıcında qarşıda gedən NV sola dönmə göstəricisini qoşub və dönməyə başlayıbsa, onu sağ tərəfdən ötdünüzmü?		
7. Nizamlanan yolayrıcında qarşı hərəkət zolağına çıxmaqla ötmə manevri yerinə yetirə bildinizmi?		
8. Nizamlanan yolayrıcında qarşıda hərəkətdə olan NV-ni qarşı hərəkət zolağına çıxmadan ötməklə qayda pozdunuzmu?		

Praktik tapşırıq A.3.5 – *Dayanma və durmaya dair tapşırıqların yerinə yetirilməsi*

Qiymətləndirmə ölçüsü	**Bəli**	**Xeyr**
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4. Dayanma və durmaya dair qaydaları şifahi söylədinizmi?		
5. Siz traktoru idarə edirdiniz və yaşayış məntəqəsində dayanmaq istəyirdiniz. Bu məqsədlə birinci növbədə, bu yerdə dayanmanın müvafiq nişanla qadağan edilib-edilmədiyinə diqqət etdinizmi? Bundan sonra sağa dönmə göstəricisini qoşaraq səki daşının yanında və səkiyə paralel olmaqla dayandınızmı?		
6. Siz yaşayış məntəqəsində kənarda dayanmaq və durmaq istəyirdiniz. Bu məqsədlə siz sağa dönmə göstəricisini işə qoşaraq, hərəkət hissəsini tamamilə boşaldaraq, yolun çiyninə çıxaraq dayandınızmı?		
7. Yaşayış məntəqəsində hərəkət hissəsinin ortasından tramvay xətti keçən bir ərazidə durmaq istəyirdiniz. Sizin qənaətinizcə, burada durmağınız tramvayın hərəkətinə maneçilik törədərdi? Bunu nəzərə alaraq yolun sol tərəfində dayandınızmı?		

Praktik tapşırıq A.3.6 – *Yolayrıcının keçilməsinə dair tapşırıqların yerinə yetirilməsi*

Qiymətləndirmə ölçüsü	**Bəli**	**Xeyr**
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4. Yolayrıcının keçilməsinə dair qaydaları şifahi söylədinizmi?		
5. Siz traktoru idarə edirdiniz, nizamlanmayan və eyni əhəmiyyətli yolların kəsişməsindən düzünə hərəkət etmək istəyirdiniz. Bu halda sizin sağınızda 1 avtomobili olduğundan yolayrıcına daxil ola bilmədiniz? Bu situasiyada sağı boş olan NV təkcə 1 avtomobili olduğundan 1 avtomobili yolayrıcını birinci keçdikdən sonra sizin sağınızın boşalmasını rəhbər tutaraq yolayrıcını düzünə keçdinizmi? Sizin ardınızca 3 avtomobili yolayrıcını keçdimi?		

6. Siz traktoru idarə edirdiniz, nizamlanmayan və eyni əhəmiyyətli yolların kəsişməsində idiniz və düzünə hərəkət etmək istəyirdiniz. Bütün NV-lərin də sağında NV var. Qaydaların bu halda məsləhət gördüyü addımı rəhbər tutaraq, onlardan birinə sizin icazənizlə hərəkət hissəsini boşaltdıqdan sonra kimin sağında maneə yoxdur prinsipinə əsasən yolayrıcını keçdinizmi?		
7. Şəkildə baş yolla ikinci dərəcəli yolun kəsişməsi göstərilmişdir. Siz özügedən NV-ni (1) idarə edirdiniz və düzünə hərəkət etmək istəyirdiniz. Bu yolayrıcını baş yolda olduğunuza görə və 2 avtomobilinin baş yolda olmasına baxmayaraq, onun sola manevr etdiyindən və bu zaman siz onun sağına düşdüyünüzdən yolayrıcını birinci keçdinizmi?		
8. Əvvəlcə siz, sizdən sonra 2 avtomobili yolu boşaltdıqdan sonra əvvəlcə 3 avtomobili və sonda 4 avtomobili yolayrıcını keçdimi?		
9.Baş yol yolayrıcında istiqamətini dəyişən yolayrıcındasınız. Siz 1 traktorunu idarə edirdiniz və düzünə hərəkət etmək istəyirdiniz. Baş yolun istiqamətini dəyişməsi nişanından bəlli olur ki, baş yolda siz və 2 avtomobilidir. Bu halda baş yoldakılar hərəkət üstünlüyünə malik olmalarını və sizin 2 avtomobilinin sağında olduğunuzu nəzərə alaraq yolayrıcını birinci keçdinizmi? Siz keçdikdən sonra 2 avtomobili, sonra 3 avtomobili və nəhayət sonda 4 avtomobili keçdimi?		
10. Siz baş yolla ikinci dərəcəli yolun kəsişməsindəsiniz və özügedən NV 2-ni idarə edirdiniz və yolayrıcından düzünə getmək istəyirdiniz. Şəkildən aydın görünür ki, baş yolda siz və 1 tramvayıdır. Bərabərhüquqlu hərəkətdə yolayrıcını keçmək üstünlüyünün təkərli NV-yə nəzərən tramvayda olduğuna görə ona yol verdinizmi?		
11. Beləliklə, yolayrıcını əvvəlcə 1 tramvayı, sonra siz, daha sonra 3 tramvayı və sonda 4 avtomobili keçdimi?		

A.4 Dəmir yol keçidlərindən keçmə, yaşayış zonalarında hərəkət, xarici işıq cihazlarından və səs siqnallarından istifadə qaydaları

A.4.1 Dəmir yol keçidlərindən keçmə, yaşayış zonalarında hərəkət



Şəkil 12. Dəmir yol xəttini təyin olunmayan yerlərdən keçmək qadağandır

I. Nəqliyyat vasitələrinin sürücüləri dəmir yollarını qatara (lokomotivə, drezinaya) yol verməklə, yalnız dəmir yol keçidlərində keçə bilərlər.

II. Sürücü dəmir yol keçidinə yaxınlaşdıqda yol nişanlarını, svetoforları, nişanlama xətlərini, şlaqbaumun vəziyyətini və keçid növbətçisinin göstərişlərini əsas tutmalı, yaxınlaşan qatarın (lokomotivin, drezinanın) olmadığını yəqin etməlidir.

III. Keçidə girmək:

1) Svetoforun siqnalından asılı olmayaraq, şlaqbaum bağlı olduqda və ya bağlanmağa başladıqda;

2) Svetoforun qadağan siqnalı yandıqda (şlaqbaumun vəziyyətindən və mövcudluğundan asılı olmayaraq);

3) Keçid növbətçisi qadağan siqnalı verdikdə (növbətçi əlindəki jezli, qırmızı fənəri və ya bayraqcığı başı üzərində tutaraq və ya qollarını yana açaraq sinəsi, yaxud kürəyi sürücüyə tərəf dayandıqda);

4) Keçiddən o tayda tıxac yarandıqda və bu, sürücünü keçiddə dayanmağa məcbur etdikdə;

5) Keçidə qatar (lokomotiv, drezina) yaxınlaşdıqda (görünmə həddində);

6) Qarşıdan hərəkət zolağına girməklə, keçid qarşısında dayanmış nəqliyyat vasitələrinin yanından keçib getmək qadağandır.Bundan əlavə:

1) Şlaqbaumu özbaşına açmaq;



Şəkil 13. Qeyri-nəqliyyat vəziyyətində olan NV-nin dəmir yol keçidindən keçirilməsi

2) Qeyri-nəqliyyat vəziyyətində olan kənd təsərrüfatı, yol, inşaat və s. maşınları və mexanizmləri dəmir yol keçidindən keçirmək;

3) Dəmir yol stansiyası rəisinin icazəsi olmadan, sürəti saatda 8 kilometrdən aşağı olan nəqliyyat vasitələrinin, habelə traktora qoşulan yük kirşəsinin hərəkəti qadağandır.

IV. Keçiddən hərəkət qadağan olunan hallarda sürücü stop-xəttin, 2.5 nişanın və ya svetoforun yanında, bunlar olmazsa, şlaqbauma azı 5 metr qalmış, şlaqbaum olmadıqda isə birinci relsə azı 10 metr qalmış dayanmalıdır.

V. Sürücü keçiddə məcburi dayandıqda, adamları dərhal nəqliyyat vasitəsindən düşürməli və keçidi boşaltmaq üçün tədbirlər görməlidir. Eyni zamanda sürücü:

1) Yaxınlaşan qatarı saxlamaq üçün maşinistə dayanma siqnalı verməyi imkan daxilində iki adama başa salıb, onları dəmir yol xətti boyunca 1000 metr məsafədə hər iki tərəfə (bir nəfər olduqda isə yolun daha pis görünən tərəfinə) göndərməlidir;
2) Nəqliyyat vasitəsinin yanında qalmalı və ümumi həyəcan siqnalları verməlidir;
3) Qatar görünən kimi, ona tərəf qaça-qaça dayanma siqnalı verməlidir.
Qeyd: Dayanma siqnalı qolun dairəvi hərəkət etdirilməsindən ibarətdir (gündüz parlaq rəngli parça, yaxud yaxşı görünən hər hansı əşya ilə, gecə məşəl və ya fənərlə). Ümumi həyəcan siqnalı bir neçə dəfə, bir uzun və üç qısa səs siqnalı verməkdən ibarətdir.
Yaşayış zonalarında hərəkət:
I. Yaşayış zonası olan ərazidə piyadaların hərəkətinə həm səkilərdə, həm də yolun hərəkət hissəsində icazə verilir. Yaşayış zonasında piyadalara üstünlük verilir, lakin onlar nəqliyyat vasitələrinin hərəkəti üçün əsassız maneə yaratmamalıdırlar.
II. Yaşayış zonasında xüsusi olaraq ayrılmış, işarələrlə göstərilmiş, nişanlanmış yerlərdən kənarda saatda 20 kilometrdən artıq sürətlə hərəkət etmək, sürmə təlimi keçmək, mühərriki söndürmədən durmaq, habelə icazə verilən maksimum kütləsi 3,5 tondan çox olan yük avtomobillərinin durması qadağandır.
III. Sürücülər yaşayış zonasından çıxarkən, hərəkətin digər iştirakçılarına yol verməlidirlər.
IV. Bu maddənin tələbləri həyət ərazilərinə də şamil edilir.

A.4.2 Xarici işıq cihazlarından və səs siqnallarından istifadə qaydaları

I. Təhlükənin və ya hərəkətdə olan maneələrin aradan qaldırılması məqsədilə nəqliyyat vasitələrinin sürücüləri fara işıqlarından, bu və ya digər istiqamətə dönmə işıq göstəricilərindən, səs siqnallarından və ya əl işarəsindən istifadə edirlər.
II. Yuxarıda göstərilən vasitələrlə səs və işıq siqnallarının verilməsi, nəqliyyat vasitələrinin sürücülərini sürəti azaltmaq və yol-nəqliyyat hadisəsinin qarşısını almaq üçün bütün digər zəruri tədbirləri görmək vəzifəsindən azad etmir.
III. Sutkanın qaranlıq vaxtı və ya məhdudiyyətli görünmə şəraitində, habelə tunellərdə hərəkətdə olan nəqliyyat vasitələrində və qoşqularda işıq cihazları və işıq siqnalları aşağıdakı qaydada yandırılmalıdır:
1) Təchizatından asılı olaraq nəqliyyat vasitələrində - faraların yaxın və ya uzaq işıqları və arxa qabarit işıqları, velosipedlərdə - faralar və ya fənərlər, at arabalarında - fənərlər;
2) Qoşqularda və yedəyə alınan nəqliyyat vasitələrində - qabarit işıqları.
IV. Uzaq işıq yaxın işığa:
1) Yaşayış məntəqələrində yol kifayət qədər işıqlandırıldıqda və yaşayış məntəqələrindən kənarda, əgər yolun hərəkət hissəsi yol boyu işıqlanmışdırsa və əgər həmin işıqlandırma sürücüyə kifayət qədər məsafədə görmək imkanı verirsə;
2) Sürücünün gözlərini qamaşdırmamaq məqsədi ilə qarşıdan gələn nəqliyyat vasitəsinə azı 150 metr qalmışsa;
3) Yol hərəkətinin digər iştirakçılarının gözlərini qamaşdıra bilən hər hansı digər hallarda keçirilməlidir. Gözü qamaşdıqda sürücü qəza işıq siqnalını qoşmalı və hərəkət zolağını dəyişmədən sürəti azaltmaqla nəqliyyat vasitəsini dayandırmalıdır;

4) İrəlidə hərəkət edən nəqliyyat vasitəsindən yaxın məsafədə hərəkət etdikdə, ötməzdən əvvəl qısa müddətə faraların uzaq işığını yandırmaqla xəbərdarlıq işıq siqnalı vermək olar.
V. Sutkanın işıqlı vaxtında hərəkət edən nəqliyyat vasitəsini göstərmək məqsədilə aşağıdakı nəqliyyat vasitələrində faranın yaxın işıqları yandırılmalıdır:
1) Motosiklet və mopedlərdə;
2) Uşaq dəstələrini daşıyan avtobus və mikroavtobuslarda;
3) Mütəşəkkil nəqliyyat dəstəsində hərəkət edən nəqliyyat vasitələrində;
4) Digər nəqliyyat vasitələrini yedəyə alan nəqliyyat vasitələrində;
5) Təhlükəli, ağır çəkili və iri qabaritli yük daşıyan nəqliyyat vasitələrində;
6) Xüsusi olaraq ayrılmış zolaqla nəqliyyat vasitələrinin axınına qarşı hərəkət edən ümumi istifadədə olan nəqliyyat vasitələrində.
VI. Duman faralarından aşağıdakı hallarda istifadə oluna bilər:
1) Məhdudiyyətli görünmə şəraitində - həm ayrıca, həm də faranın yaxın və ya uzaq işıqları ilə birlikdə;
2) Sutkanın qaranlıq vaxtı yolun işıqlandırılmamış sahələrində - faraların yaxın və uzaq işıqları ilə birlikdə;
3) Bu Qanunun 73-cü maddəsinin V hissəsində nəzərdə tutulmuş hallarda müvafiq nəqliyyat vasitələrində faranın yaxın işıqlarının əvəzinə.
Qeyd: Duman faralarından aşağıdakı hallarda istifadə oluna bilər:
1) Məhdud görünmə şəraitində - həm ayrıca, həm də faranın yaxın və ya uzaq işıqları ilə birlikdə;
2) Sutkanın qaranlıq vaxtı yolun işıqlandırılmamış sahələrində - faraların yaxın və uzaq işıqları ilə birlikdə.
VI. Sutkanın qaranlıq vaxtı yolun işıqlandırılmayan sahəsində, habelə məhdudiyyətli görünmə şəraitində dayanarkən və durarkən nəqliyyat vasitəsində və avtoqatarda qabarit və ya dayanacaq işıqları yandırılmalıdır. Əgər qabarit işıqları nasazdırsa, nəqliyyat vasitəsi yoldan kənara çıxarılmalı, bu mümkün olmadıqda isə o, qəza dayanma nişanı ilə bu Qanunun tələbinə uyğun işarələnməlidir.
VII. Qatı duman şəraitində, güclü qar və yağış yağanda, yaxud buna uyğun digər şəraitdə, həmçinin faranın yaxın işıqları və ya duman faraları və dumana qarşı fənərlər yandırıla bilər
Qeyd: Yuxarıda göstərilən hallar istisna olmaqla, nəqliyyat vasitələri işıq və səs siqnalları söndürülmüş vəziyyətdə aşağıdakı hallarda duracaqda dayana bilər:
1) İşıqlandırılmış yollarda nəqliyyat vasitəsi kifayət qədər məsafədən aydın göründükdə;
2) Yolun hərəkət hissəsinin kənarından aralı saxlandıqda;
3) Akkumulyatorla təchiz olunmamış motosikletlər yaşayış məntəqəsində yolun hərəkət hissəsinin qırağında saxlandıqda Yaşayış məntəqələrində hərəkət gərginliyi az olan küçələrdə.
VIII. Projektor-faradan və axtarıcı-faradan yalnız yaşayış məntəqələrindən kənarda, qarşıdan nəqliyyat vasitələri gəlmədikdə istifadə etməyə icazə verilir. Yaşayış məntəqələrində belə faralardan yalnız operativ və xüsusi xidmət nəqliyyat vasitələrinin sürücüləri xidməti tapşırığı yerinə yetirərkən istifadə edə bilərlər.

IX. Arxa duman fənərlərindən yalnız məhdudiyyətli görünmə şəraitində istifadə edilə bilər. Arxa duman fənərlərini stop-siqnallara qoşmaq qadağandır.
X. “Avtoqatar” tanınma nişanı avtoqatar hərəkət etdiyi, sutkanın qaranlıq vaxtı və ya məhdudiyyətli görünmə şəraitində isə, həm də dayandığı və ya durduğu müddətdə yanmalıdır.
XI. Səs siqnallarından yalnız aşağıdakı hallarda istifadə oluna bilər:
1) Yaşayış məntəqələrindən kənarda ötmə niyyəti haqqında başqa sürücüləri xəbərdar etmək üçün zəruri olan hallarda;
2) Yol-nəqliyyat hadisəsinin qarşısını almaq üçün.
XII. Ötmə barədə xəbərdarlıq etmək üçün səs siqnalı əvəzinə (və ya onunla birlikdə) işıq siqnalı verilə bilər. Bu işıq siqnalı sutkanın işıqlı vaxtı - faraların işıqlarını qısamüddətli yandırıb-söndürməkdən, sutkanın qaranlıq vaxtı isə faraların yaxın işığını dəfələrlə uzaq işığa keçirməkdən ibarətdir.

Təlim nəticələrinin qiymətləndirilməsi

Nəzəri biliklərin qiymətləndirilməsi

Qiymətləndirmə üsulu	Suallar
1. Test sualları	Sual 1: Sürücü dəmir yol keçidinə yaxınlaşdıqda nələri əsas tutmalıdır? a) Yol nişanlarını b) İşıqforları c) Şlaqbaumun vəziyyətini d) Bütün variantlar doğrudur Sual 2: Verilmiş şəraitdə harada dayanmalısınız? a) Birinci nişanın yanında dayanmaq, qatarın keçməsini gözləmək b) İkinci nişanın yanında dayanmaq, qatarın keçməsini gözləmək c) Birinci relsdən 5 metr məsafədə dayanmaq d) Birinci relsdən 20 m məsafədə dayanmaq Sual 3: Verilmiş şəraitdə harada dayanmalısınız?

a) Şlaqbaumun yanında
b) Şlaqbauma 5 m qalmış məsafədə
c) Şlaqbauma 10 m qalmış məsafədə
d) Hər üç variant qəbul olunandır

Sual 4: Göstərilən situasiyada ötüb keçmək olarmı?

a) Bəli b) Xeyr
c) Bəli, əgər avtobus 30 km/s-dan aşağı sürətlə hərəkət edirsə
d) Qarşıdan NV gəlmirsə

Sul 5: Svetoforun icazə verilən siqnalının yanmasına baxmayaraq, sürücü hərəkətə başlamır, minik avtomobilinin sürücüsü ox ilə göstərilən trayektoriya ilə hərəkəti davam etdirə bilərmi

a) Bəli b) Xeyr
c) Bəli, yaxınlaşmaqda olan qatarın görünmədiyinə əmin olduqdan sonra
d) Sadalanan variantların heç biri düz deyil

	Sual 6: Göstərilən situasiyada minik avtomobilin sürücüsü şlaqbaumun önündə ox ilə göstərilən manevri edərək avtomobili saxlaya bilərmi? a) Bəli b) Xeyr c) Qarşıdakı NV sola dönmə işıq siqnalını qoşmayıbsa d) Dəmir yol keçidi birxətlidirsə Sual 7: Sutkanın qaranlıq vaxtında yaxın işıqlandırma faraları sıradan çıxan sürücü necə davranmalıdır? a) Hərəkəti davam etsin və yaxın işıqlara ehtiyac olanda dumana qarşı faralardan istifadə etsin. b) Hər cür sonrakı hərəkət dayandırılmalıdır. c) Əgər sağ işıq farası işləkdirsə, hərəkəti davam etdirə bilər. d) Heç bir variant düzgün deyil.
2. Düzgün və ya səhv cavabları seçmək	Aşağıdakı cümlələrin əvvəlində boşluğa düzgün (+) və ya səhv (-) olduğunu işarə edin: 1. ( ) Sürücü dəmir yol keçidindən keçmək istədikdə işıqforun qadağan siqnalından asılı olmayaraq, şlaqbaum açıqdırsa, keçidi keçə bilər. 2. ( ) Qarşı hərəkət zolağına çıxmaqla keçid qarşısında dayanmış NV-nin yanından keçib getmək qadağandır. 3. ( ) Dəmir yol stansiyasının rəisinin razılığı ilə sürəti 8 kilometrdən aşağı olan, traktora qoşulmuş yük kirşəsini keçiddən keçirək olar. 4. ( ) Şlaqbaumlu dəmir yol keçidi bağlı olduqda şlaqbaumdan 10 metr aralı dayanmaq lazımdır. 5. ( ) Qatar gəlmədiyi halda şlaqbaumu açaraq keçiddən keçə bilərsiniz. 6. ( ) Sürücülər yaşayış zonasında çıxarkən hərəkətin

	digər iştirakçılarına yol verməlidirlər.
3. Boşluqları doldurmaq	Aşağıdakı cümlələri oxuyun və boşluqlara uyğun gələn sözləri daxil edin. 1. Yaşayış məntəqəsində hər hansı qəzanın qarşısını almaq üçün verilən ..... siqnalı qadağan deyil. 2. Sürücülərin gözlərini qamaşdırmamaq üçün qarşıdan gələn NV-yə azı ..... metr qalmış uzaq işıqdan yaxın işığa keçilməlidir. 3. Məhdudiyyətli görmə şəraitində faranın yaxın və uzaq işıqları ilə birlikdə ..... faraları istifadə edə bilərsiniz. 4. Duman fənərlərini ..... qoşmaq qadağandır. 5. Sutkanın qaranlıq vaxtı qoşqularda və yedəyə alınan NV-də ..... işıqları yandırılmalıdır.

Praktik tapşırıqlar və fəaliyyətlər

Praktik tapşırıq A.4.1 – Dəmir yol keçidlərində hərəkətə dair tapşırıqların yerinə yetirilməsi

İstifadə edilməli resurslar:

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Dəmir yol keçidlərinə dair yol nişanları;
- Təlim stendi;
- Xüsusi təlim meydançası.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Dəmir yol keçidlərində hərəkətə dair tapşırıqların yerinə yetirilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Dəmir yol keçidlərində hərəkətə dair tapşırıqların yerinə yetirilməsini təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, tapşırığın tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar	➢ Dəmir yol keçidlərində hərəkətə dair qaydaları şifahi söyləyirsiniz. ➢ Siz dəmir yol keçidinə yaxınlaşdıqda yol nişanlarını, işıqforları, nişanlama xətlərini, şlaqbaumun vəziyyətini və keçid növbətçisinin göstərişlərini əsas

	tutmalı, yaxınlaşan qatarın, lokomotivin, drezinanın olmadığını yəqin edirsiniz. ➢ Dəmir yolu ancaq təyin olunmuş dəmir yol keçidlərindən keçirsiniz.
	➢ Keçidə giriş qadağandırsa, şlaqbaumdan 5 m aralı dayanıb keçidin açılmağını gözləyirsiniz.
	➢ Şlaqbaumsuz dəmir yol keçididirsə, birinci relsdən 10 m aralı dayanırsınız. ➢ İşıqfor quraşdırılıbsa, işıqforun yanında dayanıb keçidin açılmağını gözləyirsiniz.
	➢ STOP nişanı quraşdırılıbsa, nişanın yanında, STOP xətti çəkilibsə, xəttin yanında dayanıb keçidin açılmağını gözləyirsiniz. ➢ İşıqforun siqnalından asılı olmayaraq, şlaqbaum bağlıdırsa və ya bağlanmaya başlayırsa, keçidə girmirsiniz. ➢ İşıqforun qadağan siqnalı yandıqda şlaqbaumun vəziyyətindən və mövcudluğundan asılı olmayaraq keçidə girmirsiniz.
	➢ Keçid növbətçisi qadağan siqnalı verdikdə keçidə girmirsiniz.
	➢ Keçiddən o tayda tıxac yarandıqda və bu, sizi keçiddə dayanmağa məcbur edəcəksə, keçidə girmirsiniz.
	➢ Qarşıdan hərəkət zolağına girməklə, keçid qarşısında dayanmış NV-nin yanından keçib getmirsiniz. ➢ Qeyri-nəqliyyat vəziyyətində olan kənd təsərrüfatı maşınlarını dəmir yol keçidindən keçirmirsiniz.

Diqqət edilməli məqamlar!!!	➢ Keçid növbətçisinin qadağan siqnallarına diqqət etməlisiniz: növbətçi əlindəki jelzi, qırmızı fənəri və ya bayraqcığı başı üzərində tutaraq və ya qollarını yana açaraq sinəsi, yaxud kürəyi sizə tərəf dayanıbsa, keçidə girə bilməzsiniz.

Praktik tapşırıq A.4.2 – Dəmir yol keçidində sürücü məcburi dayandıqda atacağı addımlara dair tapşırıqların yerinə yetirilməsi

İstifadə edilməli resurslar:

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Dəmir yol keçidlərinə dair yol nişanları;
- Təlim stendi;
- Xüsusi təlim meydançası.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Dəmir yol keçidlərində hərəkətə dair tapşırıqların yerinə yetirilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Dəmir yol keçidlərində hərəkətə dair tapşırıqların yerinə yetirilməsini təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, tapşırığın tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar	➢ Dəmir yol keçidlərində hərəkətə dair tapşırıqların yerinə yetirilməsi qaydalarını şifahi söyləyirsiniz. ➢ Siz keçiddə məcburi dayanmısınızsa, NV-dəki adamları dərhal düşürürsünüz. ➢ Keçidi boşaltma üçün tədbirlər görürsünüz. ➢ Yaxınlaşan qatarı saxlamaq üçün maşinistə dayanma siqnalı verməyi başa salıb, imkan daxilində yanınızda iki nəfər varsa, onları dəmir yol xətti boyunca 1000 metr məsafədə hər iki tərəfə göndərirsiniz. ➢ Bir nəfər olduqda yolun pis görünən tərəfinə göndərirsiniz. ➢ Özünüz NV-nin yanında qalırsınız, ümumi həyəcan siqnalları (bir neçə dəfə, bir uzun və üç qısa səs siqnalı) verirsiniz. ➢ Qatar görünən kimi ona tərəf qaça-qaça dayanma siqnalı verirsiniz.

Diqqət edilməli məqamlar!!! 	➢ Dayanma siqnalı qolun dairəvi hərəkət etdirilməsindən ibarətdir. Dayanma siqnalı gündüz vaxtı rəngli parça, yaxud yaxşı görünən hər hansı bir əşya ilə, gecə məşəl və ya fənərlə verilməlidir. Bu iki amili diqqətdə saxlayın.

Praktik tapşırıq A.4.3 – Yaşayış zonalarında hərəkətə dair tapşırıqların yerinə yetirilməsi

İstifadə edilməli resurslar:

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Yaşayış zonalarına dair yol nişanları;
- Təlim stendi;
- Xüsusi təlim meydançası.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Yaşayış zonalarında hərəkətə dair tapşırıqların yerinə yetirilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Yaşayış zonalarında hərəkətə dair tapşırıqların yerinə yetirilməsini təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, tapşırığın tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar	➢ Yaşayış zonalarında hərəkətə dair qaydaları şifahi söyləyirsiniz. ➢ Yaşayış zonalarında hərəkət edərkən əsas amili - piyadaların həm səkilərdə, həm də yolun hərəkət hissəsində hərəkət etmələrinə icazə verilməsini və onların üstünlüyə malik olmasını nəzərə almalısınız ➢ Yaşayış zonasında hərəkətdə olarkən saatda 20 kilometrdən artıq sürətlə hərəkət etmirsiniz, qaydalarla qadağandır.

	➢ Durmaq istədikdə mühərriki söndürün. ➢ Yaşayış zonasından çıxarkən hərəkətin digər iştirakçılarına yol verirsiniz. ➢ Həyət ərazilərində hərəkət edərkən yaşayış zonasına aid olan qaydalara həyət ərazilərində də əməl edirsiniz.
Diqqət edilməli məqamlar!!!	➢ Piyadalar sizə əsassız olaraq maneə yaratmamalıdırlar.

Praktik tapşırıq A.4.4 – Xarici işıq cihazlarından istifadəyə dair tapşırıqların yerinə yetirilməsi

İstifadə edilməli resurslar:

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- İşıq cihazları;
- Təlim stendi;
- Xüsusi təlim meydançası.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Xarici işıq cihazlarından istifadəyə dair tapşırıqların yerinə yetirilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Xarici işıq cihazlarından istifadəyə aid tapşırıqların yerinə yetirilməsinə dair təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, tapşırığın tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar	➢ Xarici işıq cihazlarından istifadəyə dair qaydaları şifahi söyləyirsiniz. ➢ Təhlükənin və ya hərəkətdə olan maneələrin aradan qaldırılması məqsədilə siz fara işıqlarından, bu və ya digər istiqamətlərə dönərkən dönmə göstəricilərindən, səs siqnalından istifadə edəcəksiniz. ➢ *Sutkanın qaranlıq vaxtı və ya məhdudiyyətli görünmə şəraitində, habelə tunellərdə hərəkətdə olarkən NV-də və onun qoşqularında işıq cihazlarını və işıq siqnallarını aşağıdakı qaydada yandıracaqsınız:*

	Faranın yaxın və ya uzaq işıqlarını və arxa qabarit işıqlarını yandırırsınız; Qoşqularda və yedəyə alınan NV-də qabarit işıqları qoşursunuz. ➢ Uzaq *işıqdan yaxın işığa aşağıdakı hallarda keçirsiniz:* Yaşayış məntəqələrində yol kifayət qədər işıqlandırıldıqda və yaşayış məntəqələrindən kənarda yolun hərəkət hissəsi yol boyu işıqlandırılmışdırsa; Qarşıdan gələn sürücünün gözlərini qamaşdırmamaq üçün NV-yə azı 150 metr qalmış; İrəlidə hərəkət edən NV-dən yaxın məsafədə hərəkət etdikdə, ötməzdən qabaq bir neçə dəfə qısa müddətə faraların uzaq işıqlarını yandırmaqla xəbərdar edirsiniz. ➢ *Traktorda hərəkətdə olarkən sutkanın işıqlı vaxtında hərəkət edən NV-ni göstərmək məqsədilə yaxın işıqları yandırırsınız:* Digər NV-ni yedəyə aldıqda; Ağır çəkili və təhlükəli yük daşıdıqda; Mütəşəkkil dəstədə hərəkət etdikdə.
Diqqət edilməli məqamlar	➢ Yol hərəkətinin digər iştirakçılarının gözlərini qamaşdıra bilən hər hansı digər hallarda uzaq işıqdan yaxın işığa keçməyi diqqətdə saxlayın.
Praktik işə dair fotoillüstrasiya	

Praktik tapşırıq A.4.5 – *Duman faralarından və səs siqnallarından istifadəyə dair tapşırıqların yerinə yetirilməsi*

İstifadə edilməli resurslar:

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Duman faraları və səs siqnalı;
- Təlim stendi;
- Xüsusi təlim meydançası.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Duman faralarında və səs siqnallarında istifadəyə dair tapşırıqların yerinə yetirilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Duman faralarından və səs siqnallarından istifadəyə aid tapşırıqların yerinə yetirilməsinə dair təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, tapşırığın tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar 	➢ Duman faralarından və səs siqnallarından istifadə qaydalarını şifahi söyləyirsiniz. ➢ *Duman faralarından aşağıdakı hallarda istifadə edirsiniz:* Məhdudiyyətli görünmə şəraitində - həm ayrıca, həm də faranın yaxın və ya uzaq işıqları ilə birlikdə istifadə edirsiniz; Sutkanın qaranlıq vaxtı yolun işıqlandırılmamış sahələrində - faraların yaxın və ya uzaq işıqları ilə birlikdə istifadə edirsiniz; Digər NV-ni yedəyə aldıqda və ağır çəkili və təhlükəli yük daşıdıqda faranın yaxın işıqlarının əvəzinə duman faralarını yandırırsınız; Qatı duman şəraitində, güclü qar və yağış yağanda duman faralarını işə qoşursunuz. ➢ Arxa duman faralardan ancaq məhdudiyyətli görünmə şəraitində istifadə edirsiniz. ➢ Səs siqnalından yaşayış məntəqələrindən kənarda ötməni bildirmək üçün zəruri olan hallarda və yaşayış məntəqələrində baş verə biləcək hər hansı bir qəzanın qarşısını almaq üçün istifadə edirsiniz. ➢ Ötməni bildirmək üçün səs siqnalı əvəzinə işıq siqnalı verə bilərsiniz. ➢ Projektor-faradan yalnız yaşayış

	məntəqəsindən kənarda, qarşıdan NV gəlmədikdə istifadə edirsiniz (bu, məcburi deyil).
Diqqət edilməli məqamlar	➢ Projektor-faradan istifadənin mütləq olmadığını diqqətdə saxlayın.

Qiymətləndirmə çərçivəsi

Praktik tapşırıq A.4.1 – Dəmir yol keçidlərində hərəkətə dair tapşırıqların yerinə yetirilməsi

Qiymətləndirmə ölçüsü	**Bəli**	**Xeyr**
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4. Siz dəmir yol keçidinə yaxınlaşdıqda yol nişanlarını, işıqforları, nişanlama xətlərini, şlaqbaumun vəziyyətini və keçid növbətçisinin göstərişlərini əsas tutdunuzmu?		
5. Keçidə yaxınlaşan qatarın, lokomotivin, drezinanın olmadığını yəqin etdinizmi?		
6. Keçidə giriş qadağan olduğu halda, şlaqbaumdan 5 m aralı dayanıb keçidin açılmağını gözlədinizmi?		
7. Şlaqbaumsuz dəmir yol keçidində dayanarkən birinci relsdən 10 metr aralı dayandınızmı?		
8. STOP nişanı quraşdırılıbsa, nişanın yanında, STOP xətti çəkilibsə, xəttin yanında dayanıb keçidin açılmağını gözlədinizmi?		
9. İşıqforun siqnalından asılı olmayaraq şlaqbaum bağlı olduqda və ya bağlanmağa başladıqda keçidə girdinizmi?		
10. İşıqforun qadağan siqnalı yandıqda şlaqbaumun vəziyyətindən və mövcudluğundan asılı olmayaraq keçidə girirsinizmi?		
11. Keçid növbətçisi qadağan siqnalı verdikdə keçidə girdinizmi?		
12. Keçiddən o tayda tıxac yarandıqda və bu, sizi keçiddə dayanmağa məcbur edəcəksə, keçidə girdinizmi?		
13. Qarşıdan hərəkət zolağına girməklə keçid qarşısında dayanmış NV-nin yanından keçib getdinizmi?		
14. Qeyri-nəqliyyat vəziyyətində olan kənd təsərrüfatı maşınlarını dəmir yol keçidindən keçirdinizmi?		

Praktik tapşırıq A.4.2 – Dəmir yol keçidində sürücü məcburi dayandıqda atacağı addımlara dair tapşırıqların yerinə yetirilməsi

Qiymətləndirmə ölçüsü	Bəli	Xeyr
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4. Dəmir yol keçidlərində hərəkətə dair qaydaları şifahi söylədinizmi?		
5. Siz keçiddə məcburi dayandıqda NV-dəki adamları dərhal düşürdünüzmü?		
6. Keçidi boşaltmaq üçün tədbirlər görürdünüzmü?		
7. Yaxınlaşan qatarı saxlamaq üçün maşinistə dayanma siqnalı vermək üçün iki nəfəri başa salıb, onları dəmir yol xətti boyunca 1000 metr məsafədə hər iki tərəfə göndərdinizmi?		
8.Yanınızda iki deyil, bir nəfər vardısa, onu yolun pis görünən tərəfinə göndərdinizmi?		
9. Özünüz NV-nin yanında qalaraq ümumi həyəcan siqnalları (bir neçə dəfə, bir uzun və üç qısa səs siqnalı) verdinizmi?		
10. Qatar görünən kimi ona tərəf qaça-qaça dayanma siqnalı verdinizmi?		

Praktik tapşırıq A.4.3 – *Yaşayış zonalarında hərəkətə dair tapşırıqların yerinə yetirilməsi*

Qiymətləndirmə ölçüsü	Bəli	Xeyr
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4. Yaşayış zonalarında hərəkətə dair qaydaları şifahi söylədinizmi?		
5. Yaşayış zonalarında hərəkətə dair qaydaları şifahi söylədinizmi?		
6. Yaşayış zonalarında hərəkət edərkən əsas amili - piyadaların həm səkilərdə, həm də yolun hərəkət hissəsində hərəkət üstünlüyünə malik olmalarını nəzərə aldınızmı?		
7. Yaşayış zonasında hərəkətdə olarkən saatda 20 kilometrdən artıq sürətlə hərəkət etdinizmi?		
8. Durmaq istədikdə mühərriki söndürdünüzmü?		
9. Yaşayış zonasından çıxarkən hərəkətin digər iştirakçılarına yol verdinizmi?		

Praktik tapşırıq A.4.4 – *Xarici işıq cihazlarından istifadəyə dair tapşırıqların yerinə yetirilməsi*

Qiymətləndirmə ölçüsü	Bəli	Xeyr
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		

4. Xarici işıq cihazlarından istifadəyə dair qaydaları şifahi söylədinizmi?		
5. Sutkanın qaranlıq vaxtı və ya məhdudiyyətli görünmə şəraitində, habelə tunellərdə hərəkətdə olarkən NV-də və onun qoşqularında faranın yaxın və ya uzaq işıqlarını və arxa qabarit işıqlarını yandırdınızmı?		
6. Sutkanın qaranlıq vaxtı və ya məhdudiyyətli görünmə şəraitində, habelə tunellərdə hərəkətdə olarkən qoşqularda və yedəyə alınan NV-də qabarit işıqları qoşdunuzmu?		
7. Yaşayış məntəqələrində yol kifayət qədər işıqlandırıldıqda və yaşayış məntəqələrindən kənarda yolun hərəkət hissəsi yol boyu işıqlandırılmışdırsa, uzaq işıqdan yaxın işığa keçdinizmi?		
8. Qarşıdan gələn sürücünün gözlərini qamaşdırmamaq üçün NV-yə azı 150 metr qalmış uzaq işıqdan yaxın işığa keçdinizmi?		
9. İrəlidə hərəkət edən NV-dən yaxın məsafədə hərəkət etdikdə, ötməzdən qabaq bir neçə dəfə qısa müddətə faraların uzaq işıqlarını yandırmaqla xəbərdar etdinizmi?		
10. Traktorda digər NV-ni yedəyə almaqla hərəkətdə olarkən sutkanın işıqlı vaxtında NV-ni göstərmək məqsədilə yaxın işıqları yandırdınızmı?		
11. Traktorda ağır çəkili və təhlükəli yük daşıdıqda sutkanın işıqlı vaxtında NV-ni göstərmək məqsədilə yaxın işıqları yandırdınızmı?		
12. Traktorda sutkanın işıqlı vaxtında mütəşəkkil dəstədə hərəkət etdikdə NV-ni göstərmək məqsədilə yaxın işıqları yandırdınızmı?		

Praktik tapşırıq A.4.5 – *Duman faralarından və səs siqnallarından istifadəyə dair tapşırıqların yerinə yetirilməsi*

Qiymətləndirmə ölçüsü	**Bəli**	**Xeyr**
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4. Duman faralarından və səs siqnallarından istifadə qaydalarını şifahi söylədinizmi?		
5. Duman faralarından məhdudiyyətli görünmə şəraitində- həm ayrıca, həm də faranın yaxın və ya uzaq işıqları ilə birlikdə istifadə etdinizmi?		
6. Duman faralarından sutkanın qaranlıq vaxtı yolun işıqlandırılmamış həm ayrıca, həm də faranın yaxın və ya uzaq işıqları ilə birlikdə istifadə etdinizmi?		

7. Digər NV-ni yedəyə aldıqda və ağır çəkili və təhlükəli yük daşıdıqda faranın yaxın işıqlarının əvəzinə yaxın işıqların əvəzinə duman faralarını yandırdınızmı?		
8. Qatı duman şəraitində, güclü qar və yağış yağanda duman faralarını işə qoşdunuzmu?		
9. Arxa duman faralarından ancaq məhdudiyyətli görünmə şəraitində istifadə etdinizmi?		
10. Yaşayış məntəqələrindən kənarda ötməni bildirmək üçün zəruri olan hallarda və yaşayış məntəqələrində baş verə biləcək hər hansı bir qəzanın qarşısını almaq üçün səs siqnalından istifadə etdinizmi?		
11. Ötməni bildirmək üçün səs siqnalı əvəzinə işıq siqnalından istifadə etdinizmi?		
12. Projektor-faradan yalnız yaşayış məntəqəsindən kənarda, qarşıdan NV gəlmədikdə istifadə etdinizmi?		

A.5 Yedəyə alma qaydaları, istismarı qadağan edən nasazlıqlar və şəraitlər

A.5.1 Yedəyə alma qaydaları

- Nəqliyyat vasitəsi xarab olduqda, sürücü onu yolun hərəkət hissəsindən kənara çəkməli, bu mümkün olmadıqda səkinin bordürünün (hərəkət hissəsilə bir səviyyədə və ya ondan hündür olan yol örtüyünün konstruktiv yan məhdudiyyəti) yanına, yaxud yolun çiyininə çəkməli və bu zaman onu hərəkət hissəsinin kənarına paralel qoymalı, texniki yardım xidmətinə məlumat verməlidir.

Dayanmanın qadağan edildiyi yerdə nəqliyyat vasitəsi məcburi dayandıqda və ya hərəkət hissəsində onun olması yol hərəkətinin digər iştirakçılarına maneə yaradırsa, sürücü qəza dayanması işıq siqnalını yandırmalı və ya qəza dayanması nişanını quraşdırmalıdır.

- Qəza dayanma nişanı nəqliyyat vasitəsinin arxa tərəfində, zərurət olduqda isə, həm də qabaq tərəfində, həmin zolaqda, nəqliyyat vasitəsindən ən azı 30 metr məsafədə elə quraşdırılır ki, yaxınlaşmaqda olan nəqliyyat vasitələrinin sürücüləri onu kifayət qədər məsafədən görə bilsinlər. Yaşayış məntəqələrində hərəkət intensiv olduqda, qəza dayanma nişanı daha yaxın məsafədə və ya bilavasitə nəqliyyat vasitəsinin üstündə elə qoyula bilər ki, yaxınlaşmaqda olan nəqliyyat vasitələrinin sürücüləri onu görə bilsin.

- Əgər nəqliyyat vasitəsi qəza işıq siqnalı ilə təchiz edilməmişdirsə və ya bu siqnal saz deyildirsə, sürücü gecə vaxtı və ya məhdudiyyətli görünmə şəraitində yanıb-sönən qırmızı işıqlı portativ fənərdən istifadə edə bilər. Həmin fənər bu maddənin üçüncü hissəsinin tələblərinə uyğun quraşdırılır.

Nəqliyyat vasitələri aşağıdakı qaydalara əməl edilməklə yedəyə alınır:

1) Yedəyə alan nəqliyyat vasitəsinin sükanı arxasında azı bir il sürücülük təcrübəsi olan sürücü əyləşməlidir;

2) Yedəyə alınan nəqliyyat vasitəsinin sükanı arxasında sürücü və ya müvafiq kateqoriyalı sürücülük vəsiqəsi olan başqa şəxs əyləşməlidir;

3) Yedəyə alan nəqliyyat vasitəsinin sürücüsü hərəkətə başladıqda, gündüz vaxtı yaxın işıq faralarını yandırmalıdır;
4) Yedəyə alınan nəqliyyat vasitəsinin sürücüsü yedəyə alan nəqliyyat vasitəsi sürücüsünün siqnallarına uyğun siqnallar verməlidir;
5) Nəqliyyat vasitəsi öz kütləsindən artıq olan nəqliyyat vasitəsini yedəyə almamalıdır;
6) Tormozu və sükanı nasaz olan nəqliyyat vasitələrinin yedəyə alınması onların tam və ya qismən yüklənməsi yolu ilə həyata keçirilməlidir;
7) Birləşdirici hissə sərt yedəyə almada nəqliyyat vasitələri arasında ən çoxu 4 metr, elastik yedəyə almada isə 4 metrdən 6 metrə qədər məsafə qalmasını təmin etməlidir. Elastik yedəyə alma zamanı birləşdirici hissəsinin hər metri uyğun olaraq siqnal lövhəcikləri və ya bayraqcıqları ilə işarələnir.
Təkərli traktorlarla aşağıdakı hallarda yedəyə alma qadağan edilir:
1) Buzlu yol şəraitində;
2) Yedəyə almadan sonra ümumi nəqliyyat qatarının uzunluğu 24 metrdən artıq olduqda;
4) Birdən artıq nəqliyyat vasitəsini.

A.5.2 İstismarı qadağan edən nasazlıqlar və şəraitlər

I. Tormoz sistemləri

1) Yolda sınaqlar zamanı iş tormoz sistemi aşağıdakı tormozlama səmərəlilik normalarını təmin etmədikdə;
2) Hidravlik tormoz ötürücüsünün hermetikliyi pozulduqda;
3) Pnevmatik və pnevmohidravlik tormoz ötürücülərində hermetikliyin pozulması mühərrik işləməyərkən tormoz sistemini idarəetmə orqanları tam qoşulmuş halda olduqda - 15 dəqiqə ərzində havanın təzyiqinin 0,05 MPa (0,5 kq-q/sm2) aşağı düşməsinə səbəb olursa;
4) Pnevmatik və ya pnevmohidravlik tormoz ötürücülərinin manometri işləmədikdə;
5) Duracaq tormoz sistemi nəqliyyat vasitələrinin tərpənməz vəziyyətini texniki normalara uyğun təmin etmədikdə.

II. Sükan idarə mexanizmi

1) Təkərli traktorların sükan idarə mexanizmində lüftün cəmi istehsalçı müəssisənin bu maşın üçün müəyyən etdiyi hədd qiymətlərindən çox olduqda;
2) Detal və qovşaqların konstruksiyada nəzərdə tutulmayan yerdəyişməsinə yol verildikdə; yivli birləşmələr müəyyənləşdirilmiş üsulla burulub bağlanmadıqda və ya bərkidilmədikdə;
3) Konstruksiyada nəzərdə tutulmuş sükan idarə gücləndiricisi nasaz olduqda və ya ümumiyyətlə olmadıqda istismarı qadağan edilir.
4) Tırtıllı hərəkət hissəli traktorlarda idarə dəstəklərinin muftasının sərbəst gedişi istehsalçı müəssisənin bu maşın üçün müəyyən etdiyi normadan artıq olduqda, istismar qadağandır.
5) Dəstəyi özünüzə tərəf çəkdikdə baraban tam tormozlanmadıqda, istismar qadağan edilir.
6) Tormoz pedallarının sərbəst gedişlərinin ölçüləri müxtəlif olduqda və ya bu maşın üçün istehsalçı müəssisənin müəyyən etdiyi normadan artıq olduqda, istismar qadağan edilir.

III. Xarici işıq cihazları

1) Xarici işıq cihazlarının miqdarı, tipi, rəngi, yerləşməsi və iş rejimi nəqliyyat vasitəsi konstruksiyasının tələblərinə uyğun olmadıqda (Qeyd: İstehsaldan çıxarılmış nəqliyyat vasitələrində başqa marka və modeldən olan nəqliyyat vasitələrinin xarici işıq cihazlarının qurulmasına yol verilir);

2) Faraların nizamlanması dövlət standartlarının tələblərinə uyğun olmadıqda;

3) Xarici işıq cihazları və işıqqaytarıcılar müəyyənləşdirilmiş rejimdə işləmədikdə və ya çirklənmiş olduqda;

4) İşıq cihazlarında işıqyayıcılar olmadıqda və ya həmin işıq cihazının tipinə uyğun olmayan yayıcılardan istifadə edildikdə;

5) Sayrışan işıqlar standartın tələblərinə uyğun qurulmadıqda;

6) Geriyə hərəkət fənərləri və dövlət qeydiyyat nişanının, işıqqaytarıcı qeydiyyat, fərqləndirici və tanınma nişanlarının işıqlandırılması istisna edilməklə, nəqliyyat vasitəsinin qabağında qırmızı rəngli, arxasında isə ağ rəngli işıq cihazları və ya işıqqaytarıcılar qurulduqda nasazlıq aradan qaldırılır.

IV. Qabaq şüşənin şüşə silgəcləri və şüşəyuyanları

1) Şüşə silgəcləri müəyyən edilmiş rejimdə işləmədikdə;

2) Nəqliyyat vasitəsinin konstruksiyasında nəzərdə tutulmuş şüşəyuyanlar işləmədikdə nasazlıq aradan qaldırılır.

V. Təkərlər və şinlər

1) Təkərli traktorların şinlərinin protektorunun qalmış qalınlığı aparan təkərlərdə 5 mm-dən, idarə olunan təkərlərdə isə 2 mm-dən, qoşqularında isə 1 mm-dən az olmamalıdır.

2) Şinlərdə kordun çılpaqlaşması, habelə karkasın təbəqələrə ayrılması, protektorun və şinin yan rejiminin qopması kimi yerli zədələr (yarıq, kəsik, qırıq) olduqda;

3) Bərkitmə boltu olmadıqda və ya təkərlərin diskində və çənbərlərində çatlar olduqda;

4) Şinlər ölçüsünə və ya yükgötürmə qabiliyyətinə görə nəqliyyat vasitəsinin modelinə uyğun gəlmədikdə;

5) Traktorun və ya onun qoşqusunun bir oxuna radial şinlə birlikdə diaqonal şin və ya protektoru müxtəlif naxışlı şinlər geydirildikdə;

6) Sol və sağ təkərlərin təzyiq fərqləri 0,1 kq-q/sm^2 –dən artıq olduqda;

7) Tırtıllı hərəkət hissəsinin tırtıl zəncirinin sallanması 35-65 mm-dən artıq olduqda;

8) Tırtıl başmağının yerlə ilişməsinin qalmış hündürlüyü 7 mm-dən az olduqda;

9) Sol və sağ tırtıl başmaqlarının sayı eyni olmadıqda;

10) Tırtıl başmaqlarında çatlama və qırılma olduqda.

VI. Mühərrik

1) İşlənmiş qazlarda zərərli maddələrin miqdarı və onların tüstülənməsi dövlət standartlarında müəyyən edilmiş kəmiyyətlərdən çox olduqda;

2) Yanacaq sisteminin hermetikliyi pozulduqda;

3) İşlənmiş qazları xaricetmə sistemi saz olmadıqda nasazlıq aradan qaldırılır;

4) Təkərli traktorlardan çıxan səsin səviyyəsi 7 metr məsafədə 85 desibeldən artıq olduqda.

VII. Konstruksiyanın digər ünsürləri

1) Nəqliyyat vasitəsinin konstruksiyasında nəzərdə tutulmuş arxanı göstərən güzgü, şüşə olmadıqda;
2) Səs siqnalı işləmədikdə (səs siqnalından çıxan səsin səviyyəsi traktorun işləyərkən onun xarici səsinin səviyyəsindən 8 desibel artıq olmalıdır);
3) Sürücünün görünüş dairəsini məhdudlaşdıran, şüşənin şəffaflığını korlayan, yol hərəkəti iştirakçılarını zədələmək, təhlükəsi yaradan əlavə əşyalar qoyulduqda və ya şüşələrə hər hansı formada və ölçüdə örtüklər (pərdə və plyonka) çəkildikdə;
4) Konstruksiyada nəzərdə tutulmuş kuzov və ya kabinə qapılarının qıfılları, yük platforması bortlarının cəftələri, sistern boğazının və yanacaq bakı tıxacının cəftələri, sürücünün oturacağının vəziyyətini nizamlayan mexanizm, qəza çıxış yerləri və onları hərəkətə gətirən qurğular, qapıları idarə edən ötürücü, spidometr, taxoqraf, ilin mövsümi şəraitlərindən asılı olaraq şüşəqızdıran və havaüfürən işləmədikdə;
5) Konstruksiyada nəzərdə tutulmuş arxa mühafizə qurğusu, palçıqdan qoruyan fartuklar və brızqoviklər olmadıqda;
6) Yedəkçinin və qoşquların ilişmə-dartı və ilişmə-dayaq qurğuları nasaz olduqda, habelə onların konstruksiyalarında nəzərdə tutulmuş sığorta trosları (zəncirlər) olmadıqda və ya nasaz olduqda;
7) təkərli traktorda - dərman qutusu, odsöndürən, qəza dayanma nişanı (yanıb-sönən qırmızı fənər);
8) Nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanının standartın tələblərinə cavab vermədikdə;
9) Tormoz sistemlərinin, sükan idarəsinin, digər qovşaq və aqreqatların müəyyənləşdirilmiş tələblərə uyğun gələn əlavə elementləri konstruksiyada nəzərdə tutulduğu halda, qurulmadıqda nasazlıq aradan qaldırılır;
10) Hidravlik sistemin birləşmə yerlərində maye axması və sızması olduqda;
11) Kabinənin, mühərrikin, sükan kolonkasının, kompressorun, işə salıcı mühərrikin, üzlüklərin bərkidilmə yerlərinin boşalması olduqda;
12) Dartı qüvvəsi 3 t olan traktorlarda diyirlənməyə qarşı dayaqlar ikidən az olduqda;
13) Dövlət qeydiyyat nişanı olmadıqda və ya yararsız olduqda;
14) Qoşqu ilə işləyən təkərli traktorlarda “Avtoqatar” tanınma nişanı olmadıqda istismar qadağan edilir.

Təlim nəticələrinin qiymətləndirilməsi

Nəzəri biliklərin qiymətləndirilməsi

Qiymətləndirmə üsulu	Suallar
1. Test sualları	Sual 1: Yağmur kəsdikdən sonra şüşə təmizləyən sıradan çıxıbsa, sürücü necə davranmalıdır? a) Hər cür sonrakı hərəkəti dayandırmalıdır. b) Duracaq yerinə və ya təmir məntəqəsinə qədər xüsusi ehtiyatla hərəkət edə bilər. c) Nəzərdə tutduğu marşrut üzrə hərəkəti davam etdirə bilər.

	d) Heç bir variant düzgün deyil. Sual 2: Yol buz bağladığı halda elastik və ya sərt yedəyə almağa icazə verilirmi? a) İcazə verilmir. b) Sərt birləşdirici ilə icazə verilir. c) Elastik yedəyə almada icazə verilir. d) Yedəyə alan nəqliyyat vasitəsinin çəkisi alınandan artıq olarsa, icazə verilir. Sual 3: Sadalanan nasazlıqlardan hansı baş verdikdə nəqliyyat vasitəsinin sonrakı istismarı qadağandır? a) İşıqlandırma faraları düzgün nizamlanmayıb. b) İşıqlandırma sistemində olan cihazların işlərində ardıcıllıq pozulub. c) Ancaq A variantı düzgündür. d) A və B variantları düzgündür. Sual 4: Şüşəqızdıran və ya hava üfürən nasaz olduqda avtomobilin istismarına icazə verilirmi? a) Verilir. b) Verilmir. c) İlin mövsümi şəraitindən asılıdır. d) Düzgün variant göstərilməyib. Sual 5: Konstruksiyada nəzərdə tutulan palçıqatanlar olmadıqda avtomobilin istismarına icazə verilirmi? a) İcazə verilir. b) İcazə verilmir. c) Hava şəraitindən asılı olaraq icazə verilir. d) Düzgün variant göstərilməyib. Sual 6: Mühərrikdə hansı nasazlıqlar baş verdikdə onun istismarı qadağandır? a) İşlənmiş qazlardakı zərərli maddələrin miqdarı normadan çox olduqda b) Yanacaq sisteminin hermetikliyi pozulduqda c) Səsboğan nasaz olduqda d) A və B variantları düzgündür Sual 7: Pnevmatik ötürücülü tormoz sistemində hansı nasazlıq baş verdikdə istismar qadağandır?

	a) Manometr işləmədikdə b) Tormoz pedalının sərbəst gedişi normadan artıq olduqda c) Tormoz pedalının üzərindəki rezin örtük yeyiləndə d) Sadalanan bütün hallarda
2. Düzgün və ya səhv cavabları seçmək	Aşağıdakı cümlələrin əvvəlində boşluğa düzgün (+) və ya səhv (-) olduğunu işarə edin: 1.( ) Pnevmatik və ya pnevmohidravlik tormoz ötürücülərinin manometri işləmədikdə istismara icazə verilir. 2. ( ) Birdən artıq nəqliyyat vasitəsini sərt yedəyə almaqla yedəyə almaq olar. 3. ( ) Təkərli traktorda dərman qutusunun, odsöndürənin, qəza dayanma nişanının olması mütləqdir. 4. ( ) Traktorlarda dövlət qeydiyyat nişanı olmadıqda və ya yararsız olduqda istismara icazə verilmir. 5. ( ) Nəqliyyat vasitəsinin konstruksiyasında nəzərdə tutulmuş şüşəyuyanlar işləmədikdə istismar dayandırılır 6. ( ) Nəqliyyat vasitəsi öz kütləsindən artıq olan nəqliyyat vasitəsini yedəyə almamalıdır. 7. ( ) Səs siqnalı işləmədikdə istismar qadağandır.
3. Boşluqları doldurmaq	Aşağıdakı cümlələri oxuyun və boşluqlara uyğun gələn sözləri daxil edin: 1.Qəza dayanma nişanı nəqliyyat vasitəsinin arxa tərəfində nəqliyyat vasitəsindən ən azı ..... metr məsafədə quraşdırılır. 2. NV sıradan çıxdıqda sürücü onu yolun ..... hissəsinin kənarına çəkməlidir. 3. Dayanmanın qadağan edildiyi yerdə NV məcburi dayandıqda sürücü.....dayanma nişanı quraşdırmalıdır. 4. Yaşayış ..... hərəkət intensiv olduqda qəza dayanma nişanı daha yaxın məsafədə qoyulur. 5.Yedəyə alınan NV-nin sükanı arxasında sürücü və ya müvafiq ..... sürücülük vəsiqəsi olan şəxs əyləşməlidir. 6. Təkərli traktorların sükan idarə mexanizmində ..... cəmi istehsalçı müəssisənin bu maşın üçün müəyyən etdiyi normadan artıq olmamalıdır. 7. Dartı qüvvəsi 3 t olan traktorlarda ikidən az olmayan ..... qarşı dayaqlar olmalıdır.

Praktik tapşırıqlar və fəaliyyətlər

Praktik tapşırıq A.5.1 *– NV-si hərəkətdə olarkən xarab olduqda sürücünün etməli olduğu tapşırıqların yerinə yetirilməsi*

İstifadə edilməli resurslar:

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Xüsusi təlim meydançası;
- Traktor.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
NV-si hərəkətdə olarkən xarab olduqda sürücünün etməli olduğu tapşırıqların yerinə yetirilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ NV-si hərəkətdə olarkən xarab olduqda sürücünün etməli olduğu tapşırıqların yerinə yetirilməsinə dair tapşırıqları təlimatın tələblərinə uyğun icra edin. ➢ Çalışmalısınız ki, tapşırığın tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar	➢ NV-si hərəkətdə olarkən xarab olduqda sürücünün etməli olduğu tapşırıqların yerinə yetirilməsinə dair qaydalar haqda şifahi şərh söyləyirsiniz. ➢ NV sıradan çıxdıqda onu yolun hərəkət hissəsinin kənarına çəkirsiniz. ➢ Texniki yarım xidmətinə məlumat verirsiniz. ➢ Dayanmanın qadağan edildiyi yerdə məcburi dayanmısınızsa və digər hərəkət iştirakçılarına maneə yaradırsınızsa, qəza dayanma işıq siqnalını qoşursunuz və ya qəza dayanma nişanı quraşdırırsınız. ➢ Qəza dayanma nişanını NV-nin arxa tərəfində həmin zolaqda azı 30 metr məsafədə elə quraşdırırsınız ki, yaxınlaşan NV-nin sürücüləri nişanı kifayət qədər məsafədən görə bilsinlər. ➢ Qəza dayanma nişanını yaşayış məntəqələrində hərəkət intensiv olmayanda daha yaxın məsafədə quraşdırırsınız.
Diqqət edilməli məqamlar!!!	➢ Qəza dayanma nişanı NV-nin arxa tərəfində, lakin zərurət olduqda qabaq tərəfində də quraşdırılır.

Praktik işə dair fotoillüstrasiya	

<u>Praktik tapşırıq A.5.2 – NV-nin elastik və sərt yedəyə alınma tapşırıqlarının yerinə yetirilməsi</u>

<u>İstifadə edilməli resurslar:</u>

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Xüsusi təlim meydançası;
- Yedək tərtibatı;
- Yedəyə alan və alınan traktorlar.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
NV-nin elastik və sərt yedəyə alınma tapşırıqlarının yerinə yetirilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ NV-nin elastik və sərt yedəyə alınma tapşırıqlarının yerinə yetirilməsinə dair tapşırıqları təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, tapşırığın tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar   	➢ Yedəyə alan NV-nin sükanı arxasında təcrübəli sürücü əyləşir. ➢ Yedəyə alınan NV-nin sükanı arxasında özünüz və ya müvafiq kateqoriyalı sürücülük vəsiqəsi olan əyləşir. ➢ Yedəyə alan NV-nin sürücüsü hərəkətə başladıqda gündüz vaxtı yaxın işıq faralarını yandırır. ➢ Yedəkdə hərəkət edərkən sizin NV-ni yedəyə alan NV-nin sürücüsünün verdiyi siqnallara uyğun siqnallar verirsiniz. ➢ Birləşdirici hissə elastik yedəyə almada 4-6 metr, sərt yedəyə almada isə ən çoxu 4 metr olmalıdır. ➢ Elastik yedəyə alma zamanı birləşdirici hissənin hər metrini siqnal lövhəcikləri ilə işarələyirsiniz. ➢ Qadağan olunan yerlərdə - buzlu yollarda və yedəklə birlikdə ümumi

	uzunluq 24 metrdən artıq olduqda yedəyə almırsınız.
Diqqət edilməli məqamlar!!!	➢ NV öz kütləsindən artıq NV-ni yedəyə almamalıdır.

Praktik tapşırıq A.5.3 – *Təkərli traktorların təkərlərinin və şinlərinin istismarını qadağan edən hallara dair tapşırıqların yerinə yetirilməsi*

İstifadə edilməli resurslar:

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Xüsusi təlim meydançası;
- Təkərli traktor.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Təkərli traktorların təkərlərinin və şinlərinin istismarını qadağan edən hallara dair tapşırıqların yerinə yetirilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Təkərli traktorların təkərlərinin və şinlərinin istismarını qadağan edən hallara dair tapşırıqların yerinə yetirilməsini təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, tapşırığın tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar	➢ Təkərli traktorların təkərlərinin və şinlərinin istismarını qadağan edən halları şifahi söyləyirsiniz. ➢ Təkərli traktorların şinlərinin potektorunun naxışlarının qalmış qalınlığı aparan təkərlərdə 5 mm-dən, aparılan təkərlərdə isə 2 mm-dən, qoşqularında isə 1 mm-dən azdırsa, NV-ni istismar etmirsiniz. ➢ Şinlərdə kordun çılpaqlaşması, habelə karkasın təbəqələrə ayrılması, protektorun və şinin yan rejiminin qopması kimi yerli zədələr (yarıq, kəsik, qırıq) aşkar edibsinizsə, istismara son qoyursunuz. ➢ Bərkitmə boltu olmadıqda və ya təkərlərin diskində və çənbərlərində çatlar varsa, istismara yol vermirsiniz. ➢ Sol və sağ təkərlərin təzyiq fərqləri 0,1

	kq-q/sm2 -dən artıq olduqda istismara yol vermirsiniz və nasazlığı aradan qaldırırsınız. ➢ Traktorun və ya onun qoşqusunun bir oxuna radial şinlə birlikdə diaqonal şin və ya protektoru müxtəlif naxışlı şinlər geydirmirsiniz, bu hala yol verilir.
Diqqət edilməli məqamlar!!!	➢ Təkərlərdə və şinlərdə nasazlıq axtarakən çox diqqətli olmalısınız.

Praktik tapşırıq A.5.4 – *Tırtıllı traktorların hərəkət hissəsinin istismarını qadağan edən hallara dair tapşırıqların yerinə yetirilməsi*

İstifadə edilməli resurslar:

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Xüsusi təlim meydançası;
- Tırtıllı traktor.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Tırtıllı traktorların hərəkət hissəsinin istismarını qadağan edən hallarına dair tapşırıqların yerinə yetirilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Tırtıllı traktorların hərəkət hissəsinin istismarını qadağan edən hallara dair tapşırıqların yerinə yetirilməsini təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, tapşırığın tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar	➢ Tırtıllı traktorların hərəkət hissəsinin istismarını qadağan edən halları şifahi söyləyirsiniz. ➢ Tırtıllı hərəkət hissəsinin tırtıl zəncirinin sallanması 35-36 mm-dən artıq olduqda traktoru bu halda istismar etmirsiniz və bu nasazlığın aradan qaldırılması üçün traktoru xüsusi təmir briqadasına təqdim edirsiniz. ➢ Tırtılın yerə ilişmə hissəsinin hündürlüyü 7 mm-dən az olarsa, istismara son qoyursunuz və tırtıl zəncirinin dəyişdirilməsi haqda təqdimat edirsiniz. ➢ Sağ və sol tırtılların sallanmaları arasındakı fərq 5 mm-dən artıq olarsa,

	nasazlığı aradan qaldırırsınız.
Diqqət edilməli məqamlar!!!	➢ Sağ və sol tırtıl başmaqlarının sayının eyni olmasına diqqət edin.

Praktik tapşırıq A.5.5 – Tormoz sisteminin NV-nin istismarını qadağan edən hallarına dair tapşırıqların yerinə yetirilməsi

İstifadə edilməli resurslar:

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Xüsusi təlim meydançası;
- Təkərli traktor.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Tormoz sisteminin NV-nin istismarını qadağan edən hallarına dair tapşırıqların yerinə yetirilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Tormoz sisteminin NV-nin istismarını qadağan edən hallarına dair tapşırıqların yerinə yetirilməsini təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, tapşırığın tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar	➢ Tormoz sisteminin NV-nin istismarını qadağan edən hallarını şifahi söyləyirsiniz. ➢ Hidravlik tormoz ötürücüsünün hermetikliyi pozulubsa, bu NV-ni nasazlıq aradan qaldırılana qədər istismar etmirsiniz. ➢ Pnevmatik və ya pnevmohidravlik tormoz ötürücüsündə hermetikliyin pozulması mühərrik işləyərkən tormoz sisteminin idarəetmə orqanı tam qoşulmuş halda olduqda 15 dəqiqə ərzində havanın təzyiqi 0,5 kqq/sm2-dan aşağı düşürsə, bu tormoz sistemində nasazlıq var və nasazlığın aradan qaldırılması üçün təmir üçün təqdimat edirsiniz. ➢ Pnevmatik tormoz ötürücüsünün manometri işləmədikdə istismarı dayandırırsınız. ➢ Duracaq tormoz sistemi maşının tərpənməz vəziyyətini texniki normalara

	uyğun təmin etmədikdə belə maşınların da istismarına yol vermirsiniz və bu nasazlığın aradan qaldırılması haqda təqdimatla çıxış edirsiniz.
Diqqət edilməli məqamlar!!!	➢ Pnevmatik tormoz ötürücüsünün işi yoxlanılarkən tormoz pedalının 15 dəqiqə müddətində sıxılı qalmasını diqqətdə saxlayın.

Praktik tapşırıq A.5.6 – Təkərli traktorların sükan idarə mexanizminin tarktorun istismarını qadağan edən nasazlıqlarına dair işlərin yerinə yetirilməsi

İstifadə edilməli resurslar:

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Xüsusi təlim meydançası;
- Təkərli traktor;
- Lüft dərəcəsinin ölçü tərtibatı.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Təkərli traktorların sükan idarə mexanizminin traktorun istismarını qadağan edən nasazlıqlarına dair işlərin yerinə yetirilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Təkərli traktorların sükan idarə mexanizminin traktorun istismarını qadağan edən nasazlıqlarına dair işlərin yerinə yetirilməsini təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, tapşırığın tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar	➢ Təkərli traktorların sükan idarə mexanizminin traktorun istismarını qadağan edən nasazlıqlarını şifahi söyləyirsiniz. ➢ Təkərli traktorların sükan çarxında lüftün cəmi istehsalçı müəssisənin bu maşın üçün müəyyən etdiyi normadan artıqdırsa, bu texnikanı istismar etmirsiniz və çatışmazlıqların aradan qaldırılması istiqamətində addımlar atırsınız. ➢ Sükan idarə mexanizminin detal və qovşaqlarının konstruksiyada nəzərdə tutulmayan yerdəyişməsinə yol verildikdə, yivli birləşmələr müəyyənləşdirilmiş üsulla bağlanmadıqda və bərkidilmədikdə istismara son qoyursunuz. Uyğun açarlarla boşalmış yerləri bərkidirsiniz. ➢ Konstruksiyada nəzərdə tutulan sükan idarə gücləndiricisi işləmirsə, istismarı dayandırırsınız

	və nasazlığın aradan qaldırılması üçün təqdimat edirsiniz.
Diqqət edilməli məqamlar!!!	➢ Sükan çarxının boşuna gediş lüftünü ölçərkən diqqətli olun.
Praktik işə dair fotoillüstrasiya	

<u>Praktik tapşırıq A.5.7 – Tırtıllı traktorların idarə mexanizminin onun istismarını qadağan edən nasazlıqlarına dair işlərin yerinə yetirilməsi</u>

<u>İstifadə edilməli resurslar:</u>

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Xüsusi təlim meydançası;
- Tırtıllı traktor.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Tırtıllı traktorların idarə mexanizminin onun istismarını qadağan edən nasazlıqlarına dair işlərin yerinə yetirilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Tırtıllı traktorların idarə mexanizminin onun istismarını qadağan edən nasazlıqlarına dair işlərin yerinə yetirilməsini təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, tapşırığın tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar	➢ Tırtıllı traktorların idarə mexanizminin onun istismarını qadağan edən nasazlıqlarını şifahi söyləyirsiniz. ➢ İdarə dəstəklərinin muftalarının sərbəst gedişi bu maşınlar üçün istehsalçı müəssisənin müəyyən etdiyi normadan artıq olarsa, onun istismarını həyata keçirmirsiniz və bu nasazlığın aradan qaldırılması ətrafında işlər görürsünüz. ➢ İdarə dəstəyini özünüzə tərəf çəkdikdə baraban tam tormozlanmırsa, belə halda da istismara yol vermirsiniz və barabanın qəlibli lentinin çəkilməsini

	yerinə yetirməklə nasazlığı aradan qaldırılmasına nail olursunuz. ➢ Qəlibli lent çəkildikdən sonra tormoz barabanının işini bir daha yoxlayın. ➢ Tormoz pedalının sərbəst gedişinin ölçüləri müxtəlif olduqda və ya istehsalçı müəssisənin müəyyən etdiyi normadan artıq olduqda da istismara yol vermirsiniz və pedalların sərbəst gedişlərinin tənzimlənməsi üçün təqdimat edirsiniz.
Diqqət edilməli məqamlar!!!	➢ Qəlibli lentin çəkilib tarımlanmasında çox diqqətli olun ki, barabana adi toxunuş tormozun tutmasına səbəb olmasın.

Praktik tapşırıq A.5.8 – Konstruksiyanın digər elementləri çatışmadıqda sürücünün yerinə yetirməli olduğu işlərin icra edilməsi

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Konstruksiyanın digər elementləri çatışmadıqda sürücünün yerinə yetirməli olduğu işlərin icra edilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Konstruksiyanın digər elementləri çatışmadıqda sürücünün yerinə yetirməli olduğu işlərin icra edilməsinə dair işlərin yerinə yetirilməsini təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, tapşırığın tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar	➢ Konstruksiyanın digər elementləri çatışmadıqda sürücünün yerinə yetirməli olduğu işlərin icra edilməsini şifahi söyləyirsiniz. ➢ Nəqliyyat vasitəsinin konstruksiyasında nəzərdə tutulmuş arxanı göstərən güzgü, şüşə olmadıqda istismara son qoyursunuz. ➢ Səs siqnalı işləmədikdə istismar etmirsiniz. ➢ Sürücünün görünüş dairəsini məhdudlaşdıran, şüşənin şəffaflığını korlayan, yol hərəkəti iştirakçılarını zədələmək təhlükəsi yaradan əlavə əşyalar qoyulduqda və ya şüşələrə hər hansı formada və ölçüdə örtüklər (pərdə və plyonka) çəkildikdə istismarı apara bilməzsiniz. ➢ Konstruksiyada nəzərdə tutulmuş kuzov və ya kabinə qapılarının qıfılları, yük platforması bortlarının cəftələri, sistern boğazının və yanacaq bakı tıxacının cəftələri, sürücünün oturacağının vəziyyətini nizamlayan mexanizm, qəza çıxış yerləri və onları hərəkətə gətirən qurğular, qapıları idarə

	edən ötürücü, spidometr, taxoqraf, ilin mövsümi şəraitlərindən asılı olaraq şüşəqızdıran və havaüfürən işləmədikdə maşının istismarını heç cür apara bilməyəcəksiniz. ➢ Konstruksiyada nəzərdə tutulmuş arxa mühafizə qurğusu, palçıqdan qoruyan fartuklar və palçıqatanlar olmadıqda istifadə edə bilmirsiniz. ➢ Yedəkçinin və qoşquların ilişmə-dartı və ilişmə-dayaq qurğuları nasaz olduqda, habelə onların konstruksiyalarında nəzərdə tutulmuş sığorta trosları (zəncirlər) olmadıqda və ya nasaz olduqda maşını idarə etmirsiniz. ➢ Dartı qüvvəsi 3 t olan traktorlarda diyirlənməyə qarşı dayaqlar ikidən az olduqda istismara yol vermirsiniz və bu dayaqlar NV-yə qoyulduqdan sonra istismara davam edə bilirsiniz.
Diqqət edilməli məqamlar!!!	➢ Qoşqu ilə işləyərkən təkərli traktorlarda "Avtoqatar" tanınma nişanının olmasına diqqət edin.

Qiymətləndirmə çərçivəsi

Praktik tapşırıq A.5.1 *– NV-si hərəkətdə olarkən xarab olduqda sürücünün etməli olduğu tapşırıqların yerinə yetirilməsi*

Qiymətləndirmə ölçüsü	**Bəli**	**Xeyr**
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4. NV-si hərəkətdə olarkən xarab olduqda sürücünün etməli olduğu tapşırıqların yerinə yetirilməsinə dair qaydalar haqda şifahi şərh söylədinizmi?		
5. NV sıradan çıxdıqda onu yolun hərəkət hissəsinin kənarına çəkdinizmi?		
6. Texniki yarım xidmətinə məlumat verdinizmi?		
7.Dayanmanın qadağan edildiyi yerdə məcburi dayandıqda və digər hərəkət iştirakçılarına maneə yaratdıqda, qəza dayanma işıq siqnalını və ya qəza dayanma nişanını quraşdırdınızmı?		
8. Qəza dayanma nişanını NV-nin arxa tərəfində həmin zolaqda azı 30 metr məsafədə yaxşı quraşdırdınızmı, yaxınlaşan NV-nin sürücüləri nişanı kifayət qədər məsafədən görə bildilərmi?		
9. Qəza dayanma nişanını yaşayış məntəqələrində hərəkətin intensivliyini nəzərə alaraq daha yaxın məsafədə quraşdırdınızmı?		

Praktik tapşırıq A.5.2 – *NV-nin elastik və sərt yedəyə alınma tapşırıqlarının yerinə yetirilməsi*

Qiymətləndirmə ölçüsü	**Bəli**	**Xeyr**
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4. Yedəyə alan NV-nin sükanı arxasında təcrübəli sürücü əyləşdimi? Qadağan olunan yerlərdə - buzlu yollarda və yedəklə birlikdə ümumi uzunluq 24 metrdən artıq olduqda yedəyə almırsınız?		
5. Yedəyə alınan NV-nin sükanı arxasında siz özünüz və ya müvafiq kateqoriyalı sürücülük vəsiqəsi olan digər sürücü əyləşdimi?		
6. Yedəyə alan NV-nin sürücüsü hərəkətə başladıqda gündüz vaxtı yaxın işıq faralarını yandırdımı?		
7. Yedəkdə hərəkət edərkən sizin NV-ni yedəyə alan NV-nin sürücüsünün verdiyi siqnallara uyğun siqnallar verdinizmi?		
8. Birləşdirici hissə elastik yedəyə almada 4-6 metr intervalında oldumu?		
9. Birləşdirici hissə sərt yedəyə almada isə ən çoxu 4 metr oldumu?		
10. Elastik yedəyə alma zamanı birləşdirici hissənin hər metrini siqnal lövhəcikləri ilə işarələdinizmi?		
11. Qadağan olunan yerlərdə - buzlu yollarda və yedəklə birlikdə ümumi uzunluq 24 metrdən artıq olduqda yedəyə alardınızmı?		

Praktik tapşırıq A.5.3 – *Təkərli traktorların təkərlərinin və şinlərinin istismarını qadağan edən hallara dair tapşırıqların yerinə yetirilməsi*

Qiymətləndirmə ölçüsü	**Bəli**	**Xeyr**
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4. Təkərli traktorların təkərlərinin və şinlərinin istismarını qadağan edən halları şifahi söylədinizmi?		
5. Təkərli traktorların şinlərinin protektorunun naxışlarının qalmış qalınlığı aparan təkərlərdə 5 mm-dən, aparılan təkərlərdə isə 2 mm-dən, qoşqularında isə 1 mm-dən azdırsa, NV-ni istismar edərdiniz?		
6. Şinlərdə kordun çılpaqlaşması, habelə karkasın təbəqələrə ayrılması, protektorun və şinin yan rezininin qopması kimi yerli zədələr (yarıq, kəsik, qırıq) aşkar edibsinizsə, istismara son		

qoyardınız?		
7. Bərkitmə boltu olmadıqda və ya təkərlərin diskində və çənbərlərində çatlar varsa, istismara yol verdinizmi?		
8. Sol və sağ təkərlərin təzyiq fərqləri 0,1 kq-q/sm^2 -dən artıq olduqda istismara yol verdinizmi, yoxsa nasazlığı aradan qaldırıb sonra istismar etdiniz?		
9. Traktorun və ya onun qoşqusunun bir oxuna radial şinlə birlikdə diaqonal şin və ya protektoru müxtəlif naxışlı şinlər geydirdinizmi?		

Praktik tapşırıq A.5.4 – *Tırtıllı traktorların hərəkət hissəsinin istismarını qadağan edən hallara dair tapşırıqların yerinə yetirilməsi*

Qiymətləndirmə ölçüsü	**Bəli**	**Xeyr**
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4. Tırtıllı traktorların hərəkət hissəsinin istismarını qadağan edən halları şifahi söylədinizmi?		
5. Tırtıllı hərəkət hissəsinin tırtıl zəncirinin sallanması 35-36 mm-dən artıq olduqda, traktoru bu halda istismar etdinizmi? Bu nasazlığın aradan qaldırılması üçün traktoru xüsusi təmir briqadasına təqdim etdinizmi?		
6. Tırtılın yerə ilişmə hissəsinin hündürlüyü 7 mm-dən az olarsa, istismara son qoydunuzmu və tırtıl zəncirinin dəyişdirilməsi haqda təqdimat etdinizmi?		
7. Sağ və sol tırtılların sallanmaları arasındakı fərqi 5 mm-dən artıq müşahidə etdikdə, nasazlığı aradan qaldırdınızmı?		

Praktik tapşırıq A.5.5 – *Tormoz sisteminin NV-nin istismarını qadağan edən hallarına dair tapşırıqların yerinə yetirilməsi*

Qiymətləndirmə ölçüsü	**Bəli**	**Xeyr**
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4. Tormoz sisteminin NV-nin istismarını qadağan edən hallarını şifahi söylədinizmi?		
5. Hidravlik tormoz ötürücüsünün hermetikliyi pozulubsa, bu NV-ni nasazlıq aradan qaldırılana qədər istismar etdinizmi?		
6. Pnevmatik və ya pnevmohidravlik tormoz ötürücüsündə hermetikliyin pozulması mühərrik işləyərkən tormoz sisteminin idarəetmə orqanı tam qoşulmuş halda olduqda 15 dəqiqə ərzində		

havanın təzyiqi 0,5 kqq/sm^2-dan aşağı düşdüsə, siz bu halı tormoz sistemində nasazlıq hesab etdinizmi və nasazlıqın aradan qaldırılması üçün təmir üçün təqdimat etdinizmi?		
7. Pnevmatik tormoz ötürücüsünün manometri işləmədikdə istismarı dayandırdınızmı?		
8. Duracaq tormoz sistemi maşının tərpənməz vəziyyətini texniki normalara uyğun təmin etmədikdə belə maşınların istismarına yol verdinizmi və bu nasazlığın aradan qaldırılması haqda təqdimatla çıxış etdinizmi?		

Praktik tapşırıq A.5.6 – *Təkərli traktorların sükan idarə mexanizminin tarktorun istismarını qadağan edən nasazlıqlarına dair işlərin yerinə yetirilməsi*

Qiymətləndirmə ölçüsü	**Bəli**	**Xeyr**
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4. Təkərli traktorların sükan idarə mexanizminin traktorun istismarını qadağan edən nasazlıqlarını şifahi söylədinizmi?		
5. Təkərli traktorların sükan çarxında lüftün cəmi istehsalçı müəssisənin bu maşın üçün müəyyən etdiyi normadan artıqdırsa, bu texnikanı istismar etdinizmi və çatışmazlıqların aradan qaldırılması istiqamətində addımlar atdınızmı?		
6. Sükan idarə mexanizminin detal və qovşaqlarının konstruksiyada nəzərdə tutulmayan yerdəyişməsinə yol verildikdə, yivli birləşmələr müəyyənləşdirilmiş üsulla bağlanmadıqda və bərkidilmədikdə istismara son qoydunuzmu?		
7. Uyğun açarlarla boşalmış yerləri bərkitdinizmi?		
8. Konstruksiyada nəzərdə tutulan sükan idarə gücləndiricisi işləmirsə, istismarı dayandırdınızmı və nasazlığın aradan qaldırılması üçün təqdimat etdinizmi?		

Praktik tapşırıq A.5.7 – *Tırtıllı traktorların idarə mexanizminin onun istismarını qadağan edən nasazlıqlarına dair işlərin yerinə yetirilməsi*

Qiymətləndirmə ölçüsü	**Bəli**	**Xeyr**
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4. Tırtıllı traktorların idarə mexanizminin onun istismarını qadağan edən nasazlıqlarını şifahi söylədinizmi?		
5. İdarə dəstəklərinin muftalarının sərbəst gedişi bu maşınlar üçün		

istehsalçı müəssisənin müəyyən etdiyi normadan artıq oldusa, onun istismarını həyata keçirdinizmi və bu nasazlığın aradan qaldırılması ətrafında işlər gördünüzmü?		
6. İdarə dəstəyini özünüzə tərəf çəkdikdə baraban tam tormozlanmırsa, belə halda istismara yol verdinizmi və barabanın qəlibli lentinin çəkilməsini yerinə yetirməklə nasazlığın aradan qaldırılmasına nail oldunuzmu?		
7. Qəlibli lent çəkildikdən sonra tormoz barabanının işini bir daha yoxladınızmı?		
8. Tormoz pedalının sərbəst gedişinin ölçüləri müxtəlif olduqda və ya istehsalçı müəssisənin müəyyən etdiyi normadan artıq olduqda istismara yol verdinizmi və pedalların sərbəst gedişlərinin tənzimlənməsi üçün təqdimat etdinizmi?		

Praktik tapşırıq A.5.8 – *Konstruksiyanın digər elementləri çatışmadıqda sürücünün yerinə yetirməli olduğu işlərin icra edilməsi*

Qiymətləndirmə ölçüsü	**Bəli**	**Xeyr**
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4. Konstruksiyanın digər elementləri çatışmadıqda sürücünün yerinə yetirməli olduğu işlərin icra edilməsini şifahi söylədinizmi? Təkərli traktorda - dərman qutusu, odsöndürən, qəza dayanma nişanı yoxdursa, maşını istismara çıxarmadınız və çatışmayan qurğuların maşında tezliklə olmasını təmin etdinizmi?		
5. Nəqliyyat vasitəsinin konstruksiyasında nəzərdə tutulmuş arxanı göstərən güzgü, şüşə olmadıqda istismara son qoydunuzmu?		
6. Səs siqnalı işləmədikdə istismar etdinizmi?		
7. Sürücünün görünüş dairəsini məhdudlaşdıran, şüşənin şəffaflığını korlayan, yol hərəkəti iştirakçılarını zədələmək, təhlükəsi yaradan əlavə əşyalar qoyulduqda və ya şüşələrə hər hansı formada və ölçüdə örtüklər (pərdə və plyonka) çəkilibsə, istismarı apara bildinizmi?		
8. Konstruksiyada nəzərdə tutulmuş kuzov və ya kabinə qapılarının qıfılları, yük platforması bortlarının cəftələri, sistern boğazının və yanacaq bakı tıxacının cəftələri, sürücünün oturacağının vəziyyətini nizamlayan mexanizm, qəza çıxış yerləri və onları hərəkətə gətirən qurğular, qapıları idarə edən ötürücü, spidometr, taxoqraf, ilin mövsümi şəraitlərindən asılı olaraq şüşəqızdıran və havaüfürən işləmədikdə NV-nin istismarına son qoydunuzmu?		
9. Konstruksiyada nəzərdə tutulmuş arxa mühafizə qurğusu,		

palçıqdan qoruyan fartuklar və palçıqatanlar olmadıqda istifadə edə bildinizmi?		
10. Yedəkçinin və qoşquların ilişmə-dartı və ilişmə-dayaq qurğuları nasaz olduqda, habelə onların konstruksiyalarında nəzərdə tutulmuş sığorta trosları (zəncirlər) olmadıqda və ya nasaz olduqda maşını idarə etməkdən imtina etdinizmi?		
11. Dartı qüvvəsi 3 t olan traktorlarda diyirlənməyə qarşı dayaqlar ikidən az olduqda istismara yol vermirsiniz və bu dayaqlar NV-yə qoyulduqdan sonra istismara davam edə bildinizmi?		

A.6 Traktor və digər digər mexaniki nəqliyyat vasitələrinin idarə olunmasında təhlükəsizliyi təmin edən amillər

NV-nin hərəkətinin təhlükəsizliyi onların hərəkət sürətinin yol şəraitinə uyğunluğundan asılıdır. Maşinistin iş zamanı müəyyən səhvlərə yol verməsi yol nəqliyyat hadisələrinin baş verməsinin səbəblərindən biridir. Bu səbəblərdən ən çox rast gəlinəni aşağıdakılardır:

- Təhlükənin dərk edilməsində görə qabiliyyətinin yanlışlığı;
- Sürücünün reaksiya müddətinin artması;
- Yol şəraitinin düzgün qiymətləndirilməməsi.

Hərəkətin təhlükəsizliyinin təmin edilməsinin əsas şərtlərinə sürücünün görmə qabiliyyəti, ümumi fiziki hazırlığı və psixoloji dərketmə xüsusiyyətləri də aiddir.

Yollarda hərəkətin təhlükəsizliyinin pozulmasının əsas səbəbləri aşağıdakılardır:

- Hərəkətin intensivliyinin artması;
- Yollarda yüksək sürətlə hərəkət edən NV-nin miqdarca artması;
- Yollarda iri tutumlu NV-nin, traktorların, kənd təsərrüfatı maşınlarının və digər müxtəlif mexanizmlərin hərəkətinin artması;
- Yol örtüyünün istidən yayılması, qabarıqlaşması, yaxud sürüşkən sahələrin yaranması və s.

Sürücünün hərəkət vaxtı qəbul etdiyi və reaksiya verdiyi informasiyaların (yol şəraiti, nəqliyyat axınının sıxlığı, qarşıdan gələn və ötüb keçən NV-nin tezliyi və s.) artması onun diqqətinin gərginləşməsinə səbəb olur.

Hərəkət zamanı sürücü yolun qarşıdakı uzaq sahələrini nisbətən dəyişilmiş şəkildə görür və bəzi hallarda sürücüdə görmə yanlışlığı yaranır. Məsələn, günəşli gündə quru, bərk örtüklü düz yol ilə hərəkət edərkən bəzən sürücüyə elə gəlir ki, qarşıda yol sahəsinin müəyyən hissəsi yaş vəziyyətdədir; yolun iki düzxətli sahəsi arasında yerləşən qısa döngə çox sərt döngə kimi nəzərə çarpır; yolun görünüşü pis olan sahəsində döngəli yer varsa, sürücüyə elə görünür ki, yol düzxətli istiqamətdə davam edir; yaxud da enişi enərkən dərə yolunun düzxətli sahəsini keçən sürücüyə elə görünür ki, yolun qarşıdakı yoxuşlu sahəsi çox sərt olacaq və s.

Həmin yol sahələrində hərəkət edən NV-nin sürücüsü öz diqqətini yolun istiqamətini yönəldən istinad nöqtələrinə cəmləşdirməlidir. Görünüş istiqamətini yönəldən cisimlər və obyektlər NV-nin hərəkət istiqamətinə paralel yerləşən yol örtüyünün

qıraqları, yol kənarının yaşıllıqları, yol ətrafında əkilmiş ağaclar cərgəsi və yolun hərəkət hissəsində çəkilən nişanlama xətləridir.

Sürücünün dəyanətliliyi onun ustalığı, şəxsi keyfiyyətləri, məlumatı qəbuletmə xüsusiyyəti, bu xüsusiyyətin vaxta və əhatə edən mühitin təsirinə müvafiq olaraq dəyişməsi ilə xarakterizə edilir.

Sürücünün informasiyanı qəbuletmə keyfiyyəti aşağıdakı xüsusiyyətlərdən asılıdır:

- Qəbuletmənin minimum olmasından;
- Vahid informasiyanın qəbuletmə vaxtından;
- Qəbul edilmiş informasiyanın dərk olunması və əks-təsir əməliyyatlarının formalaşması vaxtından.

Yolun HH-nə piyadaların çıxması, döngələrdə nəqliyyatın tormozlanması, NV-nin kənar sahələrdən yola çıxması və s. gözlənilməz əməliyyatlar da hərəkət şəraitinin mürəkkəbləşməsinə səbəb olur.

NV-ni idarə edərkən sürücü hərəkətin aktiv və passiv nizamlama vasitələrinə diqqət yetirməlidir.

Aktiv nizamlama vasitələri (işıqforlar, şlaqbaum, ayırıcı zolaqlar, hərəkətin əlavə zolaqları, eyni əhəmiyyətli yolayrıcıları) nəqliyyat axınının hərəkət rejimini bilavasitə dəyişməyə imkan verir.

Passiv nizamlama vasitələri (yol nişanları, HH-nin nişanlama xətləri, döngənin istiqamətini bildirən direklər və s.) daha münasib hərəkət rejimini və trayektoriyasını seçməkdə sürücülərə kömək edir.

Sürücünün NV-ni təhlükəsiz idarə etməsində onun duyğu hissi də böyük əhəmiyyət kəsb edir. Sürücünün duyğu hissi, xüsusilə görmə qabiliyyətində və fizioloji xüsusiyyətlərində müəyyən işləri yerinə yetirməyə maneçilik törədən qüsurların olması müəyyən yol şəraitində hərəkət zamanı yol-nəqliyyat hadisələrinin baş verməsinə səbəb ola bilər.

Hər bir sürücü NV-ni idarə etdikdə öz daxili, insani mədəniyyətindən əlavə, özündə sürücü mədəniyyəti, etikası da əxz etməlidir. Bu keyfiyyətləri özündə cəm edən sürücülər yollarda anlaşılmaz, çıxılmaz vəziyyətlərə düşdükdə bu vəziyyətlərdən özlərini çox məharətlə çıxara bilirlər. Sürücülər bir-birlərinə diqqətli olmalı, lazım gəldikdə güzəşt etməyi bacarmalıdırlar. Məsələn, sürücü hərəkətdə olarkən göstərici nəzarət ölçü cihazlarına (NÖC), yan güzgüyə, yolun kənarında qoyulmuş yol nişanlarına baxdığı müddətdə (1-7 san.) NV-nin hərəkətinə nəzarət etmir və ya yarışüurlu halda nəzarət edir ki, bu da yol şəraitinə uyğun olaraq müvafiq tədbirlər görülməsini tələb edir.

Bəzən sürücünün gözlərində rəng yorğunluğu yarana bilir. Belə hallar çox vaxt uzun müddət qarlı yolla, yaxud günəşin parlaq işığında hərəkət edərkən baş verir. Qırmızı və göy rəngli cisimlər gözdə yorğunluğun artmasına səbəb olur. Gözlərdə rəng yorğunluğu yarandıqda sürücü NV-ni dayandırmalı və istirahət etməlidir.

Gözlərin işıqlanmanın dəyişilmə dərəcəsinə öyrəşməsi uyğunlaşma (adaptasiya) adlanır. Gözlərin uyğunlaşması mühitin işıqlanmasından asılı olaraq iki cür olur: qaranlığa uyğunlaşma; işığa uyğunlaşma.

Gözlərin qaranlığa uyğunlaşma müddəti 30-40 saniyə, işığa uyğunlaşma müddəti isə bir neçə dəqiqə davam edə bilər. Sürücü gözləri qamaşdıqda hərəkət istiqamətini dəyişmədən NV-ni dayandırmalıdır.

Hərəkətin təhlükəsizliyi bəzən hərəkətdə olarkən yolda və ətrafda gördüklərinin qavrama dərəcəsindən də çox asılı olur. Adi şəraitdə insan bir baxışda gördüyü 6-8 müxtəlif əşyanı qavraya bilir. Lakin hərəkətdə olan NV-nin sürücüsü eyni vaxtda 3-4 əşyanı görüb qavraya bilir.

Təhlükəsizliyi təmin etməkdə sürücünün reaksiya müddəti mühüm rol oynayır. Reaksiya müddəti sürücünün təhlükəni gördüyü andan bu təhlükəni sovuşdurmaq üçün atacağı addıma qədər keçən vaxta reaksiya müddəti deyilir. Məsələn, təhlükəni gördüyü andan tormoz pedalını sıxana kimi keçən vaxt.

Hərəkətin təhlükəsizliyini təmin edən amillərdən biri də NV-nin hesablanmış və qaydaların tələblərinə uyğun tormozlanmasıdır. Sürücü tormoz pedalını bir dəfə basdıqda NV-nin tam dayandığı ana qədər getdiyi yola tormoz yolu deyilir. Tormoz yolunu bir neçə dəfə tormozlamaqla qısaldırlar. Tormoz yolu sürətin kvadratı ilə düz mütənasibdir.

Yaddan çıxarmaq lazım deyil ki, tormoz pedalı da ona toxunan anda işə düşmür və bunun üçün təqribən 1 saniyəyə qədər vaxt tələb olunur.

Deməli, NV-nin tam dayanma yolu üç amilin cəmindən ibarət olur: reaksiya müddəti zamanı qət edilən yol + tormoz pedalının işə düşməsinə qədər qət edilən yol + tormoz yolu = tam dayanma yolu.

NV döngələrdə hərəkət edərkən NV-yə təsir edən (NV-ni aşırmağa çalışan) mərkəzdənqaçma qüvvəsi aşağıdakı kimi hesablanır: $F_{mq} = mV^2/r$

Burada F_{mq} – mərkəzdənqaçma qüvvəsi;

m- NV-nin faktiki kütləsi;

V- NV-nin sürəti;

r- döngənin radiusu.

Düsturdan da göründüyü kimi, döngədə mərkəzdənqaçma qüvvəsi NV-nin hərəkət sürətinin kvadratına bərabər kəmiyyətlə düz mütənasibdir və sürətin azaldılması bu qüvvənin azalmasına səbəb olur.

Təlim nəticələrinin qiymətləndirilməsi

Nəzəri biliklərin qiymətləndirilməsi

Qiymətləndirmə üsulu	Suallar
1. Test sualları	Sual 1: Sürücünün iş zamanı hansı səhvlərə yol verməsi yol nəqliyyat hadisəsinin (YNH) baş verməsinə səbəb olur? a)Təhlükənin dərk edilməsində görmə qabiliyyətinin yanlışlığı b) Sürücünün reaksiya müddətinin artması c) Yol şəraitinin düzgün qiymətləndirilməməsi d) Sadalananların hər biri Sual 2: Yollarda hərəkətin təhlükəsizliyinin pozulmasının əsas səbəbləri nə ola bilər? a) Hərəkət intensivliyinin artması b) Yollarda yüksək sürətlə hərəkət edən NV-nin çoxalması c) Yollarda iri həcmli NV-nin, traktorların, kənd təsərrüfatı

	maşınlarının artması d) Sadalananların hər biri Sual 3: Hərəkət intensivliyi dedikdə nə başa düşülür? a) Ölkədə NV-nin artması b) Yollarda hərəkət iştirakçılarının azalması c) Yollarda hərəkətdə olan NV-nin çoxalması d) Sadalananların hər biri
2. Düzgün və ya səhv cavabları seçmək	Aşağıdakı cümlələrin əvvəlində boşluğa düzgün (+) və ya səhv (-) olduğunu işarə edin. 1. ( ) Hərəkətin təhlükəsizliyi təhlükəsizlik əmsalı ilə qiymətləndirilir. 2. ( ) Yollarda hərəkət intensivliyinin artması ilə yanaşı, hərəkət şəraitinin mürəkkəbləşməsinə səbəb olur. 3. ( ) Əlverişli olmayan hərəkət şəraitinin düzgün seçilmədiyi yerlər təhlükəsizlik əmsalının artmasına səbəb olur. 4. ( ) Sürücü yolda hərəkətdə olarkən təhlükəni gördüyü andan tam dayanana qədər getdiyi yola sərf etdiyi zamana reaksiya müddəti deyilir. 5. ( ) Döngələrdə mərkəzdənqaçma qüvvəsi NV-nin hərəkət sürətinin kvadratına tərs mütənasibdir. 6. ( ) NV-ni idarə edərkən sürücü yol şəraitini nəzər almalıdır. 7. ( ) Sürücünün reaksiya müddətinin artması çox vaxt qəzalara səbəb olur. 8. ( ) Sürücünün diqqətinin yüklənmə dərəcəsi NV-ni idarə etməyə təsir göstərmir. 9. ( ) Hərəkət sürətinin yüksəldilməsi sürücünün görmə sektorunun daralmasına səbəb olur.
3. Boşluqları doldurmaq	Aşağıdakı cümlələri oxuyun və boşluqlara uyğun gələn sözləri daxil edin: 1. YNH-nin baş verməsinin səbəblərində biri sürücünün ..... imkanlarındakı məhdudiyyətlərdir. 2. Aktiv nizamlama vasitələri nəqliyyat axınının hərəkət rejimini ..... imkan verir. 3. Sürücünün ..... konkret hərəkət şəraitində tələb olunan əməliyyatları dəqiq yerinə yetirmə qabiliyyətidir. 4. Sürücü tormoz pedalını sıxdığı andan NV-nin tam dayanmasına kimi qət etdiyi yol ..... yolu adlanır. 5. NV qoşqu ilə hərəkət edərkən tormoz yolu ..... 6.Sürücü təhlükəni gördüyü andan NV-nin tam ayanmasına qədər getdiyi məsafəyə ..... yolu deyilir.

Praktik tapşırıqlar və fəaliyyətlər

Praktik tapşırıq A.6.1 – *Sürücünün hərəkət istiqamətində yolun görünmə şəraitini nəzərə almaqla NV-ni idarə etməsinə dair tapşırıqların yerinə yetirilməsi*

İstifadə edilməli resurslar:

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Xüsusi təlim meydançası;
- Traktor.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Sürücünün hərəkət istiqamətində yolun görünmə şəraitini nəzərə almaqla NV-ni idarə etməsinə dair tapşırıqların yerinə yetirilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Sürücünün hərəkət istiqamətində yolun görünmə şəraitini nəzərə almaqla NV-ni idarə etməsinə dair tapşırıqları təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, tapşırığın tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar	➢ Sürücünün hərəkət istiqamətində yolun görünmə şəraitini nəzərə almaqla NV-ni idarə etməsinə dair tapşırıqların yerinə yetirilməsi qaydalarını şifahi söyləyirsiniz. ➢ Məhdudiyyətli görmə və ya pis görmə şəraitində sürəti elə seçirsiniz ki, dayanma yolu görünmə məsafəsindən az olsun. ➢ Sürətin belə seçimi sizə imkan verəcək ki, yolun görünən sahəsində dayanırsınız. ➢ Sürətinizi artırırsınız və dayanma yolunu əvvəlki dayanma yolu ilə müqayisə edirsiniz və fərqi qeyd edirsiniz. ➢ Sizə yəqinlik hasil olunacaq ki, siz yolun bu sahəsində təhlükəli sürətlə hərəkət etdiniz. ➢ NV-ni qoşqu ilə idarə edirsiniz və tormozlama edirsiniz və bu halda tormoz yolu qoşqusuz idarə zamanı edilən tormoz yolundan məsafəcə uzun olacaq, çünki qoşqunun ətaləti bunu diktə edir.
Diqqət edilməli məqamlar!!!	➢ NV-ni qoşqu ilə idarə etdikdə kütlənin artmasının kinetik enerjinin artmasına səbəb olmasını nəzərə alaraq diqqətdə saxlayın.

Praktik tapşırıq A.6.2 – *Qarşıdan gələn NV-nin işığının düşməsindən gözləri qamaşmış sürücünün yerinə yetirəcəyi tapşırıqlar*

İstifadə edilməli resurslar:

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Xüsusi təlim meydançası;
- Traktor.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Qarşıdan gələn NV-nin işığının düşməsindən gözləri qamaşmış sürücünün yerinə yetirəcəyi tapşırıqlar	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Qarşıdan gələn NV-nin işığının düşməsindən gözləri qamaşmış sürücünün yerinə yetirəcəyi tapşırıqları təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, tapşırığın tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar	➢ Qarşıdan gələn NV-nin işığının düşməsindən gözləri qamaşmış sürücünün yerinə yetirəcəyi tapşırıqları şifahi söyləyirsiniz. ➢ Qarşıdan gələn sürücünün gözlərini qamaşdırmamaq məqsədilə ona azı 150 metr qalmış uzaq işıqdan yaxın işığa keçirsiniz. ➢ Qarşıdan gələn sürücü də bu cür hərəkət etməlidir, lakin etmədi və sizin gözləriniz qamaşmağa məruz qaldı və siz bir anlıq heç nə görə bilməyəcəksiniz. ➢ Bu halda özünüzü itirmirsiniz və qəza dayanma işıq göstəricilərini işə salırsınız və tutduğunuz zolaqda da qalırsınız. ➢ Belə vəziyyətdə zolağı heç nə görmədən yol kənarında dayanmaq məqsədilə dəyişmək istəsəniz, artıq qəza qaçılmaz olacaq. ➢ Gözlərinizin görmə qabiliyyəti 10-15 saniyədən sonra bərpa olunacaq və yolunuza davam edə biləcəksiniz. ➢ Sərt döngələrdə hərəkətin təhlükəsizliyini təmin etməkdən ötrü sürətinizi azaltmalısınız.
Diqqət edilməli məqamlar!!!	➢ Əgər qarşıdan gələn sürücü tez-tez uzaq işıqdan yaxın işığa keçməklə sizdən xahiş edirsə ki, uzaq işıqları söndürün, siz dərhal yaxın işığa keçməlisiniz.

Qiymətləndirmə çərçivəsi

Praktik tapşırıq A.6.1 – Sürücünün hərəkət istiqamətində yolun görünmə şəraitini nəzərə almaqla NV-ni idarə etməsinə dair tapşırıqların yerinə yetirilməsi

Qiymətləndirmə ölçüsü	Bəli	Xeyr
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4. Sürücünün hərəkət istiqamətində yolun görünmə şəraitini nəzərə almaqla NV-ni idarə etməsinə dair tapşırıqların yerinə yetirilməsi qaydalarını şifahi söylədinizmi?		
5. Qarşıdan gələn sürücünün gözlərini qamaşdırmamaq məqsədilə ona azı 150 metr qalmış uzaq işıqdan yaxın işığa keçdinizmi?		
6. Qarşıdan gələn sürücü uzaq işıqdan yaxın işığa keçmədi və sizin gözləriniz qamaşmağa məruz qaldı, bu halda siz bir anlıq heç nə görmədiniz?		
7. Bu halda özünüzü itirmədən qəza dayanma işıq göstəricilərini işə qoşaraq tutduğunuz zolaqda qaldınızmı?		
8. Belə vəziyyətdə zolağı heç nə görmədən yol kənarında dayanmaq məqsədilə dəyişmək istədinizmi?		
9. Sizin gözlərinizin görmə qabiliyyəti 10-15 saniyədən sonra bərpa olundumu və siz yolunuza davam edə bildinizmi?		

Praktik tapşırıq A.6.2 – *Qarşıdan gələn NV-nin işığının düşməsindən gözləri qamaşmış sürücünün yerinə yetirəcəyi tapşırıqlar*

Qiymətləndirmə ölçüsü	Bəli	Xeyr
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4. Qarşıdan gələn NV-nin işığının düşməsindən gözləri qamaşmış sürücünün yerinə yetirəcəyi tapşırıqları şifahi söylədinizmi?		
5. Qarşıdan gələn sürücünün gözlərini qamaşdırmamaq məqsədilə ona azı 150 metr qalmış uzaq işıqdan yaxın işığa keçdinizmi?		
6. Qarşıdan gələn sürücünün qaydalara düzgün əməl etməməsindən gözlərinizə düşən işıqdan gözləriniz qamaşmağa məruz qaldımı?		
7. Bu halda özünüzü itirdinizmi və qəza dayanma işıq göstəricilərini işə qoşaraq tutduğunuz zolaqda da qaldınızmı?		
8. Sizin gözlərinizin görmə qabiliyyəti 10-15 saniyədən sonra bərpa olunduqdan sonra yolunuza davam edə bildinizmi?		
9. 10. Sərt döngələrdə hərəkətin təhlükəsizliyini təmin etməkdən ötrü sürətinizi azaltdınızmı?		

A.7 Qəza hallarında zərər çəkənlərə ilk tibbi yardım göstərilməsi qaydaları

Hərəkətin təhlükəsizliyinə əməl etməyən, sürücülüyə adi bir peşə kimi yanaşanların, peşənin sirlərini tam mənimsəməmiş NV-ni idarə edənlərin hərəkət vaxtı yol verdikləri səhvlərin üzündən bəzən yol qəzaları qaçılmaz olur. Bu halda yol qəzasında zərər çəkmişlərə ilk tibbi yardımın sürücü tərəfindən onlara göstərilməsi zərərçəkmişləri ölümün pəncəsindən xilas edir. Deməli, qəzalar zamanı ilk tibbi yardımın göstərilməsi qaydalarını sürücülər bilməlidirlər. Tibbi yardımlar geniş sahəli əməliyyatlardır. Bizim toxunacağımız və aydınlıq gətirəcəyimiz tibbi yardım yol-nəqliyyat hadisələri zamanı ən çox rast gəlinən zədələnmələr zamanı ilk tibbi yardımın zərərçəkmişə necə göstərilməsi olacaq.

Beləliklə, yol-nəqliyyat hadisələri zamanı ən çox rast gəlinən zədələnmələrə misal olaraq, müxtəlif bədən üzvlərinin zədə (travma) almasını, yanıqları, qanaxmaları və s. göstərə bilərik.

Travmalar.Toxumalarda və orqanlarda müxtəlif xarici təsirlərdən cürbəcür zədələnmələr əmələ gəlir. Zədələnmələr iki qrupa bölünür: qapalı və açıq zədələnmələr. Qapalı zədələnmələrdə dəri və selikli qişaların tamlığı pozulmur, qapalı sınıqlar, çıxıqlar, müxtəlif əzələ dartılmaları və s. baş verir. Açıq zədələnmələrdə isə müxtəlif xarici təsirlərdən dərinin, selikli qişanın və onların altındakı yumşaq toxumaların, orqanların tamlığı pozulur və müxtəlif yaralar əmələ gəlir.

Beyin travmaları. Başın travmalarının hər növü potensial təhlükəli olsa da, ancaq bəzi hallarda ağır nəticə baş verə bilər. Huşun itməsi ilə nəticələnən hər hansı baş beyin travması təxirəsalınmaz tibbi yardım tələb edir. Spirtli içki qəbul etmiş şəxslər baş travması aldıqda, onlara daha ciddi fikir vermək lazımdır. Ola bilsin ki, sərxoşluq kəllə-beyin travmalarının təhlükəli simptomlarını pərdələyə bilər. Huşsuz vəziyyətdə olan zərərçəkəni, onurğanın boyun hissəsinin zədələnməsinə qorxu olduğuna görə çox hərəkət etdirmək, onun yerini dəyişdirmək olmaz. Belə olan halda təcili tibbi yardımın gəlməsini gözləmək lazımdır.

*Bayılmalar. B*aşgicəllənmə, gözlərin qaralması, ürəkbulanma, qusma, qəfil qısamüddətli huşitirmə ilə nəticələnə bilər. Dərinin avazıması, nəbzin zəifləməsi, tənəffüsün səthiləşməsi müşahidə olunur. Ətraflar soyuyur, soyuq yapışqan tər hiss olunur.

Şəkil 14. Bayılmalar zamanı ilk tibbi yardımın göstərilməsi

İlkin yardım: Xəstəni uzandırmaq (aşağı ətrafları başından bir az hündürdə olmalıdır), dar paltarını və yaxasını boşaltmaq, təmiz hava vermək, üzünə soyuq su çiləmək. Ammiakda isladılmış pambığı iylətmək və onunla gicgahları sürtmək, ətrafları qızdırmaq lazımdır.

Şok. Əksər hallarda çoxsaylı xəsarət, geniş yanıqlar, müxtəlif preparatlara qarşı uyğunsuzluq, o cümlədən bəzi tibbi preparatların qəbulu və s. zamanı müşayiət edilən ümumi reaksiyadır və bu zaman həyati vacib orqanların (əsəb, ürək-damar, tənəffüs) funksiyası kəskin surətdə pozulur, dərinin ağarması və soyuqlaşması, bəbəklərin genişlənməsi, nəbzin zəifləməsi, bəzi hallarda qusma, huşun itməsi müşahidə olunur.

İlkin yardım: Xəstə üçün rahatlıq yaradılmalı, travmatik faktor və qanaxma aradan götürməli, ağız boşluğu təmizlənməlidir. Beyinin qanla təminatını yaxşılaşdırmaq üçün aşağı ətraflar başdan bir az hündürə qaldırılmalı, onu qızdırmaq məqsədilə isti paltara və ya odeyala bükmək lazımdır. Ehtiyac olarsa, süni tənəffüsü və ürəyin qapalı masajını tətbiq etmək. Ətrafların zədələnməsi zamanı şina ilə fiksə etmək və yanıqların üzərinə sarğı qoymaq. İlk yardımı göstərdikdən sonra xəstə mütləq xəstəxanaya çatdırılmalıdır.



Şəkil 15. Qabırğaların və döş qəfəsinin zədələnməsi zamanı ilk tibbi yardımın göstərilməsi

Qabırğaların sınığı və döş qəfəsinin zədələnməsi. Bərk zərbə nəticəsində, yaxud ağır bir şeyin altında qaldıqda qabırğalar sına bilər, bu vaxt nəfəs aldıqda və öskürdükdə güclənmən bərk ağrı müşayiət olunur. İlk yardım enli bintlə döş qəfəsini bərk sarımaqdır. Binti sarıdıqda xəstə dərindən nəfəsini buraxmalıdır. Qabırğa sümüyünün sınmış iti ucları plevra və ağciyərləri deşdikdə, dərialtı birləşdirici toxumaya hava girə bilər və onun nəticəsində dərialtı emfizema əmələ gəlir.

İlkin yardım: Yaraya qalın aseptik sarğı qoyub, plevra boşluğuna daha hava gəlməyə qoymamaq və xəstəni təcili surətdə cərrahiyyə şöbəsinə çatdırmaq lazımdır. Onu nəqliyyatda oturaq və ya yarımoturaq vəziyyətdə qoyurlar. Ehtiyac varsa, şoka qarşı dərman vurulur.

Yaralar və yaralara sarğıların qoyulması. Yaralar kəsilmiş, deşilmiş və cırılmış-əzilmiş yara növlərinə ayrılır. Yaralar növündən asılı olmayaraq ilk öncə sarınmalıdır. Bu yara növlərində cırılmış-əzilmiş növü infeksiyanın baş verməsi səbəbindən daha təhlükəlidir.

*İlkin yardım. S*arğı qoyarkən yaradakı yad cisimləri çıxarmaq, yaraya əl vurmaq və ya onu silmək qəti olmaz. Çünki onlar əlavə travma verərək ağrını, qanaxmanı, infeksiya keçməsini və s. daha da artırır, yaralının halını ağırlaşdırır. Yaranın ətrafını yod məhlulu ilə silmək lazımdır. Qanaxmanı müvəqqəti saxlamaq üçün jqutdan, olmadıqda müxtəlif əşyalardan, paltar materialından və s.-dən istifadə etmək olar. Sarğı qoymaq üçün fərdi sarğı paketlərindən və ya steril bint, dəsmal, pambıq və bintdən istifadə edilir. Həmin tədbirlərdən sonra yaralı xəstəxanaya göndərilir.

Qanaxmalar. Qanaxmalar qan damarı kəsildikdə, yaxud onun divarının keçiricilik qabiliyyəti pozulduqda baş verir. Qanaxmalar daxili və xarici olmaqla iki yerə ayrılır. Sürücülər çox hallarda daxili qanaxmaları dayandıra bilmək iqtidarında ola bilmirlər, çünki əlaməti görə bilmirlər. Xarici qanaxmalar

isə görünür və bu qanaxmaların qarşısının alınmasında təcrübəli sürücülər çətinlik çəkmirlər. Xarici qanaxmanın üç növü məlumdur: kapillyar qanaxması, venoz qanaxması və arterial qanaxması. Ən qorxulu qanaxma arterial qanaxmadır.

1) Kapillyar qanaxma – dərinin səthi yaraları zamanı əmələ gəlir, qan damcı kimi axır. Kapillyar qanaxma zamanı qan axan sahənin üstünə təmiz (steril) cuna (bint salfet) qoymaqla dayandırmaq olar. Cunanın üstündən pambıq qoyulur və bintlə sarınır.



Şəkil 17. Arterial qanaxmanın dayandırılması yolları

2) Venoz qanaxma – daha dərin yaralarda (kəsilmə, deşilmə zamanı) əmələ gəlir. Belə qanaxmada qanın tünd qırmızı rəngdə axını müşahidə olunur. Venoz qanaxmanı yaranın üstünə sıxıcı sarğı qoymaqla saxlamaq olur.

3) Arterial qanaxma – dərinin doğranmış və deşilmiş yaralarında əmələ gəlir, arterial qan açıq qırmızı rəngdə olur, zədələnmiş yaradan şırnaq formasında təzyiq altında çıxır. Arterial qanaxma bütün qanaxmaların ən təhlükəlisidir. Belə ki, arterial qanaxma zamanı xəsarət alanda tez bir zamanda qanazlığı əmələ gələ bilər. Yuxu, bud,qoltuqaltı arteriyadan qanaxma zamanı vaxtında yardım göstərilməsə, xəsarət alan 2-3 dəqiqə ərzində ölə bilər. Belə qanaxmaları kəsmək üçün ən yaxşı və əlverişli üsul damara turna (jqut) qoymaqdır.

Turna ətrafın qan axan yerinin yuxarı hissəsindən bağlanır. Əgər xəsarət alana turna qoyulması 2 saat müddətinə çatmışdırsa, onda onu mütləq cərrahi işlənməsi üçün xəstəxanaya çatdırmaq lazımdır.

Turnanın qoyulduğu vaxtdan soyuq havalarda 0,5 saat, isti havalarda isə 1 saat keçə bilər, bu hallada xəstənin qan işləməyən toxumaları çox zədələnmir. Odur ki, turna qoyulan vaxt kağıza qeyd edilərək xəstəyə verilməlidir ki, müalicə müəssisəsində həkimlərə təqdim etsin, onlara da aydın olsun ki, turna nə zaman qoyulmuşdur.



<u>Ürək tutmaları</u>

Sinə nahiyəsində ağrılarla, halsızlıqla, tərləmə, dərinin ağarması, ağrıların sol qola, mədə nahiyəsinə və kürəyə yayılması ilə müşahidə olunur.

İlkin yardım: Xəstəni uzadaraq ona rahatlıq vermək, dilaltına 1 ədəd nitroqliserin həbi qoymaq, ağrıkəsicilərdən istifadə etmək lazımdır.

*Burun qanaxması. Ç*ox vaxt burunun selikli qişası zədələnən zaman baş verir. Burun qanaxması şiddətləndikdə qan nəfəs borularına dolur və ağız boşluğuna düşdüyündən qismən udulur.

İlkin yardım: Xəstəni sakitləşdirib,əyləşdirməli, qanı mümkünsə ləyənə yığmalı, çünki bu, qan itkisi miqdarını müəyyən etməyə imkan verir. Xəstə başını dala əyməməlidir, əks təqdirdə qan burundan axmayaraq bütünlüklə udula bilər. On dəqiqə və ya qanaxma dayananadək burunu möhkəm sıxın. Burunun üstünə və alın nahiyəsinə buz (soyuq bir şey) qoyun. Əgər bununla qanaxma dayanmırsa, ən etibarlı vasitə buruna tampon qoyulmasıdır. Bu məqsədlə 3-5 sm enində steril tənzif, bint və ya uzun tənzif salfeti pinset vasitəsilə burun dəliyinə salırlar. Tamponu burundan qan dayandıqdan bir neçə saat sonra çıxartmaq olar.

Ətrafların sınığı zamanı ilk tibbi yardımın göstərilməsi:

İlk tibbi yardımın göstərilməsi ağrını azaltmaq üçün sümük parçalarını daha tərpənməyə qoymamaq və onlara düzgün vəziyyət vermək funksiyası daşıyır. Sümük parçası xaricə çıxırsa, toxumaların içərisinə infeksiya salmamaq üçün onu əllə düzəltməyə çalışmamalı, sınmış yerə şina və ya əl altında olan başqa bir şey (taxta parçası, faner, çubuq) qoyub bağlamalı və tərpənməyə qoymamalı. Şinanın altına kifayət qədər pambıq, tənzif və ya adi döşəkağını qatlayıb qoymaq olar. Açıq sınıqda yaranın ətrafını yodla, spirtlə silib aseptik sarğı qoyurlar. Açıq sınıqda güclü arterial qanaxma varsa, əvvəlcə qanaxmanı müvəqqəti saxlayır, yaranın üstünə aseptik sarğı qoyur, sonra isə şina qoyub bintlə möhkəm sarıyırlar. Şinalar elə uzunluqda olmalıdır ki, ən azı iki oynağı tutsun – biri sınmış yerdən yuxarıda, o biri aşağıda olub, bədənin həmin yerini tərpənməyə qoymasın. İlk yardım göstərdikdə şinanı paltarın üstündən də qoymaq olar.



Şəkil 17. Ətrafların sınığı zamanı ilk tibbi yardımın göstərilməsi

Təlim nəticələrinin qiymətləndirilməsi

Nəzəri biliklərin qiymətləndirilməsi

Qiymətləndirmə üsulu	Suallar
1. Test sualları	Sual 1: Qapalı zədələnmələrin növləri hansılardır? a) Dəri və selikli qişalarda tamlığın pozulması b) Qapalı sınıqlar c) Müxtəlif əzələ dartılmaları d) Sadalananların hər biri Sual 2: Hansı zədələnmələr açıq zədələnməyə aid deyil? a) Dərinin və selikli qişanın xarici təsirlərdən tamlığının pozulması b) Yumşaq toxumaların tamlığının pozulması və yaraların əmələgəlməsi c) Orqanların tamlığının pozulması d) Qapalı sınıqların əmələgəlməsi Sual 3: Bayılmaların əlamətləri hansılardır? a) Dərinin avazıması b) Nəfəsin zəifləməsi c) Tənəffüsün səthiləşməsi d) Sadalananların hər biri
2. Düzgün və ya səhv cavabları seçmək	Aşağıdakı cümlələrin əvvəlində boşluğa düzgün (+) və ya səhv (-) olduğunu işarə edin. 1. ( ) Sınıqlar zamanı ilk yardımın ümumi prinsipləri ağrını azaltmaq, sümük parçalarını daha tərpənməyə qoymamaq və onlara düzgün vəziyyət verməkdir. 2. ( ) Bayılmış xəstəyə ilkin tibbi yardım göstərərkən – onu uzatmaq, yaxasını sıxan paltarı boşaltmaq, təmiz hava vermək və üzünə soyuq su çiləmək lazımdır. 3. ( ) Yüngül dərəcəli yanıqlar zamanı yanmış yeri soyuq su altında 15-20 dəqiqə saxlamaq lazımdır. 4. ( ) Zədələnmiş yerə sarğı qoyarkən yaranı silmək lazımdır. 5. ( ) Vena qanaxmasında qan axan yerin yuxarısına jqut qoymaq lazımdır. 6. ( ) Arterial qanaxmanın kəsilməsinin ən əlverişli üsulu yaranı bintlə möhkəm bağlamaqdır.
3. Boşluqları doldurmaq	Aşağıdakı cümlələri oxuyun və boşluqlara uyğun gələn sözləri daxil edin 1. Qabırğaların sınığı və döş qəfəsinin zədələnməsi zamanı ilk yardım elementlərindən biri zərərçəkəni ..... oturaq və ya yarım oturaq vəziyyətini təmin etməkdir.

	2.Huşsuz vəziyyətdə olan zərərçəkənin yerini ..... olmaz. 3.Kapillyar qanaxma zamanı ..... itkisi çox da böyük olmur. 4. Arterial qanaxmada damarın yaralandığı yerdən yuxarıda ..... elə sıxmaq lazımdır ki, qanın axması kəsilsin. 5. Ürək tutması olan xəstəni uzatmaq və dilinin altına 1 ədəd ..... həbi qoymaq lazımdır.

Praktik tapşırıqlar və fəaliyyətlər

Praktik tapşırıq A.7.1 – *Bayılmalar zamanı ilkin tibbi yardımın göstərilməsinə dair tapşırıqların yerinə yetirilməsi*

İstifadə edilməli resurslar:

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Xüsusi təlim meydançası;
- Soyuq su, ammiak maddəsi.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Bayılmalar zamanı ilkin tibbi yardımın göstərilməsinə dair tapşırıqların yerinə yetirilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Bayılmalar zamanı ilkin tibbi yardımın göstərilməsinə dair tapşırıqların yerinə yetirilməsini təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, tapşırığın tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar	➢ Bayılmalar zamanı ilkin tibbi yardımın göstərilməsi qaydalarını şifahi söyləyirsiniz. ➢ Xəstəni hamar yerdə uzadırsınız. ➢ Aşağı ətraflarının başından hündürdə olması üçün ayaqlarının altına hər hansı bir əşya qoyursunuz. ➢ Əynindəki dar paltarları boşaldırsınız. ➢ Yaxasını açırsınız. ➢ Təmiz hava verirsiniz. ➢ Üzünə soyuq su çiləyirsiniz. ➢ Ammiakda isladılmış pambığı ona iylədirsiniz. ➢ Ammiakla isladılmış pambıqla onun gicgah nahiyələrini sürtürsünüz.
Diqqət edilməli məqamlar!!!	➢ Onun bayıldığını bildirən əlamətlərə (ətraflarının soyuması, başgicəllənməsi, ürək bulanması, nəbzin zəifləməsi və s.) diqqət edin.

Praktik tapşırıq A.7.2 – *Qabırğaların sınığı və döş qəfəsinin zədələnməsi zamanı ilkin tibbi yardımın göstərilməsinə dair tapşırıqların yerinə yetirilməsi*

İstifadə edilməli resurslar:

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Xüsusi təlim meydançası;
- Soyuq su, ammiak maddəsi, sarğı bintləri.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Qabırğaların sınığı və döş qəfəsinin zədələnməsi zamanı ilkin tibbi yardımın göstərilməsinə dair tapşırıqların yerinə yetirilməsi.	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Qabırğaların sınığı və döş qəfəsinin zədələnməsi zamanı ilkin tibbi yardımın göstərilməsinə dair tapşırıqların yerinə yetirilməsini təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, tapşırığın tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar	➢ Qabırğaların sınığı və döş qəfəsinin zədələnməsi zamanı ilkin tibbi yardımın göstərilməsinə dair qaydaları şifahi söyləyirsiniz. ➢ İlk öncə yaraya qalın aseptik sarğı qoyursunuz. ➢ Sarğını elə qoyursunuz ki, plevra boşluğuna daha hava gəlməsin. ➢ Xəstəni təcili surətdə cərrahiyyə şöbəsinə çatdırırsınız. ➢ Onu nəqliyyatda oturaq və ya yarımoturaq vəziyyətdə qoyursunuz. ➢ Ehtiyac varsa, şoka qarşı dərman verirsiniz.
Diqqət edilməli məqamlar!!!	➢ Xəstəni nəqliyyatda oturaq və ya yarımoturaq vəziyyətdə yerləşdirməyi diqqətdə saxlayın.

Praktik tapşırıq A.7.3 – *Sınıqlar zamanı ilkin tibbi yardımın göstərilməsinə dair tapşırıqların yerinə yetirilməsi*

İstifadə edilməli resurslar:

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Xüsusi təlim meydançası;
- Yod məhlulu, tibbi spirt, Pambıq. Sarğı bintləri,
- Taxta parçası, şina.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Sınıqlar zamanı ilkin tibbi	➢ İş paltarını geyinin.

yardımın göstərilməsinə dair tapşırıqların yerinə yetirilməsi	➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Qabırğaların sınığı və döş qəfəsinin zədələnməsi zamanı ilkin tibbi yardımın göstərilməsinə dair tapşırıqların yerinə yetirilməsini təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, tapşırığın tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar	➢ Sınıqlar zamanı ilkin tibbi yardımın göstərilməsinə dair tapşırıqların yerinə yetirilməsi. ➢ Sınmış sümük parçası xaricə çıxırsa, toxumaların içərisinə infeksiya salmamaq üçün onu əllə düzəltməyə çalışmayın. ➢ Sınmış yerə şina və ya əl altında olan başqa bir şey (taxta parçası, faner) qoyub bağlayın. ➢ Bu halda xəstəni tərpənməyə qoymayın. ➢ Şinanın altına kifayət qədər pambıq və ya adicə döşək ağını qatlayıb qoyursunuz. ➢ Zərərçəkmiş adamı tez və ehtiyatla xəstəxanaya çatdırırsınız.
Diqqət edilməli məqamlar!!!	➢ Şinanın möhkəm bağlanmasını diqqətdə saxlayın. Şinanı paltarın üstündən də qoya bilərsiniz.

<u>Praktik tapşırıq A.7.4 – Göz almasının zədələnməsi zamanı ilkin tibbi yardımın göstərilməsinə dair tapşırıqlarının yerinə yetirilməsi</u>

<u>İstifadə edilməli resurslar:</u>

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Xüsusi təlim meydançası;
- Steril salfet, İlıq su, steril sarğı, leykoplastr.
- Kağız və ya plastmas stəkan;

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Göz almasının zədələnməsi zamanı ilkin tibbi yardımın göstərilməsinə dair tapşırıqlarının yerinə yetirilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Göz almasının zədələnməsi zamanı ilkin tibbi yardımın göstərilməsinə dair tapşırıqların yerinə yetirilməsini təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, tapşırığın tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün	➢ Göz almasının zədələnməsi zamanı ilkin tibbi

tələb olunan praktiki tapşırıqlar	yardımın göstərilməsinə dair qaydaları şifahi söyləyirsiniz. ➢ Yaralanmış gözü silməyə və ovxalamağa icazə verməyin. ➢ Gözün və ya göz qapağının kəsiyi zamanı hər iki gözü steril salfet ilə bağlayın. ➢ Xırda yad cisim düşən gözü ilıq su ilə yuyun. ➢ Su ilə yuyulma kifayət etmirsə, onda göz qapağını ehtiyatla çevirib, təkrarən su ilə yuyursunuz. ➢ Göz almasını kağız və ya plastmas stəkan ilə örtün və leykoplastır ilə fiksə edin. ➢ Xəstəni qısa bir müddətdə xəstəxanaya çatdırın.
Diqqət edilməli məqamlar!!!	➢ Yad cisim gözə batdığı halda onu çıxarmağa çalışmayın.

Praktik tapşırıq A.7.5 – Yara, yara infeksiyasına qarşı sarğıların qoyulmasına dair tapşırıqların yerinə yetirilməsi

İstifadə edilməli resurslar:

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Xüsusi təlim meydançası;
- Yod məhlulu, brilyant yaşılı, spirt, izosol, jqut, steril cuna, dəsmal.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Yara, yara infeksiyasına qarşı sarğıların qoyulmasına dair tapşırıqların yerinə yetirilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Yara, yara infeksiyasına qarşı sarğıların qoyulmasına dair tapşırıqların yerinə yetirilməsini təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, tapşırığın tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar	➢ Yara, yara infeksiyasına qarşı sarğıların qoyulmasına dair tapşırıqları şifahi halda söyləyirsiniz. ➢ Yaraya sarğı qoyarkən yarada olan yad cisimləri çıxarın. ➢ Yaraya əlinizlə toxunmayın və onu silməyin. ➢ Yaranın ətrafını mümkün qədər təmizləyin və oraya yod məhlulu, brilyant yaşılı, spirt və ya izosol çəkməniz kifayət edər. ➢ Qanaxmanı müvəqqəti saxlamaq üçün jqutdan (olmadıqda başqa əşya) istifadə edin.

	➢ Sarğı qoymaq üçün steril cunadan, dəsmaldan və bintdən istifadə edin. ➢ Həmin tədbirləri gördükdən sonra yaralını xəstəxanaya göndərirsiniz.
Diqqət edilməli məqamlar!!!	➢ Yardım zamanı yaralının halını pisləşdirəcək addımlardan uzaq olun.

Praktik tapşırıq A.7.6 – Xarici qanaxmanın dayandırılmasına dair tapşırıqların yerinə yetirilməsi

İstifadə edilməli resurslar:

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Xüsusi təlim meydançası;
- Jqut və ya: dəsmal, baş yaylığı, cib dəsmalı, qalstuk və s.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Xarici qanaxmanın dayandırılmasına dair tapşırıqların yerinə yetirilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Xarici qanaxmanın dayandırılmasına dair tapşırıqların yerinə yetirilməsini təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, tapşırığın tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar 	➢ Qanaxmanın dayandırılmasının təmin edilməsi qaydalarını şifahi söyləyirsiniz. ➢ Jqutu və ya ilməni ətrafın qan axan yerinin yuxarı hissəsində bağlayırsınız. ➢ Jqut və ya ilmə qoyulduqdan sonra zərərçəkmişi öz NV-sində və digər NV-də xəstəxanaya çatdırırsınız. ➢ Jqutun qoyulma vaxtını qeyd etməlisiniz və məlumatı onun altına qoyursunuz. ➢ Qoyulan jqutu ilin isti vaxtıdırsa, 0,5 saatdan, ilin soyuq vaxtıdırsa, 1 saatdan bir boşaltmalısınız. ➢ Boşaldırsınız ki, qanın toxumalara yayılmasına şərait yaransın. ➢ Xəstəxanaya qədər yol çox uzaqdırsa, jqutun boşaldılmasını qeyd edilən vaxtlarda boşaldırsınız.
Diqqət edilməli məqamlar!!!	➢ Jqutun boşaldılma vaxtını diqqətdə saxlayın.

Praktik tapşırıq A.7.7 – Burun qanaxmasının qarşısının alınmasına dair tapşırıqların yerinə yetirilməsi

İstifadə edilməli resurslar:

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Xüsusi təlim meydançası;
- Steril tənzif, bint, pinset, soyuq bir əşya.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Burun qanaxmasının qarşısının alınmasına dair tapşırıqların yerinə yetirilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Burun qanaxmasının qarşısının alınmasına dair tapşırıqların yerinə yetirilməsini təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, tapşırığın tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar	➢ Burun qanaxmasının qarşısının alınmasına dair tapşırıqların yerinə yetirilməsini şifahi halda söyləyirsiniz. ➢ Xəstəni sakitləşdirib əyləşdirirsiniz. ➢ Axan qanı mümkünsə ləyənə yığın, çünki bu, qan itkisinin miqdarını müəyyən etməyə kömək edəcək. ➢ Xəstənin başını arxaya əymirsiniz, əks təqdirdə qan burundan axmayıb bütünlüklə udula bilər. ➢ Burun qanaxması sizin özünüzdə baş veribsə, sakit oturun, selik və qanı xaric etmək üçün qanı silin. ➢ On dəqiqə və ya qanaxma dayanana qədər burnunuzu sıxın. ➢ Burunun üstünə və ya alın nahiyəsinə buz və ya soyuq şey qoyun. ➢ Əgər bütün bunlardan sonra qanaxma dayanmazsa, onda buruna tampon qoyursunuz. ➢ Tamponu burun dəliyinə salırsınız və qanaxma dayandıqdan bir neçə saat sonra çıxarırsınız. ➢ Sonda əsaslı yardım üçün həkimə müraciət edirsiniz.
Diqqət edilməli məqamlar!!!	➢ Xəstənin başının aşağı əyilməsinə diqqət yetirməyi unutmayın.

Qiymətləndirmə çərçivəsi

Praktik tapşırıq A.7.1 – Bayılmalar zamanı ilkin tibbi yardımın göstərilməsinə dair tapşırıqların yerinə yetirilməsi

Qiymətləndirmə ölçüsü	**Bəli**	**Xeyr**
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		

2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4. Bayılmalar zamanı ilkin tibbi yardımın göstərilməsi qaydalarını şifahi söylədinizmi?		
5. Xəstəni hamar yerdə uzatdınızmı?		
6. Aşağı ətraflarının başından hündürdə olması üçün ayaqlarının altına hər hansı bir əşya qoydunuzmu?		
7. Əynindəki dar paltarları boşaltdınızmı?		
8. Yaxasını açdınızmı?		
9. Təmiz hava verdinizmi?		
10. Üzünə soyuq su çilədinizmi?		
11. Ammiakda isladılmış pambığı ona iylətdinizmi?		
12. Ammiakla isladılmış pambıqla onun gicgah nahiyələrini sürtdünüzmü?		

Praktik tapşırıq A.7.2 – *Qabırğaların sınığı və döş qəfəsinin zədələnməsi zamanı ilkin tibbi yardımın göstərilməsinə dair tapşırıqların yerinə yetirilməsi*

Qiymətləndirmə ölçüsü	**Bəli**	**Xeyr**
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4. Qabırğaların sınığı və döş qəfəsinin zədələnməsi zamanı ilkin tibbi yardımın göstərilməsinə dair qaydaları şifahi söylədinizmi?		
5. İlk öncə yaraya qalın aseptik sarğı qoydunuzmu?		
6. Sarğını elə qoydunuz ki, plevra boşluğuna daha hava gəlməsin?		
7. Xəstəni təcili surətdə cərrahiyyə şöbəsinə çatdırdınızmı?		
8. Onu nəqliyyatda oturaq və ya yarımoturaq vəziyyətdə qoydunuzmu?		
9. Şoka qarşı ehtiyac oldusa, dərman verdinizmi?		

Praktik tapşırıq A.7.3 – *Sınıqlar zamanı ilkin tibbi yardımın göstərilməsinə dair tapşırıqların yerinə yetirilməsi*

Qiymətləndirmə ölçüsü	**Bəli**	**Xeyr**
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4. Sınıqlar zamanı ilkin tibbi yardımın göstərilməsinə dair tapşırıqların yerinə yetirilməsi qaydalarını şifahi söylədinizmi?		
5. Sınmış sümük parçası xaricə çıxırsa, toxumaların içərisinə infeksiya salmamaq üçün onu əllə düzəltməyə çalışmayın.		
6. Sınmış yerə şina və ya əl altında olan başqa bir şey (taxta parçası, faner) qoyub bağladınızmı?		

7. Bu halda xəstəni tərpənməyə qoydunuz?		
8. Şinanın altına kifayət qədər pambıq və ya adicə döşək ağını qatlayıb qoydunuzmu?		
9. Zərərçəkmiş adamı tez və ehtiyatla xəstəxanaya çatdırdınızmı?		
10. Şinanın möhkəm bağlanmasını diqqətdə saxladınızmı?		

Praktik tapşırıq A.7.4 – Göz almasının zədələnməsi zamanı ilkin tibbi yardımın göstərilməsinə dair tapşırıqlarının yerinə yetirilməsi

Qiymətləndirmə ölçüsü	**Bəli**	**Xeyr**
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4. Göz almasının zədələnməsi zamanı ilkin tibbi yardımın göstərilməsinə dair qaydaları şifahi söylədinizmi?		
5. Yaralanmış gözü xəstənin silməsinə və ovxalamasına icazə vermədiniz?		
6. Gözün və ya göz qapağının kəsiyi zamanı hər iki gözü steril salfetlə bağladınızmı?		
7. Xırda yad cisim düşən gözü ilıq su ilə yudunuzmu?		
8. Su ilə yuyulma kifayət etmirsə, onda göz qapağını ehtiyatla çevirib, təkrarən su ilə yudunuzmu?		
9. Göz almasını kağız və ya plastmas stəkan ilə örtüb və leykoplastır ilə fiksə etdinizmi?		
10. Xəstəni qısa bir müddətdə xəstəxanaya çatdırdınızmı?		

Praktik tapşırıq A.7.5 – Yara, yara infeksiyasına qarşı sarğıların qoyulmasına dair tapşırıqların yerinə yetirilməsi

Qiymətləndirmə ölçüsü	**Bəli**	**Xeyr**
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4. Yara, yara infeksiyasına qarşı sarğıların qoyulmasına dair tapşırıqları şifahi halda söylədinizmi?		
5. Yaraya sarğı qoyarkən yarada olan yad cisimləri çıxardınızmı?		
6. Yaraya əlinizlə toxunaraq onu sildinizmi?		
7. Yaranın ətrafını mümkün qədər təmizləyib oraya yod məhlulu, brilyant yaşılı, spirt və ya izosol çəkməniz kifayət etdimi?		
8. Qanaxmanı müvəqqəti saxlamaq üçün jqutdan (olmadıqda başqa əşya) istifadə etdinizmi?		
9. Sarğı qoymaq üçün steril cunadan, dəsmaldan və bintdən istifadə etdinizmi?		

10. Həmin tədbirləri gördükdən sonra yaralını xəstəxanaya göndərdinizmi?		

Praktik tapşırıq A.7.6 – *Xarici qanaxmanın dayandırılmasına dair tapşırıqların yerinə yetirilməsi*

Qiymətləndirmə ölçüsü	**Bəli**	**Xeyr**
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4. Qanaxmanın dayandırılmasının təmin edilməsi qaydalarını şifahi söylədinizmi?		
5. Jqutu və ya ilməni ətrafın qan axan yerinin yuxarı hissəsində bağladınızmı?		
6. Jqut və ya ilmə qoyulduqdan sonra zərərçəkmişi öz NV-sində və ya digər NV-də xəstəxanaya çatdırdınızmı?		
7. Jqutun qoyulma vaxtını qeyd etdiyiniz məlumatı onun altına qoydunuzmu?		
8. Qoyulan jqutu ilin isti vaxtıdırsa, 0,5 saatdan, ilin soyuq vaxtıdırsa, 1 saatdan bir boşaltdınızmı?		
9. Jqutu boşaldırsınız ki, qanın toxumalara yayılmasına şərait yaransın?		
10. Xəstəxanaya qədər yol çox uzaqdırsa, jqutun boşaldılmasını qeyd edilən vaxtlarda boşaltdınızmı?		

Praktik tapşırıq A.7.7 – *Burun qanaxmasının qarşısının alınmasına dair tapşırıqların yerinə yetirilməsi*

Qiymətləndirmə ölçüsü	**Bəli**	**Xeyr**
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4. Burun qanaxmasının qarşısının alınmasına dair tapşırıqların yerinə yetirilməsini şifahi halda söylədinizmi?		
5. Xəstəni sakitləşdirib əyləşdirdiniz?		
6. Axan qanı qan itkisinin miqdarını müəyyən etmək məqsədilə ləyənə yığdınızmı?		
7. Xəstənin başını arxaya əydinizmi?		
8. Burun qanaxması sizin özünüzdə baş veribsə, sakit oturub, selik və qanı xaric etmək üçün qanı sildinizmi?		
9. On dəqiqə və ya qanaxma dayanana qədər burnunuzu sıxdınızmı?		
10. Burunun üstünə və ya alın nahiyəsinə buz və ya soyuq şey qoydunuz?		

11. Əgər bütün bunlardan sonra qanaxma dayanmazsa, onda buruna tampon qoydunuzmu?		
12. Tamponu burun dəliyindən qanaxma dayandıqdan bir neçə saat sonra çıxardınızmı?		
13. Sonda əsaslı yardım üçün həkimə müraciət etdinizmi?		

B. Təlim nəticəsi. Traktor və digər mexaniki nəqliyyat vasitələrinin fərdi sürüşü

B.1 Traktorun mühərrikini işə salmazdan öncə göstərici cihazlara nəzarət edilməsi və mühərrikin düzgün işə salınması qaydaları

İlk dəfə traktorun sükanı arxasında əyləşmək istəyən hər hansı şəxs birinci növbədə traktorun göstərici cihazları və onlardan istifadə qaydaları ilə tanış olmalıdır. Öyrənən bilməlidir ki, hansı göstərici cihaz nəyi ifadə edir. O, eyni zamanda traktor hərəkətdə olduqda bu cihazların göstəricilərinə necə nəzarət etməyi öyrənməlidir. Hər bir traktorun fərdi olaraq özünəməxsus idarə orqanları, cihazları və indikatorları olur. Göstərici cihazlar sürücünün kabinəsində cihazlar blokunda yerləşdirilir. Bütün traktorlarda idarə orqanlarının yerləşməsi demək olar ki, bir-birinə bənzəyir. Bəzi cihazlar və idarə orqanlarının dəyişdiriciləri traktorun modelindən asılı olaraq müxtəlif ola bilir.

Məlumatı müxtəlif rəngli işıq göstəriciləri ilə sürücüyə bildirən müxtəlif rəngli cihazlardan istifadə edilir:

Qırmızı rəngli nəzarət cihazları adətən qəza siqnalı rolunu oynayır. Məsələn, tormoz mayesinin səviyyəsinin azalması, yağlama sistemində yağ təzyiqinin aşağı düşməsi, mühərrikin normadan artıq qızması və s.

Narıncı rəngli nəzarət cihazı qurğuların işə qoşulduğunu, lakin hərəkətə başladıqda bunun aradan qalxacağını, ancaq məsləhət görülmədiyini bildirir.

Yaşıl rəngli nəzarət cihazları dönmə işıqlarının, qabarit işıq fənərlərinin və s. işə qoşulmasını bildirir.

Mavi rəngli nəzarət lampaları uzaq işıq fənərlərinin işə qoşulduğunu bildirir.

Hərəkət vaxtı nəzarət cihazlarından istifadə etməyi bacarmaq lazımdır. İlk başlanğıcda hərəkət vaxtı bu cihazlardan istifadə edilməsində çətinliklərin olması labüddür, lakin zaman keçdikcə sürücüdə hərəkət vaxtı bu cihazlardan düzgün istifadə vərdişləri yaranır.

Sürücü sükan arxasında düzgün qaydada əyləşməlidir. Traktorçu oturacaqda elə əyləşməlidir ki, idarəetməni ustalıqla yerinə yetirsin. Onun oturuşu elə olmalıdır ki, o, oturacağın söykənəcəyindən ayrılmadan traktorun idarə orqanları ilə problemsiz işləməyi təmin etsin. Bunu nəzərə alaraq istehsalçı müəssisələr sürücünün oturacağının vəziyyətini dəyişiləbilən hazırlayırlar ki, hər bir sürücü öz bədən parametrlərinə görə oturacağı nizamlaya bilsin.

Şəkil 18: Sükan çarxının tutulması qaydaları

Sükan çarxının tutulması da təhlükəsizliyin təmin edilməsində əsaslı rol oynayır.Sükan çarxını saat şkalasına (siferblata) bənzətsək, onda sürücü düzünə hərəkət vaxtı onun sol əli 9-10 arası, sağ əli isə 2-3 arasında tutulmuş olmalıdır. Sükan kolonkasını da vəziyyətə uyğun nizamlamaq mümkündür. Sürücü şəraitə uyğun kolonkanı nizamlamaq üçün nəzərdə tutulan tənzimləyicidən istifadə etməklə onun maillik bucaqlarını tənzimləməyi bacarmalıdır. Yadda saxlamalı, NV-nin sükan çarxını tək əllə tutaraq onu idarə etmək olmaz, bu, təhlükəsizlik baxımından çox qorxulu bir idarə *"üsuludur".* Adətən sükan çarxının tutulmasında sürücülər üç üsuldan çox istifadə edirlər: sükan çarxının qapalı tam tutulması (a), tam tutulmayan (b) və açıq tutulma (v). Sükan çarxının qapalı tam tutulması ən düzgün hesab edilir, lakin tam tutulmayan üsuldan da şəraitə uyğun istifadə edilir. Sükan çarxının açıq tutulması isə yolverilməz hesab edilir və çox təhlükəlidir.



Şəkil 20. Ayaqla pedallara toxunma qaydası

Nəzərə alsaq ki, sürücü hərəkət vaxtı qarşılaşacağı hər cür situasiyalara qarşı hazır olmalıdır, deməli sükan çarxının qapalı, tam tutulması məsləhətdir. Sükan çarxının tam olmayan tutulmasına traktor çox aşağı və hamar yolla hərəkət edərkən icazə verilir.

Sükan çarxının açıq tutulması qeyd edildiyi kimi yolverilməzdir.

Sürücü oturacaqda oturduqda onun ayaqlarının dizdən aşağı necə bükülməsinin çox böyük əhəmiyyəti var. Sürücünün ayaqları dizdən aşağı nə qədər az qatlanıbsa, o, pedalları tez və təhlükəsiz idarə edə bilər. Odur ki, sürücü sükan arxasına əyləşdikdə deyilən amili nəzərə alaraq oturacağın vəziyyətini istehsalçı müəssisənin bu məqsəd üçün quraşdırdığı oturacağı tənzimləmə dəstəyinin köməyi ilə özünə uyğun vəziyyətə gətirə bilir.



Şəkil 19. Sükan arxasında oturma qaydası

Şəkildəki birinci oturuş normaldır və sürücülər sükan çarxı arxasında bu cür oturmağa üstünlük verməlidirlər. O biri şəkillərdən də hiss olunur ki, sürücü narahatlıq keçirir. Birinci şəkildə göstərilən kimi oturuş pedalların da işlədilməsində önəmli rol oynayır.

Pedalların idarə edilməsi də sürücünün mükəmməl bilməli olduğu məqamlardan biridir. Belə ki, sol ayaqla mufta pedalını (ötürmələri avtomatik idarə olunan deyilsə), sağ ayaqla isə qaz pedalını və tormoz pedalını sıxırlar. Yadda saxlamaq lazımdır ki, sol

ayaqla tormoz pedalının sıxılmasına yol verilmir, çünki bu zaman o, sağ ayağını qaz pedalından təsadüfən çəkməyə bilər, bu isə təhlükəlidir. Pedallara toxunuş ayaq pəncələri ilə edilməlidir və çalışmaq lazımdır ki, pedalın üzərində olan sürüşmənin qarşısını alan rezin örtük yerində olsun. Zaman keçdikcə bu rezin örtük yeyilir, bu halda onu yenisi ilə dəyişmək lazımdır.

Mühərrikin işə salınması və qızdırılması. Mühərrikin işə salınma qaydaları maşınla birlikdə onun üstünə istehsalçı müəssisənin əlavə etdiyi idarə etməyə, texniki qulluqlara dair qeydlərin edildiyi təlimatda göstərilir. Hər bir sürücü nəinki mühərrikin işə salınmasını, hətta maşına texniki xidmət aparılmasını da təlimata uyğun aparmalıdır.

Mühərrikin işə salınmasını üç növə ayırmaq olar: soyuq mühərrikin işə salınması, qızdırılmış, lakin sonradan söndürülmüş, nisbətən soyumuş mühərrikin işə salınması və qızdırılmış mühərrikin söndürülərək yenidən işə salınması. Mühərriki işə salarkən starteri 10-15 saniyədən çox işə qoşmaq olmaz, bu, starterin dolaqlarının yanmasına səbəb ola bilər. 3-4 cəhddən sonra mühərrik işə düşmədikdə starterlə işə salmağı dayandırırsınız və səbəbi axtarırsınız. Mühərrik işə düşdükdən sonra o, mütləq qaydada normal temperatura qədər qızdırılmalıdır. Normal temperatura qədər qızmayan mühərriklə traktorun idarə olunması yolverilməzdir. Tam qızmayan mühərrikin tam gücü də ola bilməz. Bu hal həm də mühərrikin özünə ziyandır və tezliklə onun sıradan çıxmasına gətirib çıxaran təhlükəli bir amildir.

İşə salınmış və normal temperatura qədər qızdırılmış mühərriki söndürdükdən 1-3 saat sonra (qışda bundan da tez) tam soyuyur. Mühərrikin soyutma sistemindəki soyuducu mayenin temperaturu nisbətən isti mühərrikdə +40.....+50^0 C , tam, normal qızmış mühərrikdə isə +80.....90^{0}C olur. Az və tam qızmış mühərriklərin işə salınmasını çətinlik çəkmədən yerinə yetirmək mümkündür. Soyuq mühərrikin işə salınması, xüsusən soyuq havalarda nisbətən çətinləşir. Mənfi temperaturlarda akkumulyatorlarda olan havanın temperaturu +20^0 C-dən az olmadıqda mühərrikin işə düşmə ehtimalı 100%, -20^0 C temperaturda 50%, - 30$_0$ C temperaturda 20% təşkil edir. Ona görə də çox soyuq havalarda akkumulyator batareyasını çıxarmaq və otaq temperaturu olan bir yerdə saxlamaq tövsiyə edilir.

İşə salınmış mühərrikin məlumatverici cihazlarının göstəricilərini izləyin və hərəkət vaxtı onlara da nəzarət etməyi öyrənin. İşə salınmış mühərriki söndürərək onu bir neçə dəfə yenidən işə salın və artıq bu işi özünüzdə təkmilləşdirin.

Təlim nəticələrinin qiymətləndirilməsi

Nəzəri biliklərin qiymətləndirilməsi

Qiymətləndirmə üsulu	Suallar
1. Test sualları	Sual 1: Nəzarət-göstərici siqnalların vəzifəsi nədir? a) Təkərlərin havasına nəzarəti yerinə yetirmək b) Səsboğanın işinə nəzarət etmək c) Mühərrikin və işçi avadanlığın mühüm əhəmiyyət daşıyan hissələrinin vəziyyəti haqda sürücünü məlumatlandırmaq d) Düzgün variant göstərilməyib

	Sual 2: Sürücünün oturacağı nizamlanandırmı? a) Bəli. b) Xeyr. c) Traktorun növündən asılıdır. d) Bütün variantlar yanlışdır. Sual 3: Sükan çarxını saat siferblatı ilə müqayisə etsək, sürücü düzünə hərəkət zamanı əllərini necə tutmalıdır? a) Sol əl 9-10, sağ əl 2-3 arası b) Sol əl 8-10, sağ əl 1-30 arası c) Sol əl 10-11, sağ əl 3-4 arası d) Sürücü necə istəsə, elə də tuta bilər Sual 4: Mühərrikin vəziyyətinə görə işə salınma üsulları göstərilən variantlardan hansıdır? a) Soyuq mühərrikin işə salınması b) Qızdırıldıqdan sonra söndürülərək soyumuş mühərrikin işə salınması c) Qızdırılmış mühərrikin söndürüldükdən dərhal sonra işə salınması d) Sadalanan variantların hər biri
2. Düzgün və ya səhv cavabları seçmək	Aşağıdakı cümlələrin əvvəlində boşluğa düzgün (+) və ya səhv (-) olduğunu işarə edin: 1. ( ) Göstərici cihazlar sürücünün kabinəsində cihazlar blokunda yerləşdirilir. 2. ( ) Hərəkət vaxtı nəzarət cihazlarından istifadə etməyi bacarmağa ehtiyac yoxdur. 3. ( ) Sükan çarxının tutulması təhlükəsizliyin təmin edilməsində əsaslı rol oynayır. 4. ( ) Sürücü oturacaqda oturduqda onun ayaqlarının dizdən aşağı necə bükülməsinin əhəmiyyəti yoxdur. 5. ( ) Mühərrik işə düşdükdən sonra o, mütləq qaydada normal temperatura qədər qızdırılmalıdır. 6. ( ) Soyuq mühərrikin işə salınması soyuq havalarda nisbətən çətinləşir.
3. Boşluqları doldurmaq	Aşağıdakı cümlələri oxuyun və boşluqlara uyğun gələn sözləri daxil edin: 1. Mühərriki işə salarkən starteri 10-15 saniyədən çox işə ..... olmaz. 2. Soyuq havalarda .....batareyasını çıxarmaq və otaq temperaturu olan bir yerdə saxlamaq lazımdır. 3. Tam qızmayan ..... tam gücü də ola bilməz.

	4. Sürücünün ayaqları dizdən aşağı nə qədər az ..... o, pedalları tez və təhlükəsiz idarə edə bilər.

Praktik tapşırıqlar və fəaliyyətlər

Praktik tapşırıq B.1.1 – *Traktora minmə və düşmə tapşırıqlarının yerinə yetirilməsi*

İstifadə edilməli resurslar:

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Xüsusi təlim meydançası;
- Traktor.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Traktora minmə və düşmə tapşırıqlarının yerinə yetirilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Traktora minmə-düşmə tapşırıqlarının yerinə yetirilməsini təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, tapşırığın tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar 	➢ Traktora minmə və düşmə qaydalarını şifahi söyləyirsiniz. ➢ Düz meydançada qoyulmuş traktora yaxınlaşırsınız. ➢ Kabinənin qapısını açmadan bayırdan traktorun hər tərəfini müşahidə edirsiniz. ➢ İşıq cihazlarının, dövlət qeydiyyat nişanının, pəncərələrin şüşələrinin səthini xüsusi ayrılmış silgi əskisi ilə silib təmizləyirsiniz. ➢ Maşinistin kabinəsinin qapısını (qapının açılma istiqamətindən asılı olaraq) sol və ya sağ əlinizi uzadaraq açırsınız. ➢ Üzünüz kabinəyə doğru olmaqla sağ ayağınızı maşinistin kabinəsinə qalxmaq üçün xüsusi quraşdırılmış ayaqaltına qoyursunuz, dəstəkdən tutaraq kabinəyə doğru qalxırsınız. ➢ Kabinənin içərisinə birinci sağ ayağınızı daxil edirsiniz. ➢ Sükan çarxından tutaraq sol ayağınızı da kabinəyə daxil edirsiniz. ➢ Sonra sürücünün oturacağına əyləşirsiniz. ➢ Kabinədən düşməyi isə kabinəyə qalxma əməliyyatlarının əksinə olmaqla yerinə yetirirsiniz.

	
Diqqət edilməli məqamlar!!!	➢ Kabinədən düşərkən üzünüzün kabinəyə qalxanda olduğu kimi kabinəyə tərəf olmasına diqqət edin.

Praktik tapşırıq B.1.2 - Maşinistin kabinəsində sükan arxasında əyləşmə qaydasına dair tapşırıqların yerinə yetirilməsi

İstifadə edilməli resurslar:

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Xüsusi təlim meydançası;
- Traktor.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Maşinistin kabinəsində sükan arxasında əyləşmə qaydasına dair tapşırıqların yerinə yetirilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Maşinistin kabinəsində sükan arxasında əyləşmə qaydasına dair tapşırıqların yerinə yetirilməsini təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, tapşırığın tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar	➢ Maşinistin kabinəsində sükan arxasında əyləşmə qaydasına dair tapşırıqların yerinə yetirilməsi qaydalarını şifahi söyləyirsiniz.

	➢ Kabinəyə daxil olduqdan sonra sükan arxasında əyləşirsiniz. ➢ Sükan çarxını idarə etmək sizin üçün necə rahatdırsa, o vəziyyətə gətirirsiniz. ➢ Oturacağı ayaqlarınıza və bədən ölçülərinizə görə nizamlayırsınız. ➢ Sükan çarxının qaydalara uyğun tutulmasını məşq edirsiniz.
Diqqət edilməli məqamlar!!!	➢ Lazım gəldikdə oturacağın nizamlanmasını yaddan çıxarmayın.

Praktik tapşırıq B.1.3 - *Sürücünün kabinəsindəki nəzarət cihazlarının işi ilə tanışlığa dair tapşırıqların yerinə yetirilməsi*

İstifadə edilməli resurslar:

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Xüsusi təlim meydançası;
- Traktor.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Sürücünün kabinəsindəki nəzarət cihazların işi ilə tanışlığa dair tapşırıqların yerinə yetirilməsi	➢ İş paltarını geyinin ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Sürücünün kabinəsindəki cihazların işi ilə tanışlığa dair tapşırıqların yerinə yetirilməsini təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, tapşırığın tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar	➢ Sürücünün kabinəsindəki cihazların işi haqda şifahi məlumat verirsiniz. ➢ Cihazlar blokundakı nəzarət cihazlarına diqqət edirsiniz. ➢ Qırmızı rəngli nəzarət siqnalının cihazlar blokunda yerini tapırsınız. ➢ Yadda saxlayırsınız ki, bu siqnal göstəricisi qəza təhlükələri, məsələn, tormoz mayesinin azalması, yağın təzyiqinin aşağı düşməsi, mühərrikin normadan artıq qızması haqda məlumat verir. ➢ Narıncı rəngli siqnal göstəriciləri qurğuların işə qoşulduqlarını, lakin hərəkətə başladıqda bunun aradan qalxacağını bildirir, lakin çatışmazlığın aradan qalxmasına qədər traktoru hərəkətə gətirməyin məsləhət görülmədiyini bildirməsini yadda saxlayırsınız. ➢ Yaşıl rəngli nəzarət cihazlarının dönmə işıqlarının,

	qabarit işıq fənərlərinin və s. işə qoşulmasını bildirdiyini yadda saxlayırsınız. ➢ Spidometrin, taxoqrafın yerləşdiyi yeri yadda saxlayırsınız. ➢ Müxtəlif işləri yerinə yetirən düymələrin, çeviricilərin yerini müəyyənləşdirib yadda saxlayırsınız. ➢ Əllə idarə olunan dəstəklərin yerini və işini öyrənərək yadda saxlayırsınız. ➢ Hərəkət vaxtı nəzarət cihazlarından istifadə etməyi bacarmaq səriştəsini özünüzdə formalaşdırırsınız.
Diqqət edilməli məqamlar	➢ Diqqət etməlisiniz ki, cihazlar blokunda cəm olmuş cihaz-göstəricilərin hamısı işlək vəziyyətdə olsun.
Praktik işə dair fotoillüstrasiya	

<u>Praktik tapşırıq B.1.4 -</u> *<u>Traktor mühərrikinin işə salınmasına dair tapşırıqların yerinə yetirilməsi</u>*

<u>İstifadə edilməli resurslar:</u>

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Xüsusi təlim meydançası;
- Traktor.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Traktor mühərrikinin işə salınmasına dair tapşırıqların yerinə yetirilməsi	➢ İş paltarını geyinin ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Traktor mühərrikinin işə salınmasına dair tapşırıqlarının yerinə yetirilməsini təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, tapşırığın tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki	➢ Traktor mühərrikinin işə salınmasına dair tapşırıqların yerinə yetirilməsi qaydalarını şifahi

tapşırıqlar	söyləyirsiniz. ➢ Mühərrikin işə salınma qaydalarını istehsalçı müəssisənin traktora əlavə etdiyi təlimatdan öyrənirsiniz. ➢ Əvvəlcə soyuq mühərrikin işə salınmasını öyrənirsiniz. ➢ Qızdırılmış, lakin sonradan söndürülmüş mühərrikin işə salınmasını öyrənirsiniz. ➢ Nisbətən soyumuş mühərrikin işə salınmasını öyrənirsiniz. ➢ Qızdırılmış mühərrikin işə salınmasını öyrənirsiniz. ➢ Mühərrik işə düşdükdən sonra onu mütləq qaydada normal temperatura qədər qızdırırsınız. ➢ Mühərrikin işə salınması tapşırıqlarını bir neçə dəfə yerinə yetirirsiniz.
Diqqət edilməli məqamlar!!!	➢ Mühərriki işə salarkən starterin maksimum 10-15 saniyədən artıq işlədilməməsinə diqqət edin.

Qiymətləndirmə çərçivəsi

Praktik tapşırıq B.1.1 – *Traktora minmə və düşmə tapşırıqlarının yerinə yetirilməsi*

Qiymətləndirmə ölçüsü	**Bəli**	**Xeyr**
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4. Traktora minmə və düşmə qaydalarını şifahi söylədinizmi?		
5. Düz meydançada qoyulmuş traktora yaxınlaşdınızmı?		
6. Kabinənin qapısını açmadan bayırdan traktorun hər tərəfini müşahidə etdinizmi?		
7. İşıq cihazlarının, dövlət qeydiyyat nişanının, pəncərələrin şüşələrinin səthini xüsusi ayrılmış silgi əskisi ilə silib təmizlədinizmi?		
8. Maşinistin kabinəsinin qapısını (qapının açılma istiqamətindən asılı olaraq) sol və ya sağ əlinizi uzadaraq açdınızmı?		
9. Üzünüz kabinəyə doğru olmaqla sağ ayağınızı maşinistin kabinəsinə qalxmaq üçün xüsusi quraşdırılmış ayaqaltına qoyaraq, dəstəkdən tutaraq kabinəyə doğru qalxdınızmı?		
10. Kabinənin içərisinə birinci sağ ayağınızı daxil etdinizmi?		
11. Sükan çarxından tutaraq sol ayağınızı kabinəyə daxil etdinizmi?		
12. Sonra sürücünün oturacağına əyləşdinizmi?		
13. Kabinədən düşərkən kabinəyə qalxma əməliyyatlarının əksinə olmaqla yerinə yetirdinizmi?		

Praktik tapşırıq B.1.2 - *Maşinistin kabinəsində sükan arxasında əyləşmə qaydasına dair tapşırıqların yerinə yetirilməsi*

Qiymətləndirmə ölçüsü	**Bəli**	**Xeyr**
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4. Maşinistin kabinəsində sükan arxasında əyləşmə qaydasına dair tapşırıqların yerinə yetirilməsi qaydalarını şifahi söylədinizmi?		
5. Kabinəyə daxil olduqdan sonra sükan arxasında əyləşdinizmi?		
6. Sükan çarxını idarə etmək sizin üçün necə rahatdırsa, o vəziyyətə gətirdinizmi?		
7. Oturacağı ayaqlarınıza və bədən ölçülərinizə görə nizamladınızmı?		
8. Sükan çarxının qaydalara uyğun tutulmasını məşq etdinizmi?		

Praktik tapşırıq B.1.3 - *Sürücünün kabinəsindəki nəzarət cihazlarının işi ilə tanışlığa dair tapşırıqların yerinə yetirilməsi*

Qiymətləndirmə ölçüsü	**Bəli**	**Xeyr**
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4. Sürücünün kabinəsindəki cihazların işi haqda şifahi məlumat verdinizmi?		
5. Cihazlar blokundakı nəzarət cihazlarına diqqət etdinizmi?		
6. Qırmızı rəngli nəzarət siqnalının cihazlar blokunda yerini tapdınızmı?		
7. Yadda saxladınız ki, bu siqnal göstəricisi qəza təhlükələri, məsələn, tormoz mayesinin azalması, yağın təzyiqinin aşağı düşməsi, mühərrikin normadan artıq qızması haqda məlumat verir?		
8. Yadda saxladınızmı ki, narıncı rəngli siqnal göstəriciləri qurğuların işə qoşulduqlarını, lakin hərəkətə başladıqda bunun aradan qalxacağını bildirir? Lakin çatışmazlığın aradan qalxmasına qədər traktoru hərəkətə gətirməyin məsləhət görülmədiyini bilirsinizmi?		
9. Yaşıl rəngli nəzarət cihazlarının dönmə işıqlarının, qabarit işıq fənərlərinin və s. işə qoşulmasını bildirdiyini yadda saxladınızmı?		
10. Spidometrin, taxoqrafın yerləşdiyi yeri yadda saxladınızmı?		
11. Müxtəlif işləri yerinə yetirən düymələrin, çeviricilərin yerini müəyyənləşdirib yadda saxladınızmı?		
12. Əllə idarə olunan dəstəklərin yerini və işini öyrənərək yadda saxladınızmı?		
13. Hərəkət vaxtı nəzarət cihazlarından istifadə etməyi bacarmaq səriştəsini özünüzdə formalaşdıra bildinizmi?		

Praktik tapşırıq B.1.4 - *Traktor mühərrikinin işə salınmasına dair tapşırıqların yerinə yetirilməsi*

Qiymətləndirmə ölçüsü	Bəli	Xeyr
1. İş paltarını, iş ayaqqabısını və əlcəyi geyindinizmi?		
2. İşləri yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl etdinizmi?		
3. İşləri yerinə yetirərkən icraya dair təlimatdan istifadə etdinizmi?		
4. Traktor mühərrikinin işə salınmasına dair tapşırıqların yerinə yetirilməsi qaydalarını şifahi söylədinizmi?		
5. Mühərrikin işə salınma qaydalarını istehsalçı müəssisənin traktora əlavə etdiyi təlimatdan öyrəndinizmi?		
6. Əvvəlcə soyuq mühərrikin işə salınmasını öyrəndinizmi?		
7. Qızdırılmış, lakin sonradan söndürülmüş mühərrikin işə salınmasını öyrənə bildinizmi?		
8. Nisbətən soyumuş mühərrikin işə salınmasını da öyrəndinizmi?		
9. Qızdırılmış mühərrikin işə salınmasını öyrəndinizmi?		
10. Mühərrik işə düşdükdən sonra onu normal temperatura qədər qızdırdınızmı?		
11. Mühərrikin işə salınması tapşırıqlarını bir neçə dəfə yerinə yetirərək təkmilləşdirmə apardınızmı?		

B.2 Təlim meydançasında traktor və digər mexaniki nəqliyyat vasitələrinin sürülməsi

Traktorların sürülməsini yeni öyrənənlər traktorun mühərrikini işə salmağı öyrənəndən sonra kiçik ötürməni qoşaraq traktoru yerindən tərpətməlidirlər. Traktoru yerindən tərpətdikdə onun yerindən birdən atılmaması və ya mühərrikinin sönməməsi üçün ötürməni qoşmazdan qabaq qazı bir az artırmaq və mühərrikin dövrlər sayını dəqiqədə 1500-2000 dövrə çatdırmaq lazımdır. Yalnız bundan sonra dərhal aşağı ötürməni qoşmaq, yüngül qaz vermək və mufta pedalını ehmalca buraxmaq lazımdır. Avtomatik qoşulan ötürmələr qutusu ilə idarə olunan traktorlarda isə ötürmələr qutusunun dəstəyinin “D” bölümünə qoşub, yüngül qaz verməklə traktorun yerindən rəvan tərpənməsinə nail olursunuz.

Əgər siz yoxuşda yerindən tərpətmə tapşırığını icra edirsinizsə, onda bu əməliyyat hamar yerlərdə traktorun yerindən tərpədilməsinə nəzərən bir az fərqli olacaq. Belə ki, bu halda traktorun əvvəlcədən işə qoşulmuş duracaq tormozunun işdən ayrılması ilə traktorun yerindən tərpədilməsi eyni vaxtda baş verməlidir.

Qış vaxtı traktoru yerindən tərpədən zaman birinci növbədə qabaq təkərin traktorun mərkəzi oxuna paralel olaraq düz dayanmasına diqqət etməlisiniz. Təkərin

çəpəki dayanması əlavə müqavimətə səbəb olacaq və bu halı siz traktoru yerindən tərpətdikdə aydın hiss edəcəksiniz.

Beləliklə, ilkin olaraq təlim meydançasında (poliqonda) traktoru yerindən tərpətməyi və aşağı sürətlə irəli-geri hərəkətləri yerinə yetirirsiniz. Ötürmələri azdan çoxa dəyişməklə sürəti tədricən artırın və eyni zamanda yuxarı ötürmələrdən aşağı ötürmələrə düşməyin yollarını əsaslı olaraq öyrənin. Geriyə hərəkətləri yerinə yetirərkən traktorun yan güzgülərindən istifadə etməyi öyrənin və heç bir kömək olmadan geriyə hərəkəti sərbəst yerinə yetirməyə çalışın. Bu bacarıqlara sahib olduqdan sonra tədricən sürətləri dəyişməklə traktorun sürülməsini həyata keçirirsiniz və özünüzdə bu bacarığın vərdiş halına çatdırılmasına nail olursunuz. Traktorla sağa və sola manevrlər edin və idarə orqanlarından düzgün istifadə qaydalarını mükəmməl öyrənin.

Növbəti əməliyyatda digər mexaniki NV-nin sürülməsini həyata keçirirsiniz. Məsələn, tırtıllı traktorlar üzərində yuxarıda sadalanan addımları yerinə yetirərək bu NV-nin də sürülməsi bacarıqlarını özünüzdə formalaşdırırsınız. Yadda saxlayın: tırtıllı hərəkət hissəli NV ilə asfalt-beton örtüklü yollarda hərəkət etmək qadağandır.



Şəkil 21. İdarə dəstəklərinin tutulması qaydası

NV-nin mühərrikinin gücündən maksimum istifadə etmək sürücüdən maksimum bilik və bacarıqlar tələb edir. Məsələn, ötürmələrin düzgün və vaxtında qoşulması, yol şəraitinin, hava şəraitinin düzgün qiymətləndirilməsi sürücüdən sərişdə tələb edən amillərdir.Ötürmələri qoşarkən ötürmələr qutusunun dəstəyini normalara uyğun tutmalısınız. Bir az qeyri-dəqiqlik hər hansı bir qəzanın baş verməsi üçün kifayət edər.

Dayanmaq istədikdə tormozlardan düzgün istifadə etməlisiniz. Tormozlama zamanı ötürmələr qutusunun dəstəyini son anda neytral vəziyyətə gətirin. Dayandıqdan sonra isə duracaq tormozunu işə salmağı unutmayın.

Təlim nəticələrinin qiymətləndirilməsi

Nəzəri biliklərin qiymətləndirilməsi

Qiymətləndirmə üsulu	Suallar
1. Test sualları	-
2. Düzgün və ya səhv cavabları seçmək	Aşağıdakı cümlələrin əvvəlində boşluğa düzgün (+) və ya səhv (-) olduğunu işarə edin: 1. ( ) Traktoru yerindən tərpətdikdə onun yerindən birdən atılmaması üçün yuxarı ötürməni qoşmaq lazımdır. 2. ( ) Traktoru yerindən tərpətməzdən əvvəl mühərrikin dövrlər sayını artırmaq lazımdır.

	3. ( ) Yoxuşda hərəkətə başlamaq istədikdə duracaq tormozunun işdən ayrılması ilə traktorun yerindən tərpənməsi eyni anda baş verməlidir. 4. ( ) Tırtıllı hərəkət hissəli traktorların asfalt-beton örtüklü yollarda hərəkəti qadağandır.
3. Boşluqları doldurmaq	Aşağıdakı cümlələri oxuyun və boşluqlara uyğun gələn sözləri daxil edin: 1. Geriyə hərəkət zamanı yan .... istifadəyə geniş yer verin. 2. Dayanmaq istədikdə ..... düzgün istifadə edilməlidir. 3. Qış vaxtı traktorun yerindən ..... zaman qabaq təkərlərin düz dayanmasına diqqət edin. 4. Ötürmələri qoşarkən əlinizlə ötürmələri dəyişmə ..... normalara tutmalısınız.

Praktik tapşırıqlar və fəaliyyətlər

Praktik tapşırıq B.2.1 - *Təkərli traktorun yerindən tərpədilməsinə dair tapşırıqların yerinə yetirilməsi*

İstifadə edilməli resurslar:

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Xüsusi təlim meydançası;
- Traktor.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Təkərli traktorun yerindən tərpədilməsinə dair tapşırıqların yerinə yetirilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Təkərli traktorun yerindən tərpədilməsinə dair tapşırıqların yerinə yetirilməsini təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, tapşırığın tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
Təlim nəticələrinə nail olmaq üçün tələb olunan praktiki tapşırıqlar	➢ Təkərli traktorun yerindən tərpədilməsinə dair qaydaları şifahi söyləyirsiniz. ➢ Traktorun mühərrikini işə salaraq normal temperatura qədər qızdırırsınız. ➢ Ötürməni qoşmazdan əvvəl mühərrikin dövrlər sayını artırırsınız. ➢ Aşağı ötürməni qoşursunuz. ➢ Ayağınızı ilişmə muftasının pedalından ehtiyatla bir az boşaldırsınız və yüngül qaz verirsiniz. ➢ Traktor yerindən hərəkətə gəlir və bu ötürmə ilə onu bir qədər irəli sürüsünüz.

	➢ Transmissiyanı işdən ayırırsınız və hərəkətə başlama əməliyyatını yenidən təkrarlayırsınız ki, bu, sizdə vərdiş halı alsın.
Diqqət edilməli məqamlar!!!	➢ Traktorun yerindən birdən tərpənməməsi üçün mufta pedalını birdən boşaltmayın.

Praktik tapşırıq B.2.2 – Təkərli traktorların dəyişən sürətlərlə sürülməsinə dair tapşırıqların yerinə yetirilməsi

İstifadə edilməli resurslar:

- İş paltarı;
- İstifadə etmək üçün təlimat;
- Xüsusi təlim meydançası;
- Traktor.

Fəaliyyət və tapşırıqlar	**Təlimat və tövsiyələr**
Təkərli traktorun dəyişən sürətlə sürülməsinə dair tapşırıqların yerinə yetirilməsi	➢ İş paltarını geyinin. ➢ Əməyin təhlükəsizliyi qaydalarına əməl edin. ➢ Təkərli traktorun dəyişən sürətlə sürülməsinə dair tapşırıqların yerinə yetirilməsini təlimatın tələblərinə uyğun yerinə yetirin. ➢ Çalışmalısınız ki, tapşırığın tələblərini maksimum dəqiqliklə yerinə yetirəsiniz.
